**SURXAY SUBU**

# PARÇALANAN MƏMLƏKƏT
# VƏ
# BÖYÜK QAYIDIŞ

**"Elm və təhsil"**
**Bakı – 2021**

**Surxay Subu(Surxay Rafiq oğlu Babayev). Parçalanan məmləkət və Böyük qayıdış.Bakı.”Elm və təhsil”, 2021, 176 səh.**

**ISBN 978-9952-37-417-9**

**© Surxay Subu, 2021**

***Ac qal, topal qal, kor qal,***
***fəqət torpaqsız qalma.***
*Atalar sözü.*

Bir əlində qaranlığa işıq saçan od, digər əlində onun ahəstə yerişinə təkan verən sərv ağaclı əsasına dirəklənərək uca dağa doğru addımlayan kürən saçlı və saqqallı Elhaqq xeyirxah fikiri, xeyirxah sözü və xeyirxah əməli el-oba əhlinə təlqin etmək üçün vətəni qarış-qarış gəzməkdə idi. Vaxtilə, Zərdüşt təlimini və vətən torpağının tarixini təbliğ edən el adamları olan ulu babaları-Elxan, Eldəniz, Elturan və nəhayət ustadı Elməddin tərəfindən bu günə kimi davam etdirilən ənənəni, indi Elhaqq davam etdirirdi. Bu təlimin davamçıları həyatın əsasını od, su, hava və torpaqda görərək insanları doğruçuluğa dəvət edir, xeyirxah fikir, söz və əməl sahibi olmağa çağırırdı. Ata-babalarının təlim dərsindən əxz etmişdi ki, Zərdüştlük sonradan yaranmış bütün dinlərin, -İudizmin, Xristianlığın, Müsəlmanlığın və Buddizmin inkişafında böyük rol oynamış ən qədim dini təlim idi. Bu dinin əbədi başlanğıcı-Xeyir və Şərin mübarizəsi idi. Səyahətə çıxdığı andan bütün yol boyu olan kənd və şəhərlərdə babalarının haqq təlimini ellərə yayan Elhaqq, xəyalında əcdadlarının təlimini canlandırırmış kimi yoluna davam edərək, xeyirxah əməlinin təbliğindən qürurlanırdı. Bu elə bir dövr idi ki, əsli -kökü bilinməyən, fitnəkarlığı ilə insanların xoşbəxt həyatını zülmə

çevirən erməni Qriqorian xristianlığının Azərbaycan torpaqlarında minbir hiylə ilə geniş yayılmasına təsadüf edirdi. Elhaqqa görə bu Qriqoriyan xristiyanlığının əsas təlimi, nəyin bahasına olursa olsun yad torpaqları zəbt etməklə, yeni monastr və xram tikdirib, digər xalqları qriqoriyanlaşdırmaq, erməniləşdirməkdir. Qafqaza ayaq qoyduqları ilk gündən yerli əhalinin torpaqlarını müxtəlif ağıla batmayan, haqqa əsaslanmayan yollarla ələ keçirib kilsələr yaradan ermənilər yerli əhalinin başına olmazın bəlalar gətirirdilər. Varidatlarını itirmiş əhali bu qaniçənlərdən yaxa qurtarıb azad həyat axtarışı ilə digər ellərə üz tutmağa məcbur olurdular. Bütün elləri gəzib doğruçuluğu, haqqı, ədaləti təbliğ edən Elhaqq digər dinlərə hörmətlə yanaşdığı halda, zülm mənbəyi olan Qriqoriyan xristiyan dinini şər qüvvələrinin dini kimi görür və Qriqoriyanlığı pak, təmiz din hesab etmirdi.

Elə bu fikirlərlə əlindəki sərv ağaclı əsası ilə hündür təpəyə qalxan Elhaqq hiss edirdi ki, tərkü-piyada olaraq xeyli yol qət edib və bərk də yorulub. Təpəyə qalxıb hər tərəfə nəzər salan Elhaqq, bir az aşağıda gövdəli çinar ağacının kölgə saldığı xırmana yolunu salmış oldu. Dərindən bir oxxay, -deyib yorğunluğunu çıxarırmış kimi, sərv ağaclı əsasını çinarın yoğun gövdəsinə söykəyib, elə gövdənin oturmağa layiq olan hissəsində rahatlanmış oldu. Xırmandan bir xeyli aralıda qalın meşələrin əhatəsində olan göy çəmənlikdə bir oba görsənirdi. Fikirləşdi ki, bir az yorğunluğunu aldıqdan sonra obaya gedər və oba əhlinə xeyirxah əməl aşılayar, xeyirxah fikir-

ləri ilə onları feyziyab edər. Yorğunluğunu alan Elhaqq sərv ağaclı əsasına dirsəklənib ayağa qalxmaq itəyirdi ki, birdən buğ yeri təzəcə tərləmiş gənclərin qıy vuraraq, xırmana yaxınlaşmasını gördü. Gənclər at belində qılınc vuraraq, sanki güclərini sınayırdılar. Yeniyetmə cavanlar atlarını şahə qaldıraraq elə qılınc oynadırdılar ki, elə bil müharibə aparırdılar. Bu cavanların içində qılınc oynatmaq məharətinə və at çapıb meydan sulamağına görə, qartal baxışı, cəsarəti və hünəri ilə seçilənin birisi Elhaqqı valeh etmişdi. Yeniyetmə cavanlar qılınc oynatma və at çapmaq məharətlərini göstərdikdən sonra, əlbəyaxa vuruşa keçərkən, Elhaqq dəlisov cavanları sülhə dəvət etmiş oldu. Elhaqq cavanlarla görüşdükdən sonar üzünü qartal baxışlı və hünərli cavana tutub soruşdu:

Oğlim, kimlərdənsən, ismin necədir?

İsmim Nadirquludur. Əlini dağətəyi kəndə tuşlayaraq, mən bu kəndənnəm, kəndimizin adı Dəstgirdir, -dedi.

- Bəlkə, eşitmisiniz?

Bizim kənd Xorasan vilayətinin Dərgəz mahalına tabedir və mən türk tayfalarından olan Əfşarların Qırxlı boyunun nümayəndəsiyəm. Kəndimizin camaatı, əsasən maldarlıqla məşğul olur. Mənim əcdadlarım şah İsmayıl dövründə Azərbaycandan Xorasana köçürülənlərdir və mən bu ailədə dünyaya göz açmışam. Nadirqulunun bütöv və əhatəli cavabı, onun ədəbli, bacarıqlı, hazırcavab və fərasətli olmasına dəlalət edirdi. Nadirqulunun diribaşlığı, çevikliyi, sərkərdələrə xas olan döyüş məharəti, ən əsası yüksəklikləri fəth etmək bacarığını özündə əks

etdirən qartal baxışları, çox şeydən xəbər verirdi. Yeniyetmə cavana diqqətlə baxan dünyagörmüş Elhaqq, əlini Nadirqulunun çiyninə qoyub dedi:

Azərbaycan elinin çox böyük igidləri olub. Bu igidlər öz torpaqlarını, ellərini, dillərini sevərək, güclü Azərbaycan dövlətini yaratmaqla bərabər, onun ərazi bütövlüyünü qorumuş, saxlamış və eyni zamanda adət-ənənəsindən tutmuş mədəniyyətlərinə qədər olan nə varsa unutmamışlar. Sənin və əcdadlarının yaşamış olduğu Səfəvi dövlətini yaradan şah İsmayıl Heydər oğlu Xətayidir. 1501-ci ildə Səfəvi Azərbaycan dövlətini yaratmaqla bütün Azərbaycan ellərini bir yumruq kimi, dövlət əsnasında birləşdirərək, bu dövlətə babası şeyx Səfiyyəddin Ərdəbillinin adını vermişdir. Ən başlıcası odur ki, dövlət dili Azərbaycan tarixində ilk dəfə olaraq bizim danışdığımız Azərbaycan-türkü dili olmuşdur. Bax oğlum ən azından şah İsmayıl kimi igidlərimizə oxşamaq lazımdır. İndi Səfəvi dövləti şah İsmayıl dövründəki kimi güclü deyil. Xalq parakəndə olaraq ağır yaşam dövrünü keçirir. İndiki halda bizim xalqımızın yumruq kimi birləşdirilməsinə böyük ehtiyac var. Əgər, biz birlik əldə etməsək, torpağımıza göz dikən yadellilərə qarşı çıxa bilməyəciyik.

Elhaqq haqqdan danışdıqca Nadirqulunu qartal siması daha da ciddiləşirdi. Nadirqulunun qılınc tutan əlləri elə yumruqlanmışdı ki, sanki torpağını yadellilərdən qorumaq üçün, hucuma hazırlaşırdı. Daxilində yanan odun qığılcımları gözlərində əks olunurdu. Bu gözlərdə, vətənini işıqlı günlərə çıxaracaq qığılcımın şölələrini gör-

məmək mümkün deyildi. Hiss olunurdu ki, türkü danışan bu türk balasının anası torpaq, atası od olduğundan nə vaxtsa türk dünyasının sayılıb-seçilən igidlərində biri olacaqdır. Nəhayət , Nadirqulu haqq, ədalət və doqru söz carçısı olan Elhaqq atanın əllərindən öpüb, xudahafizləşərkən dedi:

-Mənim nurlu və xeyirxah böyüyüm, əgər bu ulu torpaq şah İsmayıl kimi igidlər tərəfindən dövlət kimi yaradılıb və qorunubsa, deməli yeni yaranacaq igidlər tərəfindən də vətənimiz qorunub saxlanacaq. Rəbbimiz imkan versə biz nə vaxtsa görüşəcəyik. Nadirqulunun qətiyyətli sözləri Elhaqqı daxilən qürurlandırmışdı. Odur ki, xudahafizləşərkən bir göz qırpımında atına minib, sanki düşmən üstünə şığıyırmış kimi, haray çəkmək istəyən Nadirquluya dedi:

-Bütün dualarım sənin üçündür oğlum!

Biz əlbəəttə ki, görüşəcəyik?!

Mən bu görüşə bütün varlığımla inanıram. Yaxşı deyiblər atalarımız: "Dağ dağa rast gəlməsə də, insan insana rast gələr. "

Atına qamçı vurub, dəli kimi haraylanan Nadirqulu başqa igid gənclərlə bərabər bir anda gözdən itmiş oldu. Ürəyinə və beyninə hakim olmuş Nadirqulu ilə nə vaxtsa görüşəcəyinə əmin olan Elhaqq, havanın qaralmasına rəğmən əlinə işıq saçan odunu və sərv ağaclı əsasını götürərək xeyir əməllərinin təbliği üçün, yolçu yoluna gərək, -deyib səyahət yolunu davam etdirmiş oldu.

Nadirqulunun on səkkiz yaşı tamam olmamış, Xarəzm özbəklərinin hucumlarının birində, anası ilə bərabər əsir götürülərək qul kimi işlədilir. Lakin, daxili vüqarı əsirliklə barışmadığından, çox çəkmədən əsirlikdən qurtulan Nadirqulu Xorasana qayıdır və Əbivərd hökmdarı Baba Əli bəyin yanında qulluğa girir. İgidlik eşqi ilə od tutub yanan Nadirqulu çox çəkmir ki, başına kiçik bir dəstə toplayıb bir neçə Xorasan əyalətini zəbt edərək, özünü Nadirqulu bəy adlandırmağa başlayır. Lakin, feodal Məlik Mahmud tərəfindən Nadirin yaratdığı qurumun qarşısı alınır. Nadirqulu bəy kömək üçün şah 1-ci Təhmasibə müraciət edir. Şah 1-ci Təhmasib və Fətəli xan Qacar birləşərək Xorasana gəlirlər və Nadirqulu bəy onlarla birləşir. Məlik Mahmudun məqlubiyyətindən sonra, şah 1-ci Təhmasib Nadirqulu bəyi Xorasanda öz canişini təyin edir. Bu münasibətlə Nadir özünə Təhmasibqulu adını götürür. Xorasan hökmranlığını qorumaq istəyən Nadir Təhmasibqulu, Fətəli xanla məğlub olmuş Məlik Mahmud arasındakı sövdələşməni Şah 1-ci Təhmasibə əsas gətirərək, Fətəli xanın Şah 1-ci Təhmasib tərəfindən öldürülməsinə nail olur. Silahlı qüvvələrin baş komandanı olan Nadirqulu xan Məlik Mahmudun qoşunlarını məhv edərək öz mövqeyini möhkəmlədir. Nüfuzunu gücləndirən Nadirqulu xan Şah 1-ci Təhmasiblə bütün əlaqələrini kəsib Xorasanda öz hökmdarlığı uğrunda mübarizə aparmağa önəm verir. Artıq, Xorasan əhli arasında böyük nüfuz sahibi olan Nadirqulu xana daha çox inam

bəslənilir. Şah 1-ci Təhmasibdən çox, Nadirqulu xanın şöhrəti el arasında yayılmağa başlayır.

Nadirqulu xanın Xorasanda hökmranlıq şöhrəti haqq aşiqi olaraq, bütün məmləkəti qarış-qarış gəzən və xalqa həqiqəti aşılayan el adamı Elhaqqa da çatmış olur. Elhaqq Xorasan vilayətinin Dəstgird kəndinin Qırxlı boyunun türk tayfasından olan və at çapmaq, qılınc oynatmaq məharəti ilə yaddaşına hakim kəsilmiş qartal baxışlı gənci xatırlayır. Bir vaxtlar görüşmək vədlərini yadına salan Elhaqq, Xorasan hökmdarı kimi ad çıxarmış Nadirqulu xanla görüçməyi qərarlaşdırır. Çox çəkmir ki, xeyirxah əməl təbliğatçısı Elhaqq Nadirqulu xan tərəfindən qəbul olunur. Həqiqət aşiqi olan Elhaqqla görüşən Nadirqulu xan xalqının keçmiş tarixinin bilicisi olan, haqq aşiqi Elhaqqı yanında məsləhətçi olaraq qulluğa girməsini məsləhət görür və Nadirqulu xan Elhaqqın razılığını almaqla məqsədinə nail olur. Nadirqulu xan bir vaxtlar xalqımızın başına yadellilərin gətirdiyi bəlaları, şah İsmayılın Azərbaycan dövləti yaratmaq milli qeyrətini, torpağımıza kəm baxan yadellilərə qarşı mübarizliyini xatırlayıb, Elhaqqdan Azərbaycan türkünün tarixini və bizim torpaqlara kəm baxanların tarixini danışmasını xahiş edir. Nadirqulu xanın əsas məqsədi keçmiş tariximizi öyrənməklə, gələcəkdə yaradacağı dövlət və yadelli işğalçılara qarşı aparacağı fatehlik yürüşlərində yiyələnəcəyi tarixi biliklərə söykənmək idi. Odur ki, Elhaqq əcdadlarının miras qoyduğu tarixi həqiqətləri ərz etmək imkanını əldən vermədi.

Azərbaycan adlı ölkəmizin tarixi çox qədimdir, -deyə Nadirqulu xanın xahişini nəzərə alan Elhaqq, tariximizi söyləməkdə qərarlı olur.

Bu xalqın qədimiliyini göstərən nümunə Azıx mağarasıdır. Bu mağarada Azərbaycan xalqının əcdadları olan qədim insanlar yaşamışlar ki, bu qədim insanların yaranma tarixi 350-400 min ildən əvvəlki illərə təsadüf edir. Eramızdan əvvəl 9-6-cı əsrlərdə Azərbaycan torpağımızda Manna dövləti yaranır. Manna dövləti öz varlığını qorumaq üçün yadelli Assuriya və Urartu dövlətləri ilə mübarizə aparır və sonralar Urattu dövlətinin varlığına son qoyur.Sonralar Midiya dövləti (e. ə. 672-550 illərdə)təşəkkül tapır. Midiya dövlətinin varlığı zamanı geniş inkişaf yaranır və Əhəminilər dövründə də(e. ə. 550-330 illərdə) bu inkişaf davam edir. Daha sonralar Argeadear sülaləsinin (e. ə. 356-323 illərdə) iyirmi yaşlı hökmdarı olan Makedoniyalı İsgəndər(e. ə. 334 ildə)Əhəminilər sülaləsini dağıtdıqdan sonra, Azərbaycan dövlətçiliyində siyasi proseslər dəyişilməyə başladı. Belə ki, çox çəkmədən tif xəstəliyindən dünyasını dəyişən fateh Makedoniyalı İsgəndərin yaratdığı ucu-bucağı görünməyən imperiyası dağılmağa başladı. İmperiyanın dağılmasından sonra Azərbaycanın cənubunda Atropatena, şimalında isə Albaniya adlı türk-xristiyan olan dövlətlər yarandı. Atropatena və Albaniya dövlətləri (e. ə. 4-8 əsrlərdə)Azərbaycan xalqının təşəkkül və inkişafında böyük rol oynamışlar və demək olar ki, müstəqil siyasət aparmışlar. Azərbaycan xalqının əcdadları olan qədim insan-

ların yaşadığı Azıx mağarası Qarabağ ərazisində olduğundan, Qarabağ Alban dövlətinin tabeçiliyində olmuşdur. Qarabağ ərazisinin, o cümlədən Azıx mağarasının qorunub saxlanmasında Alban dövlətinin rolu tarixi əhəmiyyətə malikdir. Azıx mağarası Qarabağ ərazisində olduğundan əksəri Azərbaycanlıların yaşadığı Qarabağın da qədimiliyi şübhəsizdir. Qarabağ Azərbaycan xalqının diyarı olduğundan, elə" Qara" və "bağ" Azərbaycan sözlərindən əmələ gəlmişdir. Əslində bizim Azərbaycan dili çoxmənalı olduğundan"qara" və "bağ"sözləri də məna kəsb etmişdir. Yəni qara sözü, "qalın", "sıx", "böyük", "şəfalı"mənasını verdiyindən "qara bağ" adının mənası da"sıx bağ", "qalın bağ", "böyük bağ", "şəfalı bağ"mənasını əks etdirmişdir. Albaniya dövləti ərazisində oğuz-türklərlə bərabər, digər tayfalar Uti, Sak, Qarqar, Sovdey kimi Alban etnosları da mehriban yaşayıb yaratmışlar. Həmin etnoslardan diqqəti cəlb edən Sakların yaşadığı Arsak-Arsax bölgəsidir. Arsak, Ərsak, Arsax qədim Azərbaycan türk tayfasıdır və Azərbaycan dili çoxmənalı olduğundan, Sakların yaşadığı bölgə "ər"-igid, kişi mənası daşıyıb və Sak kişisi, igidi, əri deməkdir. Azərbaycan xalqının təşəkkül tapmasında digər tayfalarla bərabər, Saklar da böyük rol oynamışlar.

Azərbaycanın ümumitürk şifahi xalq ədəbiyyatının incisi olan "Kitabi-Dədə-Qorqud"qəhrəmanlıq dastanı elə bu vaxtlarda Qarabağ və Göyçə gölü ətrafında yaşayan xalqımızın dillər əzbəri olmuşdur. Göyçə dəniz yaylaqlarının və Qarabağın qədim oğuz türklərinə məxsuslu-

ğu "Kitabi-Dədə-Qorqud" abidə dastanında da öz əksini tapmışdır. Lakin, Azərbaycan-Alban dövlətlərinin birgə siyasəti və yaşayışı Ərəb xilafətinin işğalları dövründə uğursuzluğa səbəb olmuşdur. Belə ki, Ərəb xilafətinin Azərbaycan-Alban dövlətlərinə hucumu və Albanların Ərəb xilafətinə tabe olmaması, xilafətin xeyrinə vergi verməməsi narazılıq yaratmışdır. Ərəb xilafətinin vergiləri o qədər yüksək olmuşdur ki, bu verginin xalqa gətirdiyi acınacaqlı vəziyyət bayatılarda da əksini tapmışdır:

Ərəb gəldi pay verin,
Nə istəsə pay verin,
Aza duran deyillər,
Gətirin tay-tay verin.

O vaxt bəzi oğuz türkləri və xristiyan olan Alban tayfaları xilafətə qarşı çıxa bilməyib, birincisi xilafətə vergi verməklə bərabər islamı qılınc gücünə qəbul etməyə başladığı halda, xristiyanlar Xilafətə vergi verməmək üçün Bizans İmperiyası ilə sazişə girmək arzusunu reallaşdırmaq istəyirlər. İslamı qəbul etməyən və vergi verməkdən boyun qaçıran Alban xristiyan kilsələrinin Bizansla sazişə getmək istəməsi, Ərəb xilafətçilərinin ürəyincə olmadığından xilafətçilər, Alban kilsələrini özününküləşdirərək qriqoriyanlaşdıran Erməni-Qriqoriyan katolikosları ilə dilbir olub, Bizans imperiyasının cənubu Qafqazdakı mənafelərinə zərbə vurmuş oldular. Beləliklə, Ərəb xilafəti Albaniyadakı maraqlarını güdən Ermə-

ni Qriqoriyan katoliklərinin simasında özünə mütəffiq tapmış olur. Məhz bu mtəffiqliyinin nəticəsi idi ki, Ərəb xəlifəsi İliaya erməni katolikosuna yazırdı:

"Biz əmr etdik ki, bizim ağalığımıza qarşı çıxış etmiş albanların (etiqadında)sizin dinə uyğun düzəlişlər edilsin." Ərəb xilafətinin bu mütəffiqliyi sonralar xalqımızın başına bəlalar gətirdi. Bu mütəffiqliyin nəticəsi olaraq, Erməni katolikosluğunun başçılıq etdiyi kilsə məclisinin keçmiş axidyakonu, Simeonu Albaniyanın katolikosu seçir. Erməni katolikosları yaranmış şəraitdən istifadə edərək Alban kilsələrini qriqorianlaşdırmaqla bərabər, Albanları da erməniləşdirməyə başlayırlar. Belə ki, müsəlman olmayan alban əhalisinin bir hissəsi Xristiyan kilsələrinə getmək imkanından məhrum olduqlarından arada qalmış oldular və əlacsızlıqdan qriqoriyanlaşdırılmış xristiyan kilsələrinə gedərək, erməniləşməyə məruz qaldılar.Bundan əlavə, ermənilər Albanların bütün dini məbədlərini tamamilə ələ keçirib, Alban əhalisini tam qriqoriyanlaşmasına nail olmaq üçün ciddi fəaliyyətə başladılar.Elhaqq Azərbaycanın keşməkeşli tarixini Nadirqulu xana danışarkən, əsəbindən eşmə buğlarını gəmirən və tez-tez yumruqlanmış əlini dizlərinə vuran xanın haldan hala düşməsini görürdü. Birdən qəzəbli olaraq dik ayağa qalxan Nadirqulu xan özündən asılı olmayacaq bir təzdə soruşdu:

-Yaxşı, de görüm, bu Qriqoriyan erməniləri haradan peyda olublar?!

Necə olub ki, bu ermənilər cəsarət edib Albanların etiqadlarını, ibadət evlərini qriqorianlaşdırmağa çalışırblar?!

Elhaqq əcdadlarının ona təlqin etdiyi doğru söz, doğru fikir və doğru əməl təliminin təbliğatçısı deyildimi?

Bir əlində qaranlıqları işıqlandıran odla, digər əlində sərv ağaclı əsa ilə məmləkəti diyar-diyar gəzib insanlara həqiqəti ərz edən həqiqət carçısı deyildimi?

Elhaqq qəti bilirdi ki, xalqa bəlalar gətirən Qriqoriyan xristiyanlığı pak əməllərə qulluq etmir. O bütün dinlərdə, dini təlimlər ilə əməllərininin uzlaşdığının, insanlara xoşbəxtlik, müqəddəslik bəxş etməsinin şahidi olduğu halda, bu Qriqorian xristiyanlarının nə təlimlərinin, nə də əməllərinin uzlaşmadığını və pak əməllərdən uzaq olduğunu bildiyindən, Qriqoriyançılığı xristiyanlıqda bir qara ləkə kimi görürdü. Nadirqulu xanın ondan cavab gözlədiyini duyan Elhaqq, xana səbirli olaraq dinləməyini təklif edib, bir el məsəlini də demiş oldu:

"-Səbrlə halva bişər ey qora səndən, bəsləsən atlas olar tut yarpağından."

Indiki Qriqoriyan-xristiyan erməniləri ilk olaraq Balkan yarımadasından kiçik Asiyaya gəlmiş frigiyalılardır ki, özlərini coğrafi toponim olan "Armine", yəni erməni adlandırmışlar.Babalarımızın yazıb miras qoyduğu tarixə əsasən, ermənilərin mənşəyi haqqında həqiqətə uyğun olmayan mənbələr çoxdur.Tarixin atası sayılan Herodotdan tutmuş, şah 1-ci Daranın Bisütun qayası

üzərindəki kitabəsı də daxil olmaqla bütün mənbələrdə "Armina", "Armeniya" və s. adları ilə qarşılaşsaq da, belə qənaətə gəlmək olur ki, əslində bu adlar coğrafi toponim məna daşıyırlar. Son nəticədə təkzib olunmayan bir həqiqətə arxalanaraq demək olar ki, ermənilәri əcdadları olan Friglər kiçik Asiyanın yerli əhalisi olmayıb, Balkanlardan köçüb gələnlərdir.

Düz buyurursunuz, Elhaqq! Tarixin atası yunan alimi Herodot dünya miqyaslı alimdir, şah 1-ci Dara da dövrünün ziyalı şahlarından olmuşdur. El adamı Elhaqq, xanın ədəbinə və savadına olan münasibətini iki bəndlik şeirlə bildirmiş oldu:

Dinləmək ədəbinə mən vurulmuşam,
Həm də ki, savadına heyran olmuşam.

Nadirqulu xan, dodaqaltı təbəssümlənib el adamı olaraq hörmət bəslədiyi Elhaqqa üzünü tutub, dedi:

Siz də mənə tərif deyirsiniz, Elhaqq,
Ağsaqqala hörmət, türkçülükdə bir haqq!

Nadirqulu xanın şeirə olan xoş münasibəti və özünün də bədahətən şeir deməsi, həqiqət aşiqi Elhaqqı çox sevindirdi.Xanın icazəsi ilə erməni tarixinin davamını ərz etməyə başladı.

İlk əvvəllər yer üzündə erməni deyilən millət olmamışdır. Həmin bu frig-ermənilər kiçik Asiyada, əsasən

şərqi Anadoluda və Urmiya ətrafında yurd salmış, Anadoluda Kilikiya katolikosluğunu yaradaraq, qriqoriyanlaşma və erməniləşmə siyasətini aparmışlar. Erməni katolikosluğu yeni yaratdıqları Qriqoriyan kilsələrinə ilkin "dövlət" atributu kimi baxdıqları üçün, erməniləşməni də genişləndirməyə çalışıblar.Əslində, xan sağ olsun, bu varvar frig-ermənilərin kiçik Asiyaya gəlməsi və sonradan bir ucu Qafqazdan tutmuş dünya torpaqlarına səpələnməsi, məndə belə bir fikir yaradıb ki, özlərini frig-erməni adlandıran bu millət, zənnimcə elə varvar xislətlərinə görə də, haradansa Balkanlara da gəlmədilər.Torpağı, vətəni olan bir toplum-millət niyə torpaqlarını ataraq, digər yad torpaqlara səpələnməli və son anda məskunlaşdıqları torpağı müxtəlif hiylələrlə özününküləşdirməlidirlər?! Haqq aşiqi olaraq həməşə bu toplum-millətə şübhə ilə yanaşmışam.

Beləliklə, Ermənilərin bizim torpaqlarımızda fəallaşması ilk olaraq Qaraqoyunlu hakimiyyəti (1410-1467-ci illər)dövrunə təsadüf edir. Belə ki, Sədlilər sülaləsinin idarə etdiyi Çuxursəd(İrəvan vilayəti)Qaraqoyunlu hökmdarlığına tabe idi. Səpələnərək Azərbaycan torpaqlarında özünə yurdlar qurmuş erməni katolikosları Qaraqoyunlu hökmdarı Cahan şahın qılığına girərək, ondan məlik rütbəsi(mülk sahibi) də ilk olaraq almışdılar. Məhz Cahan şah erməni məlik və katolikoslarının şirin dilinə aldanaraq, erməni katolikosluğunun dini mərkəzi olan Kilikiyanı (Sis şəhəri)İrəvan yaxınlığındakı Üçmüədzin monastırına köçürməyə razılıq vermişdir. Üçmüədzinə

köç edən erməni katolikosluğu, sonralar Qaraqoyunlu hökmdarları tərəfindən himayə olunurdu ki, bu himayədarlıqdan istifadə edən Qriqoriyan katolikosları müxtəlif yollarla yeni kilsələr tikməklə qriqoriyanlaşma və erməniləşmə fəaliyyətlərini genişləndirirlər. Beləliklə, 1441-ci ildə Çuxursəd(İrəvan)diyarında məskən salan erməni katolikosları Üçmüədzini Üçkilsə edərək, erməni katolikosluğunun dini mərkəzinə çevirmiş olurlar. Əslində Üçmüədzin qədim Azərbaycan-Alban monastırı idi. Üçmüədzin sözünün mənasında, üç-əlbəttə ki "say" mənasında, müədzin isə ərəb dilində "azan verən" mənasındadır. Qaraqoyunlulardan sonra hakimiyyətə gələn Ağqoyunlular hakimiyyəti də Üşkilsə katolikoslarını himayə etməklə onların mövqelərini daha da yüksəltmiş olmuşlar. Qaraqoyunlu və Ağqoyunlu hakimiyyətləri dövründə yerli Azərbaycan əhalisindən müxtəlif yollarla alınmış torpaqlar hesabına yeni-yeni kilsələr tikən Qriqoriyan – xristiyan erməniləri yaşam ərazilərini genişləndirməyə çalışırlar. Çirkin xislətli ermənilər özləri yazırdılar ki, biz Azərbaycan türklərinə məxsus olan kəndli torpaqlarını, "... ya satın alır, ya zəbt edir, ya sahibinin əlindən çıxarır, ya rüşvət verib alır, ya bəxşiş kimi əldə edir və yaxud dazorla ələ keçirirdik. "(Metanadaranda saxlanılan sənədlər). Ermənilərin bu vəhşiliklərinin nəticəsi idi ki, onların bu talançı torpaq hərisliyi xalq bayatılarında əks olunmuşdu:

Düşməni yarımasın,
Yarısa, qarımasın.
Torpağıma göz diksə,
Heç işi sarımasın.

Erməni katolikoslarının vəhşiliyinin şahidi olan Elhaqqin babası yazırdı ki, torpağı olan yerli kəndlilər erməni katolkoslarının torpaq hərisliyinə qarşı etiraz edəndə onları diri-diri yandırır, bəzi hallarda onları amansızlıqla döyərək şikəst halına salırdılar ki, kəndlilər torpaqlarından vaz keçməli olurdular. Elə vaxt olurdu ki, evlər katolikosların əli ilə yandırılır və son anda evsiz qalan kəndli ailəsindən torpaqları müəyyən hədiyyələrlə, ya da pulla satın alırdılar. Ermənilərin Çuxursəddəki Üçkilsəyə gəlməsinə qədər katolikosların özlərinə məxsus nə torpaqları, nə də kəndləri olmayıb. Ermənilər özləri yazdıqları kimi Üçkilsə ətrafında torpaqları ələ keçirməklə qriqoriyanlaşma və ermənilәşmə apararaq genişlənməyə müvəffəq olublar.

Ancaq, çox çəkmir ki, mərkəzi Təbriz şəhəri olan Səfəvi hakimiyyəti yaranır. Səfəvi hakimiyyətini yaradan və ilk dəfə Azərbaycan dilini dövlət dili elan edən şah İsmayıl barəsində, xan sağ olsun Dəstgird yaxınlığındakı xırmanda sizə ərz etmişəm. Şah İsmayılın hakimiyyəti dövründə erməni qriqoriyanlığından söhbət belə gedə bilməzdi. Əslində Qriqoriyan katolikosları həddindən artıq hiyləgər olduqlarından, öz dilini, dinini, xalqını, vətənini sevən şah İsmayıldan çəkinmiş və qriqoriyanlaş-

ma-erməniləşməni genişləndirməkdən vaz keçmişlər. Şah İsmayılın vətənpərvərliyindən danışan Elhaqq, təəssüflə bildirdi ki, sonralar Səfəvi hökmdarı olan ikinci şah Abbas ermənilərin nəinki Üçkilsə ətrafında, hətta ətraf diyarımızda genişlənmələrinə və möhkəmlənmələrinə az şərait yaratmamışlar. Hökmdarın dövründə ermənilərə böyük imtiyazlar verilmiş, Qriqoriyan kilsələrinin genişlənməsinə güzəştlər də etrmişlər.Təkcə onu demək kifayətdir ki, 2-ci şah Abbas öz xarici siyasətində Səfəvi dövlətinin maraqlarına ziyan vuran hadisələrə şərait yaratmışdır.Belə ki, şah Abbas Səfəvi dövlətinin ərazisində erməni katolikos missionerlərinin kök salmalarına önəm vermişdir.Xeyriyyəçilik adı və pərdəsi altında fəaliyyət göstərən erməni katolikos keşişləri qriqoriyan kilsələri tikib genişlənməklə, böyük Səfəvi imperiyası ərazisində casusluq-kəşfiyyat şəbəkəsi yaratmışdılar.1635-1639-cu illərdə Səfəvi-Osmanlı müharibəsi zamanı antitürk ehtirası ilə coşub yanan erməni katolikos missionerləri 2-ci Şah Abbasın Osmanlılarla müharibədə sülh bağlayacağını hiss etsələr də, casus hiyləgərlikləri ilə şahın hörmətini qazanmışdılar.2-ci şah Abbasın ermənil katolikoslarına olan hörmətini Yeni Culfa şəhərinin tikilməsində və nəinki yerli ermənilərin, hətta digər torpaqlardan təşrif gətirmiş erməni missionerlərinin bu şəhərdə daha da genişlənməsində görmək olar.Belə ki, Culfa şəhərinin Osmanlılar tərəfindən zəbt edilərək hərbi -ərzaq bazasına çevirəcəyindən ehtiyat edən şah, Culfanı dağıdıb yer üzündən silir.Sonralar erməni katolikoslarının inciyəcəklərini gör-

düyündən Yeni Culfa şəhərini tikməklə onları feyziyab edir. Məhz bu himayədarlığın nəticəsi idi ki, Üçkilsə erməni icmasının başçısı Filippos ikinci şah Abbasa müraciətində yazırdı: "hazırda bizim vilayətlərdə yaşayanların(yəni ermənlərin)əksəriyyəti buraya müxtəlif vilayətlərdən siz Əlahəzrət hökmdarın tükənməz qayğısı və sevgisi nəticəsində köçürülüb. Üçkilsədəki 300 mömün gecə-gündüz sizə dua edir ki, onlar burada yaşamaları üçün tamamilə Əlahəzrət hökmdarın mərhəmətinə borcludurlar". 2-ci şah Abbas dövründə Səfəvi dövlətinin mənafeyi üçün erməni katolkos missionerləri tərəfindən hər hansı təhlükələr yaranmasa da, sonralar bu torpağın sahibləri olan Azərbaycan xalqı üçün vəhşiliklər və soyqırımlar mənbəyinə çevrilmiş oldu.

Səfəvi hakimiyəti dövrlərində , dövlət ərazisi bəylərbəyidən ibarət olmuşdur. Həmin bəylərbəyindən biri də mərkəzi İrəvan olan Çuxursəd bəylərbəyiliyi idi. Səfəvi dövlətinin Çuxursəd bəylərbəyliyi Osmanlı imperiyasının sərhədləri yaxınlığında yerləşdiyindən, Osmanlıların hucumları zamanı İrəvan qalasını ələ keçirmək istəkləri Çuxursəd bəylərbəyliyinin faciəli günlərinin başlanması demək olurdu. Belə ki, Səfəvilərlə Osmanlılar arasında olan müharibədə İrəvan qalası qanlı müharibələr meydanına çevrilirdi. Bu müharibə nəticəsində yerli Azərbaycanlıların vəziyyətləri çox ağırlaşırdı. Bu müharibədə evlərini -obalarını tərk edən yerli Azərbaycanlıların köç etməsindən istifadə edən vətənsiz erməni məlik və katolikosları yaranmış şəraitdən bəhrələnərək Azər-

baycanlıların torpaqlarını, feodal torpaqlarını ələ keçirirdilər. Erməni riyakarları mənimsədikləri torpaqlarda Azərbaycan məmləkətinə aid olan bütün mədəni, dini abidələri dağıdır, yerli kənd adlarını erməniləşdirirdilər. Ermənilər yeni torpaqlar hesabına, ərazilərini və əhali sayını genişləndirməklə nə vaxtsa özlərinə erməni dövləti yaratmaq məqsədi güdürdülər. Bəli, kilsə və monastırların sayının artması ermənilər üçün kiçicik "monastr-dövlət" demək idi.

Xan sağ olsun, bildiyimiz qədər Allah evi olan bütün dini məbədlər müqəddəs olduğu kimi, həm də dinə itaət edənlərin ibadətgah yeridir.Erməni qriqoryanları isə bu müqəddəs ibadətgahlardan dini ziddiyyətlər yaratmaqla məskunlaşdıqları ölkələrdə yerli əhalinin aralarında nifaq salmaqla çaxnaşmaya səbəb olurdular.Müqəddəs kilsələrə alver mənbəyi kimi baxaraq varlanmaq məqsədləri üçün istifadə etmələri, nə qədər qəbahət olsa da, onların əsas məşğuliyyət vasitəsi olmuşdur.Varlanmaq ehtirası erməni katolikoslarında o qədər geniş yayılmlşdı ki, onlar hətta Üçmüədzin kilsəsini "Müqəddəs yağ"alverinə çevirmişdilər."Müqəddəs yağ"alverinə girişən erməni katolikosları Yerusəlim xristiyanların onlara əngəl törətməmələri, maraqlarına toxunmamaları üçün "azad" yaşamaq, küllü ixtiyar sahibi olmaq istəyirdilər.Osmanlı dövlətinin Ərzurum şəhərində baş vermiş dini ziddiyyət isə bütün türk dövlətini ayağa qaldırmışdı.Belə ki, bir dəstə gəlmə erməni ailəsinin katolikliyi qəbul etməsi yerli Qriqoriyan ermənilərin narazılığına səbəb olur. Onlar

katolikliyi qəbul etmiş ermənilər Ərzurumdan qovub çıxartmaq və onların cəzalanmasını təmin etmək üçün Ərzrum paşa və məhkəməsinə müraciət edirlər.Ərzrum paşasının razılığı ilə məhkəmə, katolikliyi qəbul etmiş ermənilərin nəyi varsa əllərindən alıb, onları lütləyirlər.Əllərində maddi imkanları qalmayan katolikliyi qəbul etmiş ermənilər şəhərdən qovulmuş olurlar.Erməni katoliklərinin başına gələn müsibətlərdən hali olan Roma katolik Papası Osmanlı Sultanına narazılığını bildirmiş olur.Katolikliyi qəbul etmiş ermənilərin başına gətirilən müsibətləri eşidən Osmanlı Sultanı Ərzrum paşasını və Ərzrum məhkəməsinin başçısını edam etdirir.Osmanlı dövlətində yaranmış bu vəziyyətdən ustalıqla istifadə edən İran Farsında yaşayan erməni katolikosları sonralar bu hadisəni qeyri dinçilərlə bir yerdə yaşamağın mümkün olmayacağı kimi bəhanə olaraq istifadə etməklə, uydurduqları fars əsarətindən qurtulmaq məsələsini ortaya atmaqla, ”əzabkeş”millət olmalarına rəğmən, Avropalılara kömək üçün müraciət etmişlər.

2-c şah Abbas dövründəki 1635-1639-cu illər Səfəvi-Osmanlı müharibələri nəticəsində yarı ərazisi itirilən Çuxursəd bəylərbəyliyi xeyli zəiflədiyi kimi, Səfəvi dövlətinin də zəifləmə dövrü başlamışdı.

17-c- əsrin axırı və 18-ci əsrin əvvəlləri Səfəvil dövlətinin zəifləməsi erməni kotalikos və məliklərinə imkan yaradırdı ki, özlərinin olmayan dövlətlərini yaratmaq üçün fəaliyyətə keçsinlər. Odur ki, erməni missionerləri bir ucu Avropaya, sonrası Rusiyaya elçilər göndərməklə,

guya Fars dini əsarətindən əziyyət çəkdiklərini dilə gətirməklə məzlumluqlarını ifadə edib, din qardaşlarından kömək alacaqları təqdirdə özlərinə dövlət yaratmağa çalışırdılar.

Məhz bu dövrdə erməni məlik və Üçkilsə katolikoslarının inandığı və bel bağladığı erməni İsrael Ori elçilik fəaliyyətinə başlayır. İsrael Ori Səfəvi dövlətinin Sisyan kəndində erməni məliyin ailəsində antimüsəlman, antitürk ruhunda tərbiyə almış məkrli macəraçının biri idi. Erməni məlik və katolikosları İsrael Orini əvvəlcə Avropaya elçi olaraq göndərirlər. O Avropaya erməni katolikosu Haropun elçisi olaraq göndərilir. İsrael Ori Avropaya qədəm qoyub Avropa hökmdarları, müqqəddəs Roma imperatorluğu, İmperator Leopard, hətta Fransa kralı on dördüncü Lüdoviklə görüşlər keçirir. İsrael Ori fars-müsəlman zülmündən əziyyət çəkən zavallı ermənilərə kömək üçün müraciət etsə də, istədiyinə nail ola bilmir. Avropalılar İsrael Oriyə deyirdilər:"Əlimizdə ermənilərin müsəlmanlardan zülm gördükləri və buna görə onlardan ayrı yaşamaq istəmələri barədə yazılı bir sənəd olmadığı üçün sizə yardım edə bilmərik. Bu işdə sizə ən yaxşı Rusiya yardım edə bilər. " Ayropalı din qardaşlarının cavabından kor-peşman olan İsrael Ori istədiyinə nail olmadığından, Rusiya çarına müraciət etmək qərarına gəlir. Min yeddi yüz birinci ildə Rus çarı Birinci Pyotrla görüşməyə müvəffəq olan İsrael Ori, zavallı erməni məlik və katolikoslarının adından yazılmış müraciəti 1-ci Pyotra təqdim edir. Müraciətdə deyilirdi:

"Sizə yalvarırıq, başına müxtəlif müsibətlər gətirilmiş yazıq millətimizi Allah xatirinə azad edin. Göydə Allahdan yerdə sizdən başqa heç kimə gümanımız yoxdur". Məkrli və antitürk olması ilə diqqəti cəlb edən İsrael Ori , hətta 1-ci Pyotru öz məqsədləri üçün şirnikləşdirməyə çalışan kəşfiyyat xarakterli 18 bənddən ibarət layihə də təqdim etmişdi. Bu layihədə Ermənilərin məskunlaşdığı İrəvan haqqında da kəşfiyyat donosları var idi. Layihədə, İrəvanda üç yüzə qədər ermənilərin yaşaması qeyd olunur və bir güc olaraq əhali sayını üç yüz erməni ailəsi göstərilməklə bərabər, digər imkanlar barədə də məlumat verilirdi. Əslində İrəvanda üç yüz erməninin yaşaması Üçkilsənin şişirdilmiş dannısından başqa bir şey deyidi. Diyarımızı qarış-qarış gəzən el adamı Elhaqq İrəvanda olan əhalinin əksəriyyətinin türk Azərbaycanlıları ouğunu çox yaxşı bilirdi. Beləliklə, İsrael Oridən tutmuş, Üçkilsə katolikoslarının Avropaya və yaxud Rusiyaya yazdıqları məktublarda "uydurduqları qeyri dinçi olan Fars əsarətindən qurtulmaq"məsələsində yeganə məqsəd, heç bir dövlətdən asılı olmayacaq və onların daxili işlərinə və maraqlarına əngəl törətməyəcək müstəqil yaşam arzularını təmin edəcək "monastr-dövlət"arzuları idi.

Bu dövrdə Baltik dənizinə sahib olmaq üçün İsveçlilərlə müharibə aparan 1-ci Pyotr din qardaşları olan erməni Qriqoriyanlarına söz verirki onlara kömək edəcəkdir. Rusiyanın nüfuzunu qaldırmaq istəyən 1-ci Pyotr Rusiya sərhədlərinin genişləndirilməsi üçün mübarizəyə başladığı bu dövrlərdə, Şimal sərhədlərini möhkəmlət-

məyə çalışdığından, Şərq sərhədlərini də qeyri dinçi olan İran və Türk dövlətlərindən qorumaqda və dövlət maraqlarını təmin etməkdə israrlı idi. Zavallı erməni elçilərinin "din əsarətindən qurtulması" xahişləri isə 1-ci Pyotra məqsədini həyata keçirmək üçün bir vasitə imkanı yaratmışdı. Belə ki, İran və Türk sərhədləri boyunca xristiyan dövlətinin olması həm sədd kimi lazım olacaqdı, həmdə Qriqoriyan-xristiyan erməni din qardaşları ilə mütəffiqlik yaranacaqdı. 1-ci Pyotrun kömək razılığı verməsi erməni katolikləri üçün dövlət qurmaq arzularının reallaşması demək idi. Erməni Qriqoriyanları çox gözəl başa düşürdülər ki, Səfəvi dövləti onların dövlət yaratmaq arzularının reallığına imkan verməz. Beləliklə, Cənubi Qafqaz haqqında, onun varlı iqtisadiyyatı və zəif hərbi qüvvələri haqqında donoslar verməklə şirnikləşdirilən Rusiya çarizmi İsrael Oriyə polkovnik rütbəsi verib onu gizli fəaliyyət üçün İsfahana göndərmiş olur. İsrael Ori bu gizli fəaliyyəti zamanı bir daha əmin olur ki, Farslardan istədiklərini əldə edə bilməyəcəklər və kor peşman olan İsrael Ori Rusiyaya geri qayıdarkən, arzusu ürəyində qalmışlar kimi, Həştərxanda müəmmalı şəkildə ömrünü başa vurmuş olur.İsrael Ori dünyasını dəyişsə də, öz ölümündən sonra, 16-17əsrlərdə Osmanlı torpağında və İran farsında fiziki–coğrafi bölgələr kimi, yəni "monastr-toplum" kimi yaşayan, heç yazılı tarixi belə olmayan ermənilri, Avropa və Rusiyada ilk və çirkli "bomba"kimi ortalığa atmış oldu.

İsrael Ori dünyasını dəyişib zavallı ermənilərin arzularını yerinə yetirə bilməsə də, nə erməni katolikos və melikləri öz məqsədlərindən, nə də Rusiya çarizmi Cənubi Qafqaz işğalından, erməni dövləti yaratmaq məqsədlərindən vaz keçməmişdilər. Çar Rusiyası Qafqaz torpaqlarının işğalında erməni köməyindən dövlət səviyyəsində yararlanmağa çalışırdı. Elə bu məqsədin nəticəsi idi ki, həmin dövrdə Çar 1-ci Pyotrun verdiyi bəyannamədə din qardaşları olan ermənilərə qayğısını bu şəkildı izhar etmişdi:"... Hər cür nəvazişlə erməniləri öz tərəfimizə çəkməyi xüsusi olaraq sizin ixtiyarınıza buraxıram. "

Səfəvi dövlətinin zəifləməsindən istifadə edən Əfqanlar 1722-ci ildə hucum edərək İsfahanı zəbt etdilər. Bu əlverişli şəraitdən istifadə edən erməni katolikosları 1-ci Pyotrla əlaqıyı girib, Fars və Azərbaycan torpaqlarını işğal etmək üçün şirnikləşdirmə yaratdılar.Məhz bu şirniklərin nəticəsi idi ki, Rusiyadakı katolik erməni din icmasına rəhbərlik edən vardapet Minas hiyləgərlik edərək yeni monastrlar tikməyi, yeni torpaqlar əldə etmək üçün vasitəyə çevirmişdi. O, bu məharətindən istifadə edərək 1-ci Pyotrla görüşündə fars torpaqlarını ələ keçirmək üçün, məsləhət görürdü ki, rimlyan kimi, yəni katoliklər kimi hərəkət edərək monastr və kilsə tikintisinə icazə almaqla, əslində hərbi qala tikib, fars torpaqlarını zəbt etsin.

Tiflisdəki digər bir erməni yeparxiyasının başçısı arxiyepiskop Minas Pərvəzyan 1722-ci ilin dekabrında Rusiya dini icmasının canfəşanı Minasa yazırdı: "Sənə məlumdur ki, İrəvan İran(Səfəvi) torpaqlarının açarıdır və

bizim niyyətimiz İrəvan qalasını ələ keçirməkdir. Əgər o bizim əlimizdə olarsa, nə Türklər, nə də İranlılar bizə heç nə edə bilməyəcəklər. ”

İşğalda məqsədli olan Çar Rusiyası və erməni şirnikləmələri ona gətitrib çıxardı ki, 1722-ci ildə çar Rusiyası Səfəvi dövlətinə qarşı hucuma keçdi və Azərbaycan torpaqlarını işğala başladı. Nəhayət, 1723-cü ildə Səfəvi dövləti ilə Rusiya çarizmi arasında bağlanmış Peterburq müqaviləsinə görə, xəzəryanı sahil əraziləri, -Dərbənd, Bakı, Gilan, Mazandaran Rusiyaya güzəştə gedilmiş oldu. Rusiyanın bu işğalına dözməyən Osmanlı dövləti Azərbaycana qoşun yeritdi. Osmanlı dövləti ilə müharibədən çəkinən Rusiya onlarla müqavilə bağlamış oldular ki, bu müqaviləyə əsasən Rusiyanın işğal etdiyi xəzəryanı vilayətlər onun tabeçiliyində qalmış oldu. Osmanlı dövləti Rusiyanın bitərəfliyini təmin edərək Ərdəbilə qədər olan Azərbaycan torpaqlarını işğal etdi.

Rusların bitərəfliyini görən erməni katolikos və məlikləri xislətlərinə uyğun olan xəyanətkarlıqlarını büruzə vermiş oldular. Belə ki, İrəvan eşqi ilə qovrulan vətənsiz erməni missionerləri bu səfər Türklərə İrəvan qalasını tutmaqda köməklərini əsigəmədilər. Üçkilsə ətrafında məskunlaşan erməni missioneləri vətənsiz olduqlarından İrəvanı vətən etmək üçün istənilən yadelli işğalçılarla sazişə getməyə hazır idilər. Məhz bu nöqteyi nəzərdən Osmanlı hərbi hissələri ilə əlaqə yaradan ermənilər Osmanlıların dəfələrlə hucum edib məğlub olmasına baxmayaraq, İrəvan qalasının Osmanlı türkləri tərəfindən

ələ keçirilməsinə kömək etməklə bərabər, nə vaxtsa İrəvan qalasının Osmanlılar tərəfindən zəbt olunmasını arzulayırdılar. Ermənilərin bu canfəşanlığının nəticəsi olaraq Osmanlı Sultanı 3-cü Əhməd, ermənilərin bu “xidməti” müqabilində xüsusi fərman imzalayıb, İrəvan qalasını mühasirəyə alan Arif Əhməd paşaya göndərdiyi Fərmanda, ermənilərin dini mərkəzi haqqında xüsusi qayğısını ifadə edirdi:

“Üçkilsəyə hucum etmək qadağan olunur, onun dağıntılara, sakinlərinin qarətə məruz qalmamasına yol verməməsi” tövsiyə olunurdu. Əmrə hazır olan Arif Əhməd paşa Sultan fərmanına uyğun olaraq Üçkilsənin qorunması üçün xüsusi bir alay də ayırmış olur. Erməni xəyanətkarlarının köməyi ilə çox çətinliklə İrəvan qalasını ələ keçirən Osmanlı paşası ermənilərin dini başçısı, Üçkilsə kotalikosu 1-ci Astvasaturu dəvət edərək göstərdiyi “xidmətə” görə ona xələt və ənam verir. Beləliklə, xəyanətkar və satqın xislətlərinə uyğun olaraq, erməni katolikos və melikləri vaxtilə onlara himayədarlıq etmiş Qaraqoyunlu-Ağqoyunlu , Şah Abbas hökmdarlarına xəyanət etmiş oldular. İrəvanın zəbt edilməsindən sonra Çuxursəd bəylərbəyliyi Osmanlıların hakimiyyəti altında qalmış oldu. Bu günə kimi, xan sağ olsun, başı bəlalı Azərbaycanın şimal torpaqlarının bir hissəsi xəzərsahili ərazilər olmaqla Rus hakimiyyətinin işğalında, cənub torpaqlarımız əfsanəvi İrəvan qalası Osmanlı hakimiyyətinin işğalındadır. Əsəbdən, gözləri hədəqəsindən çıxmış olan və qartal simasından od yağan Nadirqulu xan:

-Yaxşı bu Rus və Osmanlı dövlətlərinin işğalını başa düşdüm, bəs bu ermənilərin hələ də kiçicik bir dövləti heç yoxdurmu?

Xeyr, xan sağ olsun. Bu erməni dediyimiz toplum ərz elədiyim kimi gəlmədilər, onların heç vaxt dövlətləri olmayıb və bu günə kimi də yoxdur. Mən bu yurdsuz-yuvasız, müxtəlif yollarla torpaqlar ələ keçirib monastırlar tikərək erməniləşən toplumla çox maraqlanmış və onların yaşam tarixinə və məqsədlərinə nəzər salaraq belə qənaətə gəlmişəm ki, onların arzuladıqları dövlət qurmaq məqsədləri öz kökünü "kiçik dövlətciklər" olan xram və kilsələrdən götürür. Bu ermənilər indi də dayanmadan yeni torpaqlar əldə edərək yeni xram, kilsələr tikir, bu xram, kilsələr fövqündə "dövlətçiliyi" özlərinə məxsus qururlar. Eyni zamanda, zəbt etdikləri torpaqlarda əvvəl yaşamış xalqların dini məbədlərindən tutmuş, milli- mədəni-tarixi nə varsa dağıdıb özününküləşdirir, hətta coğrafi toponimləri belə özlərinə münasib dəyişirlər. El adamı Elhaqqın söylədiklərini diqqətlə dinləyən Nadirqulu xan, duruxmuş olaraq xeyli tərəddüd keçirdikdən sonra bildirdi ki, mənim müharibəm xalqlarla deyil, məmləkətimizə göz dikən xayin dövlətlərlədir.Millətindən, dinindən asılı olmayaraq bütün xalqlar bizim dövlətimizdə yaşaya bilər.Ancaq, o şərtinən ki, bizim bayrağımız altında yaşasın, dilimizi bilsin və hörmətlə yanaşsın, adət-ənənəmiz də ki öz yerində. Nadirqulu xanın belə humanist danışığını ilk dəfə görən el adamı, həqiqət aşiqi Elhaqq Xanın mübarək humanistliyini alqışla-

yıb, sonra bildirdi ki, buyurduqlarınızla razıyam, ancaq bu erməni varvarlarını sizin buyurduğunuz kimi olmalarına heç vaxt inana bilmərəm.Xan, əgər icazə versəydin, bu varvar ermənilərin tarixini əks etdirən şeirimi sizə oxuyardım.Ola bilər şeirimlə, sizdə erməni vəhşiliyi haqqında daha dolğun təssəvvür yarada bildim.

Şeirə həməşə bizlərdə hörmətlə, izzətlə yanaşıblar və mən Səfəvi dövlətimizin yaradıcısı olan şah İsmayılın "Xətayi"təxəllüsü ilə yazmış olduğu poeziyanı olduca çox mütaliyə etmişəm və edirəm.Odur ki, buyur şeirini oxu! Dinləyirəm.

El adamı Elhaqq böyük həvəslə erməni dünyasının xislətini əks etdirən şeirini deməyə başladı:

Erməni haqqında yazıb babalar,
Balkandan Asyaya gəliblər xaylar.
Kilikiyada xram salsa da onlar,
Qafqazı "tutmağı" üstün tutublar.
Məliklik adını alan kimi xay,
Torpağa hərislik olmuş hay-haray.
Cahan şahın qılığına girənlər,
Üçmüədzini Üçkilsə edənlər.
Kəndlilərin torpağını "aldılar",
"Dövlət"deyibkən, dini xram saldılar.
Bir ucu Türkiyə, bir ucu da İran,
Tökülüb vətəni etdilər viran.
Torpaqları "əcdad yurdu"saydılar,
Xramlara min illik, tarix qoydular.

İrəvan, Naxçıvan bizimdir, deyib,
Qarabağda, xaylıq maskasın geyib,
Alban tayfaların erməni edib,
Xramlara Qriqoryan adını verib
Baxımsız dünyaya səs-küy saldılar,
Din qardaşlarını harayladılar.
Antitürk İsrael məktublar "yazdı."
"Əzabkeş"adıyla quyular qazdı.
Türklərə quyular qazsa da Ori,
Bilmədi, məkrliyin quyudur goru.
Car çəksə də, yeni katolikoslar,
Başa düşmədilər bu başıboşlar,
Zəbt etdiyi torpaq, Azərbaycandır!
Hərislik, qəlbdəki nanəcib qandır!

Şeiri dinləyən Nadirqulu xanin qartal baxışı daha da gərgin görünürdü. Handan-hana təmkinli olaraq el adamı Elhaqqa bildirdi ki, əgər bu toplumun bir dövləti olsaydı, daşıdıqları xəyanətkar missiyaya rəğmən hucum edib onların dövlətini yer üzündən silərdim. Ancaq, vətəni , yurdu olmayan, edilən yaxşılıqları başa düşmək istəməyən xəyanətkar bir toplum haqqında əcdadlarımız bir bayatıda çox gözəl deyiblər:

Çox gördüm qilü-qalı,
Oldum işindən halı.
Qarı düşmən dost olmaz,
Yedirsən yağı, balı.

Toplum-toplum müxtəlif torpaqlara səpələnən ermənilərə hakimiyyətimiz dövründə, kiçicik dövlət yaratmaq üçün bir arşın torpaq belə verməyəm. Qaldı ki, Azərbaycan torpaqlarını işğal edən işğalçı ölkələrə, yaşayarıq, mübarizə apararıq və son sözümüzü deyərik. Bu sözlərdən sevincək olan el adamı Elhaqq, doğru söz, doğru əməl sahibi olan Nadirqulu xana dualar etmiş oldu.

Yadellilərə qarşı mübarizəyə qalxan Nadirqulu xan 1729-cu ildə birləşmiş Əfqan-Türk qoşunlarını darmadağın edib işğal etdikləri ərazidən uzaqlaşdırıldıqdan sonra, 1731-ci ildə işğalçı Rus qoşunlarını xəzərsahili torpaqlardan qovur. Bu müharibələr nəticəsində Nadirqulu xanın nüfuzu xalq arasında daha da artmağa başlayır. Nadirqulu xanın yüksələn nüfuzuna qısqanclıqla yanaşan şah Təhmasib, öz nüfuzunu qorumaq üçün təkbaşına Osmanlılara qarşı müharibəyə qalxır və biabırcasına məğlub olaraq Osmanlılarla Kirmanşah müqaviləsini bağlamış olur ki, bu müqaviləyə əsasən bəzi Azərbaycan torpaqları Osmanlılarda qalır. Hakimiyyətdə öz yüksəkliyini qorumaq istəyən Nadirqulu xan xalqın köməyi ilə şah Təhmasibi taxtdan salıb, səkkiz aylıq 3-cü şah Abbası taxta gətirir. Əslində bütün şahlıq Nadirqulu xanın əlində cəmlənmiş olur. Nadirqulu xan iki il ərzində yadellilərə qarşı müharibələr apararaq Azərbaycan torpaqlarını onlardan təmizləyir.Belə ki, 1733-1735-ci illər arasında Ordu komandanı olan Nadirqulu xan Osmanlıları qovub ərazidən çıxardır. Nadirqulu xan Azərbaycan ərazilərini yadellilərdən təmizləyib bu torpaqları birləşdirər-

kən, ellər və kəndlər arasında görüb tanıdığı şücaətli və igid adamları yanına çağırıb, onları öz yaxın qulluqçuları arasında yerləşdirər, yüksək məvaciblə təmin edər, ehtiram göstərər və mənsəb sahibi edərdi. Beləlləri arasında igidliyi və şücaəti ilə seçilən Sarıcalı Pənahəli bəy Cavanşir də var idi. Osmanlılara qarşı müharibədə igidliyi ilə şan-şöhrət qazanmış bu Qarabağ bəyi Nadirqulu xanın hörmət etdiyi igidlərdən biriydi. Səfəvilər dövlətinə məxsus olan bütün əraziləri öz əli altında cəmləşdirən Nadirqulu xan erməni katolikos və məliklərinin vətən kimi arzuladıqları Azərbaycan torpağı İrəvanı da Osmanlılardan azad etdiyindən, yenə Osmanlı türklərinə xəyanət edən erməni missionerləri Nadirqulu xana itaət etmək arzusunda oldular.

Azərbaycan torpaqlarını öz əlində cəmləşdirən Nadirqulu xan əldə etdiyi nüfuzuna rəğmən taxt-tac sahibi olmaq üçün özünü şah elan etmək istəyir. Azərbaycan türkü ənənəsinə uyğun olaraq Muğan düzündə qurultay çağırtdırır. 1736-cı il martın 21-i Novruz bayramı günü Kür və Arazın birləşdiyi Suqovuşanda özünü şah elan edir. Taxt-tac mərasimində böyük həvəslə iştirak edən həqiqət carçısı Elhaqq, xalqın tac mərasimində necə ruh yüksəkliyi ilə iştirak etdiyini və bu münasibətlə Nadir şahın qurultay nümayəndələrinə, ordu başçılarına erməni qul və kənizlərinin bağışlanmasının şahidi olur. Tacqoyma mərasimində iştirak edən ozanlar qopuzlarını səsləndirərək Azərbaycan türkündə Nadir şahın şəninə mahnılar deyirdilər:

İsgəndəri aşdı sanın,
Tarixlərə düşdü adın.
Türkün torpağı Muğanda,
Kürlə Araz qovuşanda,
Bəyan etdin böyük şahsan,
Nə yaxşı ki, şahım varsan.
Bu torpaqlar həm, dirçələr,
Həm, məmləkət genişlənər,
Düşmənlər xiffətdən ölər,
Dinc xalqımın üzü gülər.
İgid Nadir, şahım Nadir,
Məmləkətə oldun qadir.

Nadir şah Azərbaycan türkü məişəti mühitində formalaşmış, Azərbaycan türkcəsi olan ana dilinə çox bağlı bir şəxsiyyət idi. O tacqoyma mərasimində bütün mərasim iştirakçıları ilə Azərbaycan türkcəsində danışar, hətta apardığı müharibələr zamanı sərkərdələrinə Azərbaycan türkcəsində göstərişlər verərdi. Məhz bunun nəticəsi idi ki, şahın yaltaqcasına qılığına girən hiyləgər erməni katolikosu Abraham Kretası Nadir şahla olan danışıqları erməni hərflərlə Azərbaycan dilində vermişdi. Çünki, Nadir, şah olduqdan sonra ərazidəki türk mühitinin möhkəmləndirilməsi üçün tədbirlər görmüş, göstərişlər vermişdi. Nadir şah hakimiyyətdə öz mövqeyini möhkəmlətmək üçün sərkərdə dühasına arxalanaraq, yeni müharibələr apararaq bir ucu Hindistandan tutmuş Türküstana qədər bütün dövlətləri öz hakimiyyətinə tabe

edir. Bu müharibələrdə əldə etdiyi qələbələr, onu nəinki orduda, Azərbaycanda, hətta bütün şərq-qərb ölkələrində bir fateh kimi tanıtdırmış olur. Nadir şah fatehlik yürüşlərinə qalxmaqla ölkənin iqtisadiyyatını dirçəltmək istəsə də, bu yürüşlərdə ətrafına topladığı əyanlarını varlandırsada, ölkəyə müflisləşmə gətirmiş olur. Çünki bu müharibələrin aparılmasına külli miqdarda vəsait lazım olurdu ki, bu da şəhər və kəndlilərin vergi içərisində boğulmasına səbəb yaradırdı. Xalqda narazılıq artır, üsyanlar baş verirdi. Nadir şahın imperiyasına xidmət edənlər bu narazılıq və üsyanları amansızcasına yatırdırdı. El adamı, həqiqət carçısı Elhaqq bütün baş verənləri görərək təəssüflənirdi. Elhaqq Nadir şahla görüşüb bu barədə danışmaq istəsə də, saray əyanları tərəfindən bu görüşə imkan yaradilmirdı. Nəhayət bir müddətdən sonra bu imkan yaranır və Elhaqqı qəbul edən qüdrətli Nadir şah onu dinləməli olur.

Şah sağ olsun, sizin qüdrətiniz çox böyükdür və bəlkə də mənim sizə məsləhət verməyim düzgün olmayacaq. Nadir şah Azərbaycan türkü ailəsində böyüdüyündən ağsaqqala, ulu babalara olan hörmət əsnasınada tərbiyə görmüşdü. Odur ki təmkinli olaraq həqiqət aşiqinə buyurun ulum, eşidirəm sizi, -deyə dilləndi. Doğru söz təliminin carçısı olan Elhaqq Şaha bildirdi ki, bütün müharibələrin yükünü xalq çəkdiyindən, məmləkətimizdə narazılıq yaranır, saray əyanları, ordu başçıları var-dövlət içərisində fironluq edirlər. Ölkənin qayğısına qalıb iqtisadiyyata nəzər etmək gərəkdir.

Pənahalı bəy kimi igidlərimiz, bu var-dövlət hərisli saray əyanlarına görə sizin xidmətinizdən uzaqlaşmadımı?

Şəki, Qarabağ xanlarına tabeçilik etmədiklərinə görə, əmrinizlə ordu başçıları tərəfindən divana tutulmadımı? Sizin hökmünüzdən ermənilər torpağımıza yaxın dura bilməzdilər. Ancaq, indi bir ucu Qarabağdan tutmuş, Çuxursədd bəylərbəyliyinə qədər, müharibələr nəticəsində yoxsullaşmış Azərbaycanlıların torpaqlarını müxtəlif yollarla ələ keçirib qriqoriyanlaşma-erməniləşmə aparırlar. Eyni ilə məmləkətimizdə müharibələr nəticəsində baş götürüb başqa ölkələrə pənah aparan Azərbaycanlıların torpaqlarını dəyər-dəyməzinə əldə edənlər də ermənilərdir. Əyanlar öz kefində, xalq yoxsulluğunun hayındadır, şahım! El məsəli var, "toxun gözü acı görməz."

Nadir şahın sifətində yaranmış qəzəb onun yumruğunu dizinə çırpıb, qoy bu Dağıstan yürüşümü başa çatdırım, sonra baxarıq!-deməsi ilə nəticələndi. Lakin, ölkədəki naraqzılıqdan doğan azadlıq hərəkatı və yürüşlərin birində Nadir şaha edilən sui-qəsd, sonradan Dağıstan yürüşündəki uğursuzluq məmləkətdəki qeyri-sabitliyi yatıra bilmədi. Xalq üsyanlarından istifadə edən saray əyanları Nadir şaha qarşı çıxmaq üçün hərəkətə keçdilər. 1747 ci il iyun ayının 19-dan 20-nə keçən gecə bir neçə əyanla bərabər Məhəmməd bəy Qacar İrəvani tərəfindən əzəməti dünyalar qədər böyük olan, qüdrəti aləmə sığmayan Nadir şah qətlə yetirildi.

Nadir şahın ölümü onun yaratdığı böyük məmləkətdə hərc-mərcliyin artmasına şərait yaratdı. Azərbaycan

ərazisində bir-birinin ardınca müstəqil xanlıqlar meydana gəlməyə başladı.Bu xanlıqların içərisində inkişafa doğru yol tutmuşlardan ilki Şəki xanlığı idi.Bir vaxtlar Nadir şahın hakimiyyətini qəbul etməyib, şahın zülmündən uzaqlaşan Şəki xanlığında, xan Hacı Çələbinin rəhbərliyi ilə, günü gündən irəliləyiş hiss olunurdu. Guxusəd bəyləbəyliyi də xanlığa çevrilmişdi və onun mütləq hakimi Mehdiqulu xan idi. Digər bir xanlıq isə Qarabağ xanlığı idi ki, bu xanlığın da əsasını Pənahalı bə Cavanşir qoymuş oldu. Pənahalı bəy Nadirqulu xanın yanında qulluq göstərib igidliyi ilə tanınmışdı. Lakin, Nadirqulu xan şah olmaq üçün tacqoyma mərasimi keçirərkən onun hakimiyyətini qəbul etməyən Qarabağlıları incitmiş və hətta Pənahalı bəyin qardaşı Fərzəli bəyi də edam etdirmişdi. Pənahalı bəy Nadirqulu xanın zülmündən xilas olub yaxın adamları ilə Qarabağa qaçdığından, Nadirqulu xan onu incidə bilməmişdi.

Azərbaycan ərazisində yaranmış bütün xanlıqlar müstəqil Azərbaycan dövclətləri idilər. Bu dövrdə yaranmış iyirmiyə qədər xanlıqlar öz ölkələrini müstəqil olaraq idarə edirdilər. Lakin, mənəmlik eşqi ilə yaşayan xanlar öz ərazi bütövlüyünü digər xanlıqların torpaqları hesabına artırmaq üçün silahlı toqquşmalara rəvac verdiklərindən, vergi almaq (bac-xərac)üstündə hucumlara da yol verdiklərindən və digər səbəblərdən xanlıqlar arasındakı ziddiyyətli toqquşmalar, xalqın vəziyyətinin pisləşməsinə səbəb olurdu. Nadir şahın öldürülməsini, məmləkətin xanlıqlara parçalanmasını ürək ağrısı ilə qə-

bul eliyən həqiqət aşiqi Elhaq Azərbaycan xanlıqlarını bir-bir gəzərək onların mərkəzləşmiş dölət şəklində birləşməsinə çağırışlar etsədə, hakimi mütləq olmuş xanlıqlar öz işdahalarından keçə bilməmişdilər. Elhaqq başa düşürdü ki, yeraltı-yerüstü sərvətləri ilə tanılınan bu məmləkət, yumruq kimi bir dövlət olmadığı təqdirdə, yadellilərin təzyiqi ilə qarşılaşmalı olacaqdır. Məmləkətin daxili düşmənləri olan erməni qriqoriyanlar bir tərəfdən və digər tərəfdən dövlət yaratmaq arzusunda olan ermənilərə kömək edəcək ermənipərəst qüvvələrin torpağımıza göz dikmələri, el adamı Elhaqqı üzürdü.El adamını ən çox üzən isə, torpağımızda gözü olan yadellilərin xanlıqları bir-birinə qarşı qoyması, dili bir olan qardaşların bir-birlərinə qarşı düçmənçilyı idi.

Şəki xanı hacı Çələbi öz dövrünün həm igidi, həm də vətənpərvəri olmuşdu. Hacı Çələbinin bu məziyyətləri xanlıqlar arasında heç də yaxşı qarşılanmırdı.Çünki, hər bir xan öz xanlığında özünü qoçaq və ağıllı sayırdı.Hətta, igidliyi ilə tanınmış Qarabağlı Pənah xan, Gəncəli Şahverdi xan, Qaradağlı Kazım xan və Xoylu Əhməd xan Şəki xanı Hacı Çələbiyə qısqanclıqla yanaşdıqlarından, onu aradan götürmək fikirinə düşürlər. Çox məşvərət keçirdikdən sonra belə qərara gəlirlər ki, Gürcü valisinii saqqızını oğurlayıb, onunla birləşərək Hacı Çələbini aradan götürsünlər və belə də edirlər.Hiyləgər Gürcü valisi qoşun toplayıb, ona müraciət edən dörd xanı həbs edərək, hacı Çələbinin üstünə gedir. Dövrünün huşyar bir insanı olan hacı Çələbi, Şəmkir yaxınlığında Gürcü valisinin qo-

şunlarını məğlub edib, xanları əsirlikdən xilas edir. El adamı, Elhaq dini, dili bir olan qardaşların qeyr-dinçi Valinin hiyləgərliyinə görə güdaza gedəcəklərin səbəbini hər bir xanın mənəmçilik iddiasında gördüyündən, mərkəzi dövlətçiliyə getməyən xanlıqların yadelli işğalçılara məruz qalacaqlarını anlayırdı. Babalarının miras qoyduğu tarixə, özünün qarşılaşdığı yadelli düşmənlərin yaxın tarixinə nəzər saldıqca hiss edirdi ki, indən belə məmləkətin qəmli günləri başlayacaq və bu qəmli günlərin tarixini çiynində daşıyacaq, yeni bir doğru söz, doğru əməl, doğru fikir təlimini xalqa aşılayacaq, xalqın tarixini olduğu kimi çatdıracaq el adamı lazımdır. Belə bir el adamı, Elhaqqın tələbələrindən olan Elqəm ola bilərdi. Elqəm, haqq təlimini mükəmməl əxz etmiş, keçmiş tariximizi və bu andan sonrakı tariximizi ağıl süzgəcindən keçirməyi bacaran, qəmli günlərdə xalqla bahəm olan bir şəxsiyyət kimi yetişmişdi. Beləcə yağışlı və soyuq günlərin birində el adamı Elqəm ustadı Elhaqqın dəvəti ilə evinə gəlib, ustadının ona etdiyi son vəsiyyəti dinləməli oldu.

Ey, mənim həqiqət deyənim və qəm çəkməyi bacaran Elqəmim!

Babalardan mənə qalma olan qaranlıqları işıqlandıracaq od və sərv ağaclı əsa, mənim davamçım olacaq təlimçi kimi sənə əmanətdir və haqq işimizin təbliğində uğurlar qazanmağına səbəb olacaq talismandır. Bütün Azərbaycan torpaqlarını qarış-qarış gəz, xalqı və hakimi mütləqləri , bax bu yumruq kimi bir olmağa çağır! Bu

sözlərdən sonra Elhaqq gözlərini yumub oddan yarandığı əbədiyyətə qovuşmuş oldu. Əbədiyyətə qovuşan Elhaqqın əlləri elə yumruqlanmışdı ki, sanki onun yumruqlanmış əli xanlıqları yumruq kimi birləşərək, bütöv Azərbaycan məmləkəti olmağa çağırırdı.

Ayrı-ayrı xanlıqlar içərsində Pənah xanın başçılıq etdiyi Qarabağ xanlığı sürətlə inkişaf yolunu götürmüşdü. Qarabağın türk-müsəlman əhalisini sürgünlükdən geri qaytaran Pənahalı xan onları öz ətrafında birləşdirərək böyük quruculuq işlərinə təkan vermiş, hətta böyük hörmət bəslədiyi Bayat tayfalarının rəmzi olacaq Bayat qalasını tikdirməyə də müvəffəq olmuşdu. Qarabağın siyasi-iqtisadi mərkəz kimi inkişafı Ərdəbil, Təbriz əhalisinin Qarabağa köç etmələrinə də səbəb yaratmışdı. Qarabağın bir mərkəz olaraq inkişafı Alban monastırlarını qriqoriyanlaşdırıb, onları erməniləşdirən erməni katolikoslarının ürəyincə deyildi. Erməniləşmiş Alban məlikləri bu inkişafa əngəllik edib parakəndəlik yaratmağa çalışırdılar.Bu parakəndəliyin qarşısını almaq hərbi-siyasi cəhətdən də çox vacib idi.Eyni zamanda, bu hər şeydən əvvəl xanlığın ərazi-inzibati bütövlüyünü qoruyub saxlamaq nöqteyi nəzərindən də irəli gəlirdi. Pənah xana tabe olmaq istəməyən erməniləşmiş(Xaçın) və Alban məliklər bir neçə mahal(Dizaq, Vərəndə, Xaçın, Güləbörd, Talış) yaratmış oldular.Tarixçi və "Qarabağnamə"-nin müəlliflərindən biri olan Mirzə Adıgözəl bəy bu beş mahalı yaradan məliklər haqqında yazırdı:

″Bu mahalların biri Dizaqdır.Məlikləri  məlik Yeqan adlanır.18-ci əsrin əvəllərində o,  Loridən(Azərbaycanın yaşayış məskənlərindən biri.1921-ci ildə Ermənistana rəsmən verilmişdir)qaçıb gəlmişdir.

İkincisi-Vərəndədir.Məlikləri Məlik Şahnəzərlilər olmuşdur.Əsilləri də Göyçə(Azərbaycan türklərinin yaşadığı ərazi, adını Göyçə gölündən götürmüşdür.Şah İsmayılın 1510-cu il fərmanında Göyçə adına rast gəlinir.Çar Rusiyası dövründə İrəvan quberniyasının Yeni Bəyazid qəzasının təkibində olmuşdur.1930-cu ildə tarixi Azərbaycan torpağı olan Göyçə mahalı Ermənistana verilmişdir)əsilzadələrindəndir...

Üçüncü-Xaçındir. Məlikləri Həsən Cəlalyan Övladıdır...(18-ci əsrdə yaranmışdır, yerlidir.)

Dördüncü-Güləbörd mahalıdır.Məlikləri Məlik Allahquludur.Əsilləri Mağavizdən  gəlmədir...(Mağaviz, Maqovuz-17-ci əsrdə Maku nahiyəsindən gələnlər tərəfindən İrəvan əyalətində salınmış yaşayış məskəni.″Maku″-ya “Uz”tayfa adının əlavə edilməsi ilə yaranmışdır.Çar Rusiyası dövründəYelizavetpol(Gəncə)quberniyasının Zəngəzur qəzasına daxil idi. Sovet dövründə Ermənistan SSR-nin Qafan rayonunun tərkibində olmuşdur.1949-cu ildə adı erməniləşdirilərək “Kaxnut”adlandırılmışdır.)

Beşinci –Talış mahalıdır. Məlikləri Məlik Usubdur. Əsilləri Şirvandan gəlmədir...″(Qəbələ sultanlığının Nic kəndindəndir.)″

Göründüyü kimi, Xaçın mahalının məliyi yerli olduğu halda, digər mahalların məlikləri və onların nəsil nə-

cabətləri daxil olmaqla Qarabağ diyarına gəlmə- dilər.Gəlmə məliklərin heç birisi "erməni"deyildilər və Alban nəsillərinin nümayəndələri idilər.Qarabağa gələn bu yerli olmayan məliklər çox çalışsalar da, bir kiçicik dövlət belə yarada bilməyib, bir-biri ilə çəkişən kiçik mahal nümayəndələri olaraq fəaliyyət göstərmişlər.Məliklərin başçılıq etdiyi bu mahalların parakəndə fəaliyyəti, mərkəzləşmiş dövlətdən uzaqlaşmaları, əksər hallarda Qarabağa hucum edən yadelli düşmənlərlə birləşməsi Pənahalı xanın yaratdığı dövlətə ciddi ziyan gətirirdi.Əslində gəlmə məliklərin başçılığı ilə mahalların parakəndəliyi və mərkəzi dövlətə tabe olmaması Qarabağ xanlığının müstəqilliyinə zərbə ola bilərdi.Bu məliklərin içində Pənah xan hakimiyyətini tanıyan Məlik Şahnəzər oldu.Onun ardınca Xaçın məliyi Ulubab Ballıqayada döyüş zamanı məğlubiyyətin acısını daddıqdan sonra Pənah xanın hakimiyyətini tanımış oldu.Dizaq, Güləbörd, Talış mahalının məlikləri bir neçə il düşmənçiliklərini davam etdirmiş oldular".Əhməd bəy Cavanşir yazırdı:"Qonşu vilayətlərdən toplanmış xəzinə pullarını saxlayan Tuğ və ya Dizaq məliyi Yeqan öz oğulları və qohumları ilə birlikdə kəskin müqavimət göstərdikdən sonra onların bir hissəsi qırılmış, bir hissəsi isə islam dinini qəbul etmişdi...Güləbörd məliyi Allahqulu sultan əvvəlcə onun təbəəliyini qəbul etmiş, lakin sonralar xəyanətdə ittiham edilərək Pənah xanın əmri ilə öldürülmüşdü.Onun qardaşı məlik Hətəm Talışın beşinci məliyi məlik Usubla ittifaq bağlayıb uzun müddət öz obalarını Pənah xan dəstələrinin hucumların-

dan müdafiə etmiş, lakin Mardakerd kəndində məğlub olduqdan sonra Tərtər çayının yuxarılarında yerləşən alınmaz Cermux qalasına çəkilmişdi. Bir ilə qədər qalada qaldıqdan sonra, nəhayət, öz ailəsi ilə birlikdə qürbət ellərdə nicat axtarmalı olmuşdu.Lakin onlar bununla öz siyasi fəaliyyətlərini bitirmədilər. Belə ki, sonralar onların həm özləri və həm də övladları(birinci oğlu Məlik Məcnun) daimi Qarabağa hucumlar edirdilər..."

Pənah xan Qarabağın mərkəzləşməsinə əngəllik edən məliklərə qarşı çıxıb onları özünə tabe etdirdikdən sonra, onun hakimiyyətini qəbul etməyən məliklərə qarşı mübarizəni oğlu İbrahimxəlil xan davam etdirmiş oldu.Qarabağ məliklərindən Dizaqlı Yesay, Güləbördlü məlik Məcnun və Gülüstanlı(Talış) məlik Bəyləryan İbrahim xanın hakimiyyətini tanımaq istəməyərək, mübarizələrini davam etdirməkdə qərarlı oldular.1781-ci ildə Tuğ qalası mühasirəsində Məlik Yesay təslim olduqdan sonra, onu əvəz edən Məlik Bahtam xanlıqğa qarşı çıxmış oldu. Separatçı mövqe tutan məliklər yenidən bu mərkəzləşməyə əngəllik yaratmaq məqsədlərindən əl çəkmədilər. Nəticədə bu məliklərin separatçılığına çar Rusiyası qarışmış oldu.1783-cü ildə cənubi Qafqazı işğal edərək "xristiyan dövləti"yaratmaq arzusu ilə çırpınan çar Rusiyasının işə qarışmasının "mənasını" bilən İbrahimxəlil xan diplomatik gediş etməklə onun hakimiyyətini tanımayan məlikləri Şuşaya toplaya bildi.Onlardan Məlik Məcnun və Abov həbsə alınaraq Şuşa həbsxanasına yerləşdirildilər.Məlik Bahtam isə Ərdəbil xanlığına günahlarını yu-

maq üçün verildi.Sonralar Şuşa həbsxanasından qaçan məliklər Qarabağ xanlığına qarşı hazırlanmış qəsdə köməkliyə girişdilər.Belə ki, Gürcü Çarı 2-ci İrakli və rus polkovniki Burnaşovun rəhbərlikləri ilə Qarabağ xanlığına qarşı hazıtrlanmış "xaç yürüşü"nə başlamaqla, Gəncəyə yaxınlaşsalar da, 1787-1791-ci il Rusiya-Türkiyə müharibəsi bu "xaç yürüşü"nün baş verməsinə imkan yaratmadı və İbrahim xan Qarabağ xanlığını bütöv olaraq qoruyub saxlaya bildi.

Elqəm ustadı Elhaqqın söhbətlərindən bilirdi ki, vaxtilə erməni məliklərinin və Qriqoriyan katolikosların sözçüsü olmuş İsrael Ori adlı antitürk tərbiyəsi almışın birisi Rusiya çarı 1-ci Pyotrla görüşmüş və "zavallı" ermənilərə köməklik göstərmək razılığını almışdı. Məhz bu razılığın nəticəsi o olmuşdu ki, Ruslar xəzəryanı Azərbaycan vilayətlərini zəbt etsələr də, sonradan Nadir şahın qüdrəti, gücü qarşısında tab gətirməyib öz ərazilərinə çəkilmişdilər. Elqəm onu da bilirdi ki, Rusiya çarizmi öz cənub sərhədlərinin İran farslarından və Osmanlı türklərindən qorumaq üçün bu din qardaşları olan Erməni məlik və katolikoslarından bir sədd, alət kimi istifadə etməklə onlara hətta, dövlət də yaratmaq istəyir. Eyni zamanda barlı-sərvətli Azərbaycan Qafqazını işğal edib Erməni xristiyan dövlətini yaratmaqla Rusiya çarizmi bir dayaq nöqtəsi olan mütəffiqə də ehtiyac duyurdu. 1-ci Pyotrun arzusu çin olmasada, onun xələfləri 1-ci Pyotrun fərmanından irəli gələn vəsiyyətini unutmamışdılar. Məhz 1-ci Pyotr siyasətinin nəticəsi idi ki, 1776- cı ildə Çarica 2-ci

Yekaterina ermənilərin xüsusi himayə edilməsi haqqında əmr imzalamış, 1782 –ci ildə Quba xanlığı ilə bağladığı müqavilə ilə Qafqaz işğalına başlayıb, 1783- cü ildə Georgiyevski müqaviləsinin imzalanmasına nail olmuşdu. Bu müqaviləyə əsasən Gürcüstan Rusiyanın təəbəliyinə keçmiş və Gürcüstan çarlığının tərkibində olan Azərbaycan torpaqları-Borçalı xanlığı və Şəmsəddil mahalı da Rusiya çarizmin nəzarətində qalmışdı. Borçalı xanlığının və Şəmsəddil mahalının Rusiya çarizmi tərəfindən zəbt edilməsi ilə, Azərbaycan torpaqlarının parçalanması baş verdi və Azərbaycan tarixi toppaqlarının 27, 4 min km kv. ərazisini itirmiş oldu. Bu parçalanma vətən torpaqlarını qarış-qarış gəzən el adamı Elqəmə çox pis təsir etmişdi. Elqəmin yaxşı tanıdığı el aşığı Bürcalının, Rus çarizmin yerdəki numayəndələrinin, yerli xalqa etdiyi zülmləri tənqid etməsi, onun vətənindən didərgin düşməsinə səbəb olmuşdu. El aşığının bir bayatısında bunu görmək mümkündür:

Əziziyəm Borçalı,
Vətənsizdi Bürcalı.
Urus girdi araya,
Ayrı düşdü Borçalı.

Azərbaycan torpaqları Rus işğalları nəticəsində talan olunur, yerli xalqın həyat şəraiti gündən-günə pisləşirdi. İstilaçılıq siyasətini genişləndirən Rusiya çarizmi Azərbaycan torpağının digər bir xanlığını, el arasında "Dəmir

qapı" adı ilə məşhur olan Dərbənd xanlığını 1796- cı ildə zəbt edib, təxminən 7000 km kv. olan ərazisini təəbəəliyinə keçirməklə gələcəkdə digər Azərbaycan torpaqlarının işğalının mütamadi olmasına zəmin yaratdı. Dənizə darvaza sayılan Dərbəndi, onun məşhur qalasını qarış-qarış gəzən el adamı Elqəm, rusların bu işğalından sonra doğma torpağımız Dərbəndə həsrət qalmışdı. Elqəm bu həsrətini yazdığı bir bayatısında izhar etmişdi:

Əzizinəm Dərbəndə,
Əlim çatmır Dərbəndə,
Urus sərhəd qoyubdur,
Gedəmmirəm Dərbəndə.

Beləliklə, 1801-ci il Rus çarları 1-ci Pavelin Yanvar, 1-ci Aleksandrın 12 sentyabr manifestləri , 1803- cü ildəki Çar-Balakən adlı öhdəliyi və nəhayət 1804-cü ildə Gəncə xanlığının istilası ona gətirib çıxartdı ki, Azərbaycanın şimal-cənub bölgələri Rus çarizmi tərəfindən tam işğal olundu. Gəncənin istilasından sonra Azərbaycan torpaqlarının sonrakı işğalları, Rus çarizmin mütamadi işğalçılıq siyasətinin davamı oldu.

Gəncə xanlığını istila etdikdən sonra, Qafqazdakı Rus qoşunlarının baş komandanı P. D. Sisyanov Qarabağ xanlığına hərbi diplomatik təzyiqlər göstərməyə başladı. Hələ 1802-ci ildə çar 1-ci Aleksandr general Sisyanova yazdığı məktubda Qarabağa göstəriləcək təzyiqlər ərəfə-

sində orada məskunlaşmış erməni din qardaşlarına olan müttəffiqlik münasibətini belə ifadə etmişdi:

"Nə olursa-olsun, ermənilər Azərbaycanın bu və ya digər xanlıqlarında məskunlaşdırılmalı və onlardan istifadə olunmalıdır".

1804-cü ildə general Sisyanov mayor Lisanoviçi Qarabağa, İbrahimxəlil xanın yanına göndərərək, tezliklə Rusiya dövlətinin təəbəəliyinə keçməsini tələb etdi. İbrahimxəlil xan İran hakimiyyətindən ehtiyyatlı idi. Çünki, İranda hakimiyyəti ələ keçirmiş Ağa Məhəmməd şah Qacarın Qarabağa hucumu, Şuşa döyüşləri və nəhayət şahın öldürülməsi hələ yaddan çıxmamışdı. Belə bir vaxtda Rusiyanın təəbəəliyinə Qarabağın keçəcəyini təşvişlə qarşılayan İran hakimiyyəti Qarabağı zəbt etməyə cəhd göstərsə də buna müvəffəq ola bilmədi. İbrahimxəlil xan İran hakimiyyətinin bu cəhdlərini görüb, Qarabağı qoruyub saxlamaq üçün, Rusiya təklifini dəqiqləşdirmək qərarını qəbul edərək, Rus generalı Sisyanovla görüşmək razılığını verir. Rusiyanın birmənalı şəkildə Qarabağı müstəqil dövlət kimi görməsi və İbrahimxəlil xanın, eyni zamanda onun varislərinin Qarabağın yeganə sahibləri kimi qəbul etməsi Qarabağ xanlığının Rusiyaya tabe olmasına təkan verir. Beləliklə, 1805-ci ilin may ayının 14-də Gəncənin gündoğanında yerləşən Kürək çayında Rus ordusunun baş komandanı P. D. Sisyanovla Qarabağ xanı İbrahimxəlil xan arasında Kürəkçay müqaviləsi bağlanmış olur. Bu müqaviləyə əsasən, Qarabağ xanlığı müsəlman-Azərbaycan torpağı kimi Rusiyanın təəbəəliyinə

keçmiş olurdu. Kürəkçay müqaviləsinin şərtlərindən xəbərdar oln el adamı Elqəm, Rus çarizmin Azərbaycan torpaqlarını işğal etməsinə haqq qazandırmasa da, Qarabağın dağlıq hissəsində toplum halında yaşayan erməni məlik və katolikoslarının "dövlət yaratmaq"arzularının müqavilədə əks tapmamasından rahatlıq duyurdu. Çünki, Kürəkçay müqaviləsində Qarabağ dağlı-aranlı məhz müsəlman-Azərbaycan torpağı kimi Rusiyaya ilhaq olunmuşdu. Kürəkçay müqaviləsi hüquqi cəhətdən Qarabağın dağlıq hissəsində "xristiyan dövləti" qurmaq arzusunda olan Qriqoriyan erməni katolikoslarının belini qırmış oldu.

Keçmiş tariximizi çox yaxşı bilən və Rus çarizmin işğalçılıq siyasətini bəyənməyən el adamı Elqəm, Qarabağın Rusiyaya tabeçilik etməsindən bir nisgillik duyurdu və Rusiyanın istilaçılıq siyasətinin məqsədli olmasından keçmiş tariximizə rəğmən xəbərdar idi. Rusiyanın işğal məqsədi və erməni missionerlərinin dövlət yaratmaq arzuları bir-birini tamamlayan siyasətin davamı idi. Elə bu siyasətin nəticəsi idi ki, Azərbaycan torpaqlarının, o cümlədən Qarabağın işğalından sonra erməni məlik və katolikoslarının fəallaşmasını fəxrlə qeyd edən Rus ordusunun erməni canfəşanı general-leytenant V.Q Mədətov bildirirdi ki, Qarabağda sözün əsl mənasında erməni-Rusiya müstəmləkə rejimi yaranmışdır.

Kürəkçay müqaviləsindən sonra Qarabağ xanı İbrahimxəlil xana böyük vədlər verən Rusiya çar dövləti ikili mövqedən çıxış edərək, xaincəsinə İbrahimxəlil xanı qət-

lə yetirmiş oldu. El adamı Elqəmə görə Rusiya çar dövləti heç bir hüquqa məhəl qoymadan, verdiyi vədlərə əməl etməyən məkrli və məqsədli işğalçı dövlət olduğunu bir daha sübut etmiş oldu.

İbrahimxəlil xanın qətlindən sonra hakimiyyətə gələn Mehdiqulu xanın dövründə Qarabağ hakimiyyəti zəifləmə dövrünü keçirirdi. Çar Rusiyası dövləti işğala məruz qoyduğu yerlərdə və ən çox ermənilərin canfəşanlıq etdiyi Qarabağda bilərəkdən müsəlman-Azərbaycan hakimlərinin mövqelərini zəiflədir, özünə din qardaçı hesab etdiyi Qriqoriyan erməni katolikos və məliklərinin yüksək mövqe tutmasına şərait yaradırdı. Yaranmış şəraitdən bəhrələnən erməni missionerləri Alban kilsə və monastırlarının qriqoriyanlaşmasına və yerli Alban əhalisinin erməniləşməsinə çalışırdılar.

Beləliklə, 18–ci əsrin axırı və 19-cu əsrin əvvəlində Azərbaycan torpaqlarının müəyyən hissəsini təəbəəliyinə keçirən çar Rusiyası yerdə qalan Azəbaycan xanlıqları içərisində İrəvan xanlığına əsas əhəmiyyət verirdi. Rusiya çarizmi Tiflis-Təbriz tranzit yolunun üstündə yerləşən İrəvan xanlığının və onun alınmaz qalası olan İrəvan qalasının əhəmiyyətini və vacibliyini çox gözəl başa düşürdü. İkinci bi tərəfdən İrəvan xanlığının İran dövləti və Osmanlı imperiyası ilə sərhəddə yerləşməsi , dinləri bir olan bu ölkələrin İrəvanla ola biləcək dilbirliyi Rusiyada narahatçılıq doğurmaya bilməzdi. Vaxtilə, Çar 1-ci Pyotr cənub sərhədlərini möhkəmlətmək fikrində məqsədli olmuşdu. Lakin çarın ölümü bu məqsədi reallaşdırmağa

imkan verməmişdi. Digər tərəfdən Erməni katolikos və məlikləri dini mərkəzləri olan Üçkilsənin İrəvanda yerləşməsinə rəğmən, İrəvanın çar Rusiyası tərəfindən işğal olunmasında maraqlı idilər. Odur ki, Rus çarı 1-ci Aleksandrın verdiyi işğalçılıq fərmanında İrəvan xanlığının adı öncəlikdə çəkilirdi. Bu dövrdə Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı K. F. Knorinq 1802-ci ilin aprelində İrəvan xanı Məhəmməd xana Rusiyanın təəbəəliyinə keçmək təklifi olur.Lakin, təklif rədd edildiyindən Rus komandanı İrəvanı zəbt etməkdən nədənsə vaz keçir. Lakin, sonralar baş komandan Knorinqi əvəz edərək baş komandan olan R, D Sisyanov, hələ Gəncə və Bakı xanlıqlarını işğal edərkən hiyləgərliyi ilə, az təcrübə qazanmamışdı.Sisiyanov xanlıqların torpaqlarını işğal edərkən, onların xanlarını məharətlə qarşı-qarşıya qoymaqla istədiyinə nail olmuşdu.Belə ki, general Sisyanov, Gəncə xanlığını istila etmək istərkən Qarabağ xanı İbrahimxəlil xana yağlı vədlər vermiş, ondan kömək alaraq Gəncə xanlığının zəbt etdikidən sonra ona zəbt edəcəyi torpaqların bir hissəsini verəcəyini bildirmişdi. Son nəticədə isə, vədsiz filansız xanlıqları ələ keçirmişdi.İndi İrəvanı zəbt etmək arzusunda olan Sisyanov, İrəvanı işğal etmək üçün təzyiqlərini gücləndirərək İrəvan xanına şərtlər verməyə meyilli olmuşdu. Hiyləgər Sisyanov İrəvanı Rusiya tabeçiliyinə cəlb etmək üçün, Tehranda həbsdə saxlanılan və Üçkilsə monastırına rəhbərliyi nəzərdə tutulan ruspərəst Danili həbsdən qurtarmaq məqsədinə nail olmaq istəyir və Məhəmməd xana şirnikləşdirici kö-

məklik təklifini verir. Xan bu təklifi rədd etsə də, Sisyanov bu təklifi ilə iki məqsədə nail olmaq istəyirdi. Birinci, Danili həbsdən qurtarmaq bəhanəsi ilə ermənilərin etimadını qazanmaq, ikincisi isə heç bir hərbi toqquşma olmadan İrəvanı ələ keçirmək. Sisyanovun hiyləgərliyini anlayan Məhəmməd xan Rusiya ilə istilik münasibətlərini qorumaq xatirinə Danili həbsdən azad etsədə, onu ruspərəst olmasına görə Üçkilsəyə patriarx təyin etməyib yanında saxlayır. Sisyanov işğalçılıq planından əl çəkmədən Məhəmməd xana gah şirnikləşdirici vədlər verir, gah da hədələyərək qorxu gəlib son anda İrəvanın Rusiya təəbəəliyinə keçməsini təkid edirdi. Rusiya dövlətinin İrəvanı ələ keçirəcəyinə biganə qalmayan İran Qacarları 1804-cü il iyunun 10-da Rusiyaya qarşı müharibəyə başladı ki, bu müharibə Azərbaycan torpaqlarını Rus-İran toqquşmalarının meydanına çevirdi. Bu toqquşmadan istifadə edən Rus qoşunları İrəvan qalasına hucuma keçmiş oldu. Sisyanovun komandanlığı altında İrəvan qalası Rus işğalçıları tərəfindən iki dəfə(2iyul-3 sentyabr 1804-cü il), (3 oktyabr-30 noyabr 1804 –cü il)hücumlara məruz qalsada işğalçılara təslim olmadı. Mühasirədə qalan qala müdafiəçiləri misilsiz qəhrəmanlıqlar göstərərək düşmənə boyun əymədilər. Sonralar baş komandan Sisyanovu əvəz edən baş komandan İ. Ç. Qudoviç də İrəvan qalasının qəhrəman müdafiəçilərinin iradəsini qıra bilmədi. Azərbaycan torpaqları hesabına məskunlaşmış ermənilər Üçkilsə dini mərkəzləri olan İrəvanda özlərinə dövlət yaratmaq üçün himayədarları olan Rus dini qardaşlarına

kömək etməklə arzularını reallışdırmağa çalışırdılar. Ətraf bölgələrdən Rus qardaşlarına köməyə gələn ermənilər fəallıq edərək bacardıqları xain hərəkətlərə rəvac verirdilər. Ruslara köməklik edib, hərbi əhəmiyyətli donoslar verən, casusluq edən xəyanətkar ermənilər özlərində zavallı görkəmi yaradaraq məzlumcasına xilaskarlarını gözlədiklərini onların nəzərinə çatdırırdılar. Üçkilsə monastırının ikinci şəxsi sayılan arxiyepiskop Nersesin Azərbaycanlıların əleyhinə casusluq fəaliyyəti haqqında yüksək mənsəb sahibi olan rus məmuru yazırdı:"arxiyepiskop Nerses İrəvan xanlığının vəziyyətini öyrənməkdə bizə dəfələrlə yardım göstərmiş, özünün inanılmış adamları vasitəsi ilə orada baş verənləri bizə çatdırmış və düşmənin bütün niyyətləri barədə bizi əvvəlcədən xəbərdar etmişdir."Üçkilsə monastırının digər bir arxiyepiskopu Qriqori Tiflisdəki Rus ordusunun komandalığına, mənşəcə erməni olanİ. P. Lazarevə donoslar verərək bildirirdi ki, İrəvan və Naxçıvan xanlığı zahirən ruslara özlərini yaxşı göstərsələr də, daxilən onlara nifrət edirlər. Odur ki, İrəvan və Naxçıvan xanlığına inanmaq olmaz. Rus komandanlığı onlara köməklik göstərən erməni canfəşanlığını yüksək qiymətləndirirdilər. Rus komandanlığı çox gözəl anlayırdı ki, Azərbaycan torpağı olan İrəvanda "xristiyan erməni dövləti"yaratmaqla İran Qacarlarına və Osmanlı Türklərinə qarşı sipər olacaq dayaq nöqtəsi olan müttəfiq əldə edəcəklər və yerli Azərbaycan əhalisi isə nüfuz mövqelərini itirmiş olacaqlar. Rus işğalına və erməni xəyanətinə qarşı, yerli Azərbaycanlıların müha-

sirədə olan İrəvan qalasını fədakarcasına müdafiyə etməsi və Rusların istəklərinə nail olmaması, ermənilәri riyakarlığa məcbur edirdi. Xəyanətkar ermənilərin qala müdafiəçilərini sudan məhrum etməsi alçaq xislətə malik olmalarının göstəricisi olsa da, qala müdafiəçilərinin döyüşən ruhunun qırılmaması, vətənə olan sevginin və fədakarlığın əsil göstəricisi idi. İrəvan qalasının Azərbaycan tükləri tərəfindən qəhramanlıqla müdafiəsinin şahidi olan el adamı Elqəm görürdü ki, qalanı müdafiə edən igid Azərbaycan türkləri müdafiə ilə bərabər, həm də hucuma da keçərək rus qoşunlarını geri oturdur və onların xidmətçiləri olan erməni xayinlərinin də, dabanlarına tüpürüb asta qaçan namərddi!- demələrinə səbəb olurdular. Vətən övladlarının qəhrəmanlığını və İrəvan qalasının möhkəmliyini görən Elqəm qala müdafiəçilərinin ruh yüksəkliyini qaldırmaq üçün bayatı da deyirdi:

Əzizim qalasıdır,
Qaladır qalasıdır.
Yağıya sipər olan,
İrəvan Qalasıdır.

Rus qoşunlarının İrəvandakı qələbəsini təmin etmək məqsəd ilə satqın erməni katolikosları Üçkilsəni Rus qoşunlarına təslim etsələr də, Naxçıvan xanlığı general Nebolsinin rəhbərlik etdiyi rus qoşunları tərəfindən zəbt edilsə də, bütün bunlar İrəvan qalası müdafiəçilərinin mübarizə əzmini qıra bilmədi. Vətən torpağının azadlığı

uğrunda mübarizəyə qalxan İrəvan Azərbaycan türkləri qalanı Rus qoşunlarına təslim etməyib, baş komandanlar olan Sisyanovu və Qudoviçi məğlubiyyətə uğratdılar. Xalq düşmənə təslim olmayan qalanı və müdafiəçilərini bayatılarında belə tərənnüm edirdi:

İrəvanın dərdi var,
Dərd içində mərdi var.
Ordular qan axıtdı,
Səngər oldu hər divar.

İrəvan xanlığının və onun müdafiəçisi olan mübariz Azərbaycan qəhramanlarının Rus işğalına qarşı azadlıq ruhu Qafqazdakı Rus qoşunlarının baş komandanı olmuş markiz Panluqçinin Rusiya imperiyasına yazdığı məktubda da öz əksini tapmışdı. Panluqçin yazırdı: "Mənim vicdanım üzərimə belə bir müqəddəs vəzifə qoyur ki, 1802-ci ildə. . . , habelə1804 cü ildə Sisyanovun dövründə, onun İrəvan üzərinə yürüşü zamanı və nəhayət, indi üçüncü dəfə buradakı yerli xalq içərisində aşkara çıxmış üsyankar ruhun dəfələrlə özünü göstərməsi aydın şəkildə sübut edir ki buradakı xalq Rusiya idarəçiliyinə meyilli deyildir... "İrəvan xanlığının və qalanın qəhrəman müdafiəçilərinin təslim olmaması Rus komandanlığını daha çirkin vasitələrə əl atmağa məcbur etdi. Belə ki, Rus qoşunları bir-birinin ardınca dağıdıcı və qarətçi hucumlar etməklə bərabər, satqın erməni din qardaşlarının köməkliklərindən də hərtərəfli istifadə edirdilər. Rus zabitləri-

nin köməyinə arxalanan erməni quldurları qarət və talançılıqda birbaşa iştirak edərək qala müdafiəsində həlak olanlarının evini , torpağını ələ keçirərək özününküləşdiridilər. Bütün bunlara baxmayaraq düşmənlər nə İrəvan qalasını müdafiə edən igid Azərbaycanlıların mübarizə ruhunu qıra bildilər, nə də İrəvan xanlığını Rusiyaya tabe edə bildilər. Beləliklə müharibə meydanına çevrilmiş Azərbaycan torpağında 1813-cü il 27 sentyabrda Zeyvə çayı sahilindəki Gülüstan kəndində Rusiya ilə İran arasında sülh müqaviləsi bağlandı, Həmin müqaviləyə əsasən, azadlığı uğrunda mübarizə aparan İrəvan və Naxçıvan xanlıqlarının müstəqillik iradələri nəzərə alınmadığından, xanlıqlar İran Qacarları ərazisində qaldılar. Araz çayının şimal hissəsindəki Azərbaycan xanlıqları isə Rusiya dövlətinə güzəştə gedildi. Beləliklə də Gülüstan sülh müqaviləsinə əsasən, Azərbaycan torpaqlarının həqiqi sahibləri olan Azərbaycanlılardan soruşulmadan və heç bir hüquqa əsaslanmadan, məmləkət torpaqlarını yadelli dövlətlər olan Rusiya və İran öz aralarında bölüşmüş oldular. Bəli, qüdrətli Nadir şahın yaratdığı böyük məmləkət, Nadir şahın qətlindən sonra parçalanaraq xanlıqlara bölündü ki, bu da nəhayət parçalanmış məmləkətin yadelli işğalçılar tərəfindən bölünməsinə gətirib çıxartdı. Məmləkətin Rus çarizmi və İran Qacarları tərəfindən işğal olunaraq bölünməsi el adamı Elqəmin dərdini birə iki artırmışdı. Əbəs deyildi ki, ustadı Elhaqqın yumruqlanmış əli xanlıqları birliyə, bütövliyə çağırsa da

, hakimi mütləq olan xanlar öz işdahalarının indiki halda qurbanlarına çevrildilər.

Xalqın, dövlətçiliyin, bölünən torpaqların dərd –qəmini çəkən Elqəmin doğru söz, doğru fikir, doğru əməl və haqq carçısı olmaq təbliğatından başqa nə edə bilərdi ki?!

Elqəm yadelli işğalçıların, istər İran Qacarlarında olsun, istərsə də Rus qoşunlarının zəbt etdikləri Azərbaycan torpaqlarında dilbir olduqları erməni satqınları ilə birgə xalqa etdikləri zülmləri gözləri ilə görürdü.Araz çayının hər iki tayındakı torpaqlarda, yerli Azərbaycan xalqına, onun birgə yaşamına zülmlər edən Rus-erməni, yaxud Fars işğalçılarının onlarda yaratdığı əhvali- ruhiyyə bayatı da öz əksini tapırdı:

Əziziyəm dürüsdür,
"Xay" dayağı Urusdur.
Ölkəni viran edən,
Ya Farsdır, ya Urusdur.

Elqəm görürdü ki, bataqlıqdan baş qaldıran zərərli göbələklər kimi erməni məlik və katolikos satqınları da, Rus qoşunlarına quyruq bulamaqla xidmət göstərərək, İran Qacarlarının ərazisində qalmış İrəvan və Naxçıvanı ələ keçirmək üçün şirnikləşdirici planlara əl atırlar. Erməni din missionerləri Rusların onlara din qardaşı olaraq dövlət yaratmaq əzmini görürdülər. Ermənilərə görə, İran Qacarları isə onların bu məqsəd və arzularını heç vaxt nəzərə almırdılar və almazdılar.

Rus çarizmin təəbəəliyində olan Qarabağda isə, Ruslara arxalanan erməni katolikosları Alban xalqına aid olan kilsələri qriqoriyanlaşdırmaqla bərabər yeli Alban xalqlarının erməniləşdirilməsində ciddi irəliləyişə nail olmuşdular.

Rus çarizmi 1813-cü il Gülüstan sülh müqaviləsi ilə barışmır və cənubdakı sərhədlərinin təhlükəsizliyi baxımından, strateji cəhətdən maraqlı olduqları İrəvan və Naxçıvan torpaqlarını ələ keçirmək üçün əlverişli məqam axtarırdılar. Elə bu səbəbdən idi ki, Rus imperatoru Qafqazdakı Rus qoşunlarının baş komandanı Yermolova yazırdı:"Çox yaxşı olardı ki, İran şahı İrəvan və Naxçıvanı bizim tərəfimizdən tutulan Arazdan cənuba doğru olan ərazilərə dəyişsin. "İrəvan və Naxçıvanı ələ keçirmək üçün Rus çarı 1-ci Nikolay sələflərindən fərqlənməyərək işğalda qərarlı idi. Odur ki, Rus çarş 1-ci Pyotrun fərmanından irəli gələn, din qardaşları olan ermənilərə sığal çəkməklə nəvaziş göstərmək kəlamını gerçəkləşdirmək, onlardan bir mütəffiq kimi, dayaq olaraq istifadə etməyi lazım bilirdi. Bu nöqteyi nəzərdən 1-ci Nikolay baş komandan Yermolova yazırdı:

"Əgər İrəvanı ya silah gücünə, ya da İrəvan sərdarını pulla ələ almaq yolu ilə, ya da onunla gizli münasibətlər qurmaqla ələ keçirmək mümkünsə bu imkanı əldən verməyin. " Yermalovun fikrincə, İrəvanı ələ keçirməkdə həməşə bizə kömək olan İrəvan qalasındakı erməniləri, yerli müsəlmanlara qarşı silahlandırmaq lazımdır. Rus ordusunun baş qərargahı İrəvanı ələ keçirmək üçün ge-

nerallar, Yermalovun və Paşkeviçin rəyi əsasında, 1826-cı ilin sonunda iki layihə hazırlandı ki, bu layihə-plan, çar 1-ci Nikolay rərəfindən qəbul edilmiş oldu.

Beləliklə, Qafqaz ordusunun baş komandanı olmuş İ. F. Paşkeviç İrəvan xanlığının strateyi əhəmiyyətini bildiyindən, elə ilk zərbəsini İrəvan xanlığına yönəltdi. 1827-ci ilin martında baron Dibiç İrəvan xanlığına müharibə elan edərək, satqın erməni arxiyepiskopu Nerses Əstərəklinin müşaiyəti ilə İrəvana hərəkət etmiş oldu. Üçkilsə istiqamətində Rus qoşunları uğursuzluğa düçar olub, Sərdərabad qalası ətrafındakı döyüşlərdə İrəvan xanı Fətəli xanın, İrəvan qalası müdafiəçisi olan Azərbaycan igidlərinin qəhrəmanlığı nəticəsində geri çəkilib Qriqoriyan erməni kilsəsi olan Üçkilsəyə sığınmış oldular. İrəvan qalasını ələ keçirə bilməyən Paşkeviç sonrakı məqamda şəxsən özü İrəvan qalasına hucum etməklə bərabər, çar 1-ci Nikolayın razılığına əsasən erməni atlı alayı təşkil edib, qalaya hucumu davam etdirdilər.lakin, qala müdafiəçilərinin əzmini qıra bilmədilər. Riyakar Paşkeviç hiyləyə əl ataraq, onun təslim olmaq əmrini rədd edən Hüseyinqulu xandan dolayı, qalanın komendantı Sübhanqulu xanı və digərlərini, sələfləri Sisiyanov, Qudoviç generallarının etdikləri kimi şirin vədlər, pulla ələ almaq metodundan istifadə etməyə çalışdı, ancaq istədiyinə nail ola bilmədi.Sələfləri generallar Sisyanovun, Qudoviçin İrəvan qalasını illərlə mühasirədə saxlamalarını və son anda məğlub olmalarını çox yaxşı bilən Paşkeviç, İrəvan qalasını mühasirədə saxlamaqla bəra-

bər, Naxçıvan üzərinə hucum etməyi qərarlaşdırdı. Naxçıvan üzərinə hucum edən Rus qoşunlarının qarşısına İran Qacar qoşunları çıxsa da, məğlub oldular. Rus qoşunlarının Abbasabad qalasını ələ keçirməsi Rus-İran danışıqlarının başlanmasına səbəb oldu. Danışıqları Rus tərəfindən A. S. Qriboyedov, İran tərəfindən Abbas Mirzə aparsalar da, İrəvan və Naxçıvan xanlıqlarının Rusiyanın tabeliyinə verilməsi nəticəsiz qaldığından, 1827-ci ilin sentyabrında Rus qoşunları İrəvana hucumlara başlayıb Qalanı mühasirəyə aldılar. General Paşkeviçin əmri ilə Qalaya zərbələr endirib dağıntılar yaratdılar. Qalanın qəhrəman müdafiəçiləri yenidən erməni xəyanətinə rast gəlmiş oldular. İrəvan qalası döyüşlərinin şahidi olan el adamı Elqəm ermənilərin xəyanətkarlığını görürdü. Qalanın içərisində olan erməni casusları qala müdafiəçilərinin mövqeyi, sayı, topların yerləşdirilməsi səmtini Rus zabitlərinə donoslayır, pərdələnərək guya qala müdafiəçilərinə kömək etmək məqsədi ilə topların arxasına keçib, atəşləri Rus qoşunlarına qarşı deyil, havaya yönləndirirdilər. Qaladan kənarda olan xayin ermənilər isə rus qoşunlarına köməkliklərini canfəşanlıqla həyata keçirirdilər. İş o yerə çatmışdı ki, Üçkilsə arxiyepiskopu Nerses Əstərəkli Üşkilsə erməniləriniköməyə çağırırdı. Məhz bu xəyanətin nəticəsində qalaya daxil olan rus qoşunları qala müdafiyəçiləri ilə qanlı döyüşə girərək əzəmətli İrəvan qalasını ələ keçirmiş oldular. Rus qoşunlarının İrəvanda və qalada törətdikləri dağıntılar və maddi zərərlə bağlı V. Potto yazırdı:"Mən qalanın cənub-şərq küncünə çatar-

kən divar və bürclərin dağıntısına təccübləndim. Mənə elə gəlir ki, mühasirə artilleriyasının dörd gündə etdiyini, çərxi-fələk dörd əsrdə belə edə bilmədi”. İrəvanın işğalı, Rus-İran müharibəsinin sonrakı talehini həll etmiş oldu. Rus komandanlığı istədiyini əldə etdiyindən İranla danışıqlara tam hazır idi. Rus tərəfindən danışıqları aparan A. S. Qriboyedov İran məmurlarına psixoloji təsir edərək deyirdi ki, biz irəli gedib Azərbaycana sahib olaraq bu geniş vilayətin müstəqilliyini təmin edəcəyik. Danışıqlar zamanı təzminat məsələsində yaranmış narazılıq ona gətirib çıxardı ki, Rus tərəfi danışıqları kəsib, hucuma keçərək bir-birinin ardınca Urmiya, Ərdəbil şəhərlərini zəbt etmiş oldular.Hucumları ilə, müqavilənin bağlanmasını sürətləndirən Ruslar 1828-ci il fevralın 10-da Təbriz yaxınlığındakı Türkmənçay kəndində Ruslar üçün əlverişli olan müqavilə bağlanmasına razılaşma əldə etdilər. Türkmənçay müqaviləsinə əsasən Araz çayı sərhəd olmaqla Azərbaycan məmləkəti iki yerə bölünmüş oldu.

Bəli , Azərbaycan adlı böyük məmləkət hüquqi cəhətdən əsası olmayan və bu məmləkətin sahibləri olaraq iradələri nəzərə alınmadan, Rus və Farsların işğalçılıq məqsədlərinə rəğmən iki yerə parçalamış oldu. Bu parçalanmaya qədər ərazisi təxminən 410 min km kv. olan Azərbaycan ərazisinin təxminən 280min km kv. olan cənubi Azərbaycan torpağı İran Qacarları ərazisində müstəmləkə olaraq qalmış oldu. Təxminən 130 min km kv. olan Şimali Azərbaycan torpağı Rus çarizmin təəbəəliyində qaldı. Məmləkət Araz çayı olmaqla iki yerə parçala-

nıb, bölünmüş bir millətin, ayrılıq faciəsinin əsasını qoydu. Rus imperializmin və İran Qacarlarının zülmləri-ni gördüklərindən, Araz çayını ayrılıq acısı kimi qəbul edən və bu ayrılığın acısını dadan xalq öz bayatısında bu ayrılığı belə tərənnüm etdi:

Arazı ayırdılar,
Qan ilə doyurdular.
Mən səndən ayrılmazdım,
Zorunan ayırdılar.

Beləliklə, Türkmənçay müqaviləsindən sonra Rus imperiyasının təəbəəliyində qalan şimali Azərbaycanda Qriqoriyan - xristiyan ermənilərin məskunlaşması, yaxud digər ölkələrdən ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi qlobal olaraq sürətlənmiş oldu. Bu köçürülmənin layihəsi hələ 1827-ci ildə A. S. Qriboyedovun başçılıq etdiyi Cənubi Qafqaz diyarının diplomatik dəftərxanasında hazırlanmışdı. Rusiyanın İrandakı səfiri A, S, Qriboyedov İran ermənilərinin yenicə işğal edilmiş Azərbaycan torpaqlarına köçürülməsində fəal iştirak edirdi. İran ermənilərinin Çuxursəd bölgəsində yerləşdirilməsinə xüsusi diqqət, qayğı göstərilir və Rusiyanın şərqdəki mövqelərinin möhkəmlənməsinə çalışılırdı. Elə bu dövrdə, 1827-ci ilin avqustunda general Paşkeviçin əmri ilə İrəvanda təsdiqini tapmış "müvəqqəti idarə" ermənilərin köçürülməsi və yerləşdirilməsi məqsədi ilə yaradılmışdı. Bu idarənin təşkil edilməsində fəallıq elə-

miş xayin və millətçi Nerses Əstərəkli idarəyə üzv seçilmişdi. Yerli Azərbaycan türkləri yeni yaradılmış "müvəqqəti idarə"dən məhrum edilmişdilər. İdarənin rəhbəri olan general Krassovski idarədə canfəşanlıq edən Nersesə qeyri-məhdud səlahiyyətlər vermişdi. Yerli nümayəndəliklər Nerses tərəfindən təsdiqləndiyindən idarə qərarları Azərbaycan türkləri arasında narazılıqlar yaratmağa başlamışdı. Ermənilərin Azərbaycan türklərinə qarşı ədalətsiz hərəkətləri və zülmü bayatılarda da əksini tapırdı:

Əzizim bunnar imiş,
Nə sərin sular imiş.
Əzrayıl yalan oldu,
Baş kəsən bunnar imiş.

General Paşkeviçin tələbinə əsasən ermənilər içərisində hörmət sahibi olan polkovnik Qazaros Lazeryev Təbriz şəhərinə komendant təyin olduqdan sonra ermənilərin İrandan, şimali Azərbaycana köçürülməsi daha da sürətlənmiş oldu. Hələ 1787-1791-ci illər Rus-Türk müharibəsi zamanı Türklərə qarşı vuruşmuş və qaniçənliyi ilə tanınmış erməni Q. Lazerevi bilərəkdən Təbrizə komendant qoymuşdular ki, köçürülmə tez və ermənilərin xeyrinə olaraq həyata keçirilsin. Məhz bu təyinetmənin nəticəsi idi ki, Təbrizdə yaşayan ermənilər Təbrizin darvazalarını açaraq Rus qoşunlarını şəhərə buraxmışdılar. Köçürülmə siyasətinin aparılmasında hiyləgər erməni nümayəndələri, hətta millətçilikdə ad çıxarmış Üçkilsə arxi-

yepiskopu Nerses və digər katolikoslar öz köməklikləri-ni yetərincə verirdilər. Köçürülən ermənilər əsasən İrəvan və Naxçıvan bölgəsində yerləşdirirdilər. Köçürülmə siyasətinin sürətləndirən Q. Lazarev Paşkeviçə yazdığı raportunda bildirirdi ki, ermənilər Rus-İran müharibəsi zamanı , eləcə də İrəvan və Naxçıvanın ələ keçirilməsində Rus qoşunlarının xeyrinə və qələbəsinə güclü kömək ediblər. İndi bu ermənilər Rusiya tərəfi olan torpaqlara köçmək arzusundadırlar. Q. Lazeryev ermənilərin tezliklə köçürülməsi üçün bir sıra təkliflər verirdi:

1. Köçürmə işlərinə rəhbərlik üçün Paşkeviç mənə təlimat versin və ermənilərə veriləcək güzəştləri göstərsin;
2. Köçürmə işlərinə rəhbərlik etmək üçün erməni dilini bilən zabitlər versin;
3. İqlim şəraitinə uyğun olaraq Rus qoşunu köçənləri müşaiyyət etsin;
4. Köçürülənlər üçün xəzinədən vəsait ayrılsın.

General Paşkeviç təkliflərlə razılaşıb, polkovnik Q. Lazarevə və İrəvan "Müvəqqəti idarə"sinə xüsusi təlimat göndərdi:

"Köçürülən xristiyanlardan ticarətlə məşğul olanlar şəhərdə yerləşdiriləcəklər ki, yenə ticarətlə məşğul olsunlar;kəndlilərə kifayət qədər münbit torpaq ayrılacaq və onlar 6 il müddətinə vergilərdən, 3 il müddətinə torpaq mükəlləfiyyətindən azad ediləcəklər... Köçürülənlərin İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirmək lazımdır ki, həmin ərazilərdə xristiyan əhali artırılsın... Müsəlmanların yaşadıqları kəndlərdə xristiyanların yer-

ləşdirilməsinə yol verməməli, xristiyanlardan ibarət ayrıca dairə və mahallar yaratmaq lazımdır..."

Q. Lazaryev və onun yerlərə göndərdiyi erməni nümayəndələri təlimatda göstərilən müddəaları kobud şəkildə pozaraq İranda yaşayan erməniləri, o cümlədən kürd müsəlmanları könüllülük əsasında deyil, zorla köçürməklə bərabər, ədalətsizliyə də yol verirdilər. Belə ki, aran yerdən köçüb gələn ermənilər münbit torpaqlarla təmin edilməklə yanaşı, yerli Azərbaycan türklərinin ata-baba torpaqlarından uzaqlaşdırılmasına da səbəb olurdular. Köçürülməni sürətləndirmək üçün Q. Lazaryev ermənilərə müraciət edərək deyirdi:

"... orada siz xristiyanların məskunlaşdırıldığı yeni vətən əldə edəcəksiniz... İranın müxtəlif əyalətlərinə səpələnmiş xristiyanların bir yerə cəmləşdiyini görəcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə Rus qoşunları İranı tərk edəcək, bundan sonra sizin köçməyiniz çətinləşəcək... Azca itgiyə məruz qalsanız da, qısa zamanda hər şeyə nail olacaqsınız, özü də həmişəlik."

Q. Lazarevin tapşırığına əsasən İrəvan vilayətinə köçürülənlər, vilayətin münbit torpaqlarına, barlı-bərəkətli mahallarına, -Şərur, Dəvəli, Zəngi, Abaran, Qırxbulaq, Dərələyəz, Naxçıvan, Ordubad torpaqlarına köçürülürdülər. Köçürülən ermənilər general Paşkeviçin təlimatının kobud pozulması ilə həyata keçirilirdi. Təlimata görə köçürülənlər dövlət torpaqlarına köçürülməli olduqları halda, Azərbaycan türkləri olan mülkədarlarının torpaqlarında yerləşdirilirdilər ki, bu da yerli mülkədar-

ların haqlı narazılığına şərait yaradırdı. Təsadüfi deyil ki, A. S. Qriboyedov "Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlər"-ində yazırdı:

"Ermənilərin mülkədar torpaqlarında yerləşdirilməsi, onların müsəlmanların yerini dar etməsi bir yana, hələ üstəlik onlara güzəştlər də verildi. Halbuki, ziyan çəkən tərəf müsəlmanlar idi. Əslində, ermənilər deyil, buranın müsəlmanlarını köçkün hesab etmək lazımdır. Ermənilər köçürülən zaman müsəlman ailələrinin əksəriyyəti yaylaqda idi və gəlmə ermənilərin onların evlərində yerləşdirilməsindən xəbərləri yox idi."

Bütün bu narazılıqların şahidi olan el adamı Elqəm gəlmə erməni ilə, yerli Azərbaycan türkünün mübahisəsini görüb məətəl qalırdı. Azərbaycan türkünün ev-eşiyini, torpağını zəbt etmiş erməni, yaylaqdan evinə qayıdan Azərbaycan türkünə azğıncasına bildiridi ki, o bu evdə illərlə yaşayır, ev –həyət ona babalarında qalıb. Əlacsız olan Azərbaycan türkü haqq üçün kimə müraciyət etməliydi ki?!

Yerli nümayəndə erməni, "müvəqqəti idarə" ermənilərdən ibarət olduğu halda nə edə bilərdi ki, evsiz-eşiksiz qalan Azərbaycan türkü?!

Erməni himayədarları olan Rus zabitlərinə şikayət etmək, ikiqat zülm demək olardı. Yurdu yuvası dağılmış, harada məskən salacaqlarını bilməyən Əmrah və Nəbi qonşularının ürək dağlayan bayatıları bu əhvalın əksi deyildimi?!

Qabar olmuş əlilləri ilə dolmuş gözünün axan damcılarını silən Əmrah kişi bir xalq bayatısında öz gününü görərək deyirdi:

Kafirin amanı yox,
Urusun imanı yox.
Yurd qalıb qan içində
Bir yana gümanı yox.

Qonşu Nəbi kişi Rus əsgərlərinin gətirdiyi dağıntılar bir yana, üstəlik barlı-bərəkətli torpaqlarının gəlmə ermənilərə verilməsindən şikayətlənərək, köçürüldükləri daşlı-kəsəkli torpaqda heç otun da bitməməsini gördüyündən gəlmələrin qayğısına qalan rusları qaralayacaq bayatı deyirdi:

Əzizinəm ot bitməz,
Daş-qayada ot bitməz.
Rus ayağın qoydu ha,
O torpaqda ot bitməz.

Evi-yurdu dağılmış, torpaqları əldən getmiş Əmrah və Nəbi kimi Azərbayca türkləri minlərlə idi. Yerli əhali olan bu Azərbaycan türkləri atılmışdılar talehin zülm ilə yoğurulan hökmünə!

İrəvan vilayətində yaradılmış "Müvəqqəti idarə"ni ləğv edən çar 1-ci Nikolay 1828-ci il martın 21-də, Azərbaycan türklərinin müqəddəs Novruz bayramında xüsusi fərmanla Naxçıvan və İrəvan xanlıqlarının inzibati ərazisində"Erməni vilayəti"adlı bir qurum yaradıb, bir növ

İrəvan şəhərini mərkəz kimi ermənilərə "hədiyyə"etdi. Bu inzibati-idarə qurumunu yaratmaqla ermənilərin Azərbayvcana köçürülməsinə vüsət verildi ki, bununla da yerli Azərbaycan xalqının başına faciələr gətirmiş oldular. Ermənilərin Qafqaza gəldikləri andan arzuladıqları "dövlət" yaratmaq arzuları çin olmaqda idi.

1828-1829-cu illər Rus-Türk müharibəsi nəticəsində bağlanmış Ədirnə müqaviləsinə əsasən, Türkiyə ərazisindəki ermənilərə 18 ay müddətində Rusiya təəbəəliyinə keçməsi hüququ verilmişdi. Çar Rusiyasının yeganə məqsədi İrandan köçürülən erməniləri İranla sərhəd boyu yerləşdirdiyi kimi, Türkiyədən köçürülən ermənilərin də Türkiyə ilə sərhəd boyu yerləşdirilməsinə nail olmaq və xristiyan ermənilərdən ibarət olan əhalidən bir bufer zonası olaraq dayaq nöqtəsi yaratmaq idi. 1829-cu ilin oktyabrında çar 1-ci Nikolaya raport yazan general Paşkeviç Ədirnə müqaviləsinə rəğmən Qars və Ərzurumda yaşayan ermənilərin "Erməni vilayəti"nə köçürülməsinə icazə istəyib, razılıq aldıqdan sonra öz rəhbərliyi altında Ərzurum və Qarsdan erməniləri kütləvi şəkildə, şimali Azərbaycanın cənub və qərb bölgələrinə yerləşdimiş oldu. Ermənilərin köçürülməsində hakim qüvvələr erməni və rus nümayəndələri olduğundan ədalətsizliklə qarşılaşan yerli xalq yurdsuz, torpaqsız qaldıqlarından şikayət etməyin mənasız olacağını bildiklərindən baş alıb digər vilayətlərə gedirdilər. Bu isə xristiyan ermənilərin toplam olaraq bir yerdə məskunlaşmasına şərait yaradırdı ki, bu da məqsədli olaraq rus çarizmin xristiyan dövləti

yaratmaq planına uyğun olurdu. Məhz bunun nəticəsi idi ki, Azərbaycanın ərazi-dövlətçilik ənənələrinə zərbə vurmaq istəyən Rus çarizmi 1849-cu ildə İrəvan, Gümrü, Naxçıvan, Ordubad və Göyçə mahalının şərq hissəsi olan əraziləri birləşdirməklə İrəvan quberniyası yaratmış oldu. İrəvan quberniyasının yaradılması isə gələcəkdə erməni döləti yaratmaq yolunda Rusiya çarizmin həlledici addımı olurdu. İrəvan quberniyasının yaradılması nəticəsində ermənilərin Türkiyədən Azərbaycan torpaqlarına köçürülməsi daha kütləvi xarakter almağa başlamışdı. Bununla bərabər o vaxtlar M. Vladikin ermənilərin Türkiyədən Azərbaycan torpaqlarına, ən çox İrəvan vilayətinə köçürülməsi barədə yazırdı:

" İrəvan quberniyasında yaşayan ermənilərin əksəriyyəti buranın yerli sakinləri olmayıb, 1828-1829-cu illər müharibəsindən sonra Türkiyədən bu əraziyə köçürülmüşlər."

Sonralar N.N. Şavrov Rusiyanın cənubi Qafqazdakı müstəmləçilik fəaliyyəti haqqında yazırdı:

" Biz müstəmləçilik fəaliyyətimizə Cənubi Qafqazda Rusları deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... 1826-1828-ci illər müharibəsinin qurtarmasından sonrakı iki il ərzində-1828-ci ildən 1830cu ilədək Qafqaza 40 min İran və 80 min Türkiyə ermənisi köçürdük və onları erməni əhalisinin cüzi olduğu Yelizavetpol və İrəvan quberniyasının ən yaxşı dövlət torpaqlarında yerləşdirdik... Yelizavetpol quberniyasının dağlıq hissəsi və Göyçə gölünün sahili həmin ermənilərlə məskunlaşdırıldı."

Ermənilərin İran və Türkiyədən Qarabağa köçürülməsi də öz növbəsində sürətləndirilmişdi. Qarabağın dağlıq hissəsinə köç edən ermənilər daha çoxluq təşkil edirdilər. Əvvəllki tarixlərdə köçərək məskunlaşan ermənilər, tarixi Alban monastırlarının qriqoriyanlaşdırılması və erməniləşdirilməsi siyasətini davam etdirərək, az qala qədim tarixlərindən bəhs edir, özlərini Qarabağın əsil sahibləri kimi təqdim edirdilər.Buna baxmayaraq, hələ 1-ci Pyotrun vaxtında ona məktub ünvanlayan yerli Albanlar özlərini Alban kimi təqdim edərək erməni olmadıqlarını bildiridilər. İstər Azərbaycanın İrəvan, Naxçıvan bölgələrinə, istərsə də Qarabağ torpağına köç edən ermənilərin məskunlaşdıqları Azərbaycan torpaqlarını həyasızcasına ata-baba yurdu hesab edib, qədim tarixə malik olmalarını söyləmələri bilavasitə, köçürülmə ilə məşğul olan A. S. Qriboyedovun da nəzərindən qaçmamışdı. Ermənilərin bu azğın niyyətini başa düşən A. S. Qriboyedov Rusiya imperatoruna ünvanladığı məktubda yazırdı:

"Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə on il yaşadıqdan sonra dünyaya hay-küy salacaqlar ki, bur bizim dədə-baba torpaqlarımızdır."

Beləliklə, Rus-İran müharibələri(1804-1813, 1826-1828)və Rus-Türk müharibələri(1806-1812, 1828-1829) nəticəsində hüquqi cəhətdən torpaq sahibləri olan Azərbaycan-Alban xalqlarından soruşmadan, onların sahib

olduqları torpaqlarda Rusiya çarizmin məqsədli olaraq, rəhbərliyi altında ermənilərin köçürülüb məskunlaşdırılması özünün son həddini 1836-cı ildə 1200 illik tarixi olan Alban katolikosluğunun ləğvi ilə başa çatdırmış oldu. Alban katolikosluğunun ləğvi Qriqoriyan ermənilərinin tam olaraq Alban monastırlarının qriqoriyanlaşdırılması və Alban əhalisinin erməniləşməsi demək idi. Bu da Rusiya çarizmin "sədd, " "dayaq"xristiyan müttəfiq yaratmaq məqsədlərinə xidmət etmiş olurdu. Bununla da Balkanlardan Anadolu Kilikiyasına, oradan Üçmüəzdzinə köçüb, Üçkilsə dini mərkəzi yaradan və dövlətiləri olmayan frig-ermənilər "dövlət" yaratmaq arzularına nail olacaqdılar. Rusiya çarizmi bununla da kifayətlənməyib sonrakı illərdə də ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin davamçısı oldu. Məhz bu münasibətlə rus Qafqazşünası N. N. Şavrov yazırdı:
"Zaqafqaziyada yaşayan 1 milyon 300 min erməninin 1 milyonu yerli deyildir və onlar vilayətə bizim tərəfimizdən köçürülüb. " Bəli, ermənilər çar Rusiyasının hərtərəfli köməyi nəticəsində Azərbaycan torpaqlarında yaşamağa başlayaraq , məskunlaşdığı vilayətlərin iqtisadi-siyasi həyatında da möhkəmlənə bildilər.

"Erməni vilayəti" adlı bir qurumun məqsədli olaraq Rus çarizmi tərəfindən yaradıldlğını, sonralar erməni yadellilərinin bu quruma əsaslanaraq Azərnbaycan torpaqlarında çoxalması, milli tarixi keçmişini bilən el adamı Elqəmdə belə bir əhvali-ruhiyyə yaratdı ki, daha qara buludlar Azərbaycan məmləkətinin başının üstünü

Yadınızdadırmı, Bakı neftinin qələbə əhəmiyyətini başa düşən Hitler, Bakıya aid olan tort mərasimində nefti Bakının rəmzi olan Qız qalasına tökməklə nə demək istəyirdi?! Hitler düşmən də olsa, Bakı neftinin əhəmiyyətini başa düşürdü.Ancaq, ermənipərəst Sovet rəhbərləri

əvvəlki şovinist, millətçi siyasətlərini yenə də davam etdirməyi lazım bildilər.

Yenə də 1-c- Pyotrdan qalma ermənipərəstlik siyasəti ilə Azərbaycana qarşı çıxdılar!

Yenə Azərbaycan torpaqlarını parçalamaq, əhalisini sürgün edib öz dədə-baba torpaqlarından qovmaq siyasətini davam etdirdilər.

Hitler Almaniyası üzərində qələbə çalan Sovet İttifaqının ermənipərəst rəhbəri İ.V.Stalin, müharibənin əvvəlki illərində, Naxçıvanın Azərbaycana verilməsindən narazı olub, mərkəzə olan inciklərini bildirən erməni qardaşlarına kömək etmək məqsədi ilə, qalib ölkə uğurunu möhkəmlətmək və ermənilərin inciklərini unutdurmaq üçün Türkiyəyə nota verərək bəzi əraziləri tələb etdilər.Sovet İttifaqının verdiyi bu nota ermənilərin ürəyincə olsa da, bu nota vəziyyəti gəginləşdirib az qala müharibə şəraiti yaradacaqdı.Lakin, düniyanın aparıcı dövlətləri müharibədə qələbə çalmış SSRİ-nin bu ambisiyalarına qarşı çıxmış oldular.Amerika prezidenti Harri Trumen öz bitərəfliyini saxlasa da, İngiltərənin Baş naziri U.Çörçill qəti etirazını bildirmiş oldu. 1953-cü ildə İ.V.Stalinin ölümü ilə, Sovet İttifaqının bu ambisiyalı təhlükəsi birdəfəlik sovuşmuş oldu.

Buna baxmayaraq məkrli planlarından əl çəkməyən ermənilərin və onların Moskva havadarlarının Dağlıq Qarabağ Muxtar vilayətini, Qarabağ altında Ermənistana birləşdirilməsi ideyasını meydana atdılar. Azərbaycan hökumətinin başçısı M. C. Bağırov tərəfindən bu ideya

rədd edildi. Azərbaycan torpaqlarının parçalanmasında maraqlı olan SSRİ rəhbəri C. M. Malenkovun simasında əhalinin əksəriyyətini təşkil edən Zaqatala, Qax, Balakən rayonlarının Gürcüstan Respublikasına verilməsi təklifi isə M. C. Bağırovu haqlı olaraq adevkat təklif verməyə məcbur etmişdi. Azərbaycan rəhbəri, əhalisinin əksəriyyətini Azərbaycanlılar təşkil etdiyi tarixi torpağımız olan və Gürcüstan ərazisində yerləşən Borçalı rayonunu, Rusiyanın Dağıstan Respublikasında yerləşən, əhalisinin əksəriyyəti Azərbaycanlılar olan tarixi torpağımız Dərbənd və Qasımkəndin Azərbaycan SSRİ-yə verilməsinin təklifi Moskvada oturan şovinistləri Azərbaycana təzyiq göstərməkdən çəkindirmişdi.

Çox keçmədi ki, erməni millətçiləri monoetik Ermənistan arzularını həyata keçirmək üçün xarici ölkələrdə yaşayan "əzabkeş"ermənilərin Ermənistan Respublikası ərazisində yerləşdirilməsini təmin etməyə rəğmən hiyləyə əl atmış oldular. Moskvadakı ermənipərəstlərin köməyi və İ.V. Stalinin imza atdığı SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il qərarı ilə Ermənistan respublikasında tarixi torpaqlarında yaşayan Azərbaycanlıların deportasiyasını həyata keçirməyə, erməni şovinistləri müvəffəq oldular. Azərbaycan xalqına qarşı çevrilmiş olan bu qərara görə, Ermənistan Respublikasında yaşayan Azərbaycan əhalisi olan "kolxozçuların" Azərbaycan SSR-nin Kür-Araz torpaqlarına köçürülməsi nəzərdə tutulurdu. Bu qərara görə 1948-1953 illər ərzində 100 mindən çox Azərbaycan əhalisi öz dədə-baba torpaqlarından, ev-

eşiklərindən didərgin edilərək, heç bir yaşayış şəraiti olmayan və susuzluqdan cadar-cadar olub ilan mələyən Kür-Araz ovalığına sürgün edildilər. Evsiz-eşiksiz qalıb, çadır və vaqonlarda yerləşdirilən əhali kədər və ələm içində hər cür məşəqqətlərə qatlaşaraq yaşamağa məcbur idilər. Köçürülən əhali çox yaxşı bilirdilər ki, onlar bu əziyyətə qatlaşmalıdılar, keçən günləri heç kim onlara qaytaran deyil və geriyə yollar bağlanıbdır. Köçürülən əhalinin vətən-qəriblik dərdi bayatılarda da əksini tapmışdır:

İrəvanda yar hanı,
Yanağında xal hanı.
Qəriblikdə solan gül,
Geriyə yollar hanı.
xxx
Əzizim buda məni,
Xəncər al, buda məni.
El-obadan ayırıb,
Saldılar oda məni.

Erməni millətçilərinin torpaq acgözlüyü, monoetnik erməni dövləti yaratmaq niyyətləri və bu nanəcib millətə havadarlıq edənlər, Azərbaycan xalqının faciələrinə səbəb olduqlarından, haqq -ədalət carçısı el adamı Eldar, daha bu haqsızlıqlara, zülmlərə dözə bilməyib haqsız dünyadan haqq dünyasına, əbədiyyətə qovuşmuş oldu. Onu haqq dünyasına yola salmaq istəyən əhali , el adamı

tərəfindən yazılmış vəsiyyəti tapdılar. El adamı Eldar vəsiyyətində yazırdı:

"Ey mənim qüdrətli xalqım!Sən qüdrətli olduğun kimi möhtəşəmsən, qəhrəmansan, zəhmətkeş olaraq torpağa bağlısan, insanlığa münasibətdə həssasan, din-iman sahibisən, qeyrətli, pak və haqqsan. Bu məziyyətlərinə görə, mənim xalqım, Allahımız barlı-bərəkətli, sərvətli torpaqları sizə bəxş edibdir. Xainlər, belə məziyyətlərə malik olmadıqlarından, biz zülmlərə düçar olmuşuq. Yəqin ki, hələ uzun müddət bizim müdrik xalqı sevməyəcəklər və torpağımıza da kəm baxacaqlar. Xainlər, xəbislər, fitnəkarlar olmasaydı yəqin ki, bizim bu gözəl, yaşamağa layiq olan dünyamız "haqqsız dünya" adlandırılmazdı. Bu haqqsız dünyada haqqımızı qorumaq üçün, xalqımıza, torpağımıza ədalətsizlik edən yadellilərə qarşı sipər olmalıyıq, bütöv olmalıyıq. Məhz bu haqsızlığa dözməyən əcdadlarımız, o cümlədən el adamımız Elhaqq xalqı birliyə çağıracaq yumruqlanmış əli ilə əbədiyyətə qovuşmuşdu. Bizim babamız Elhaqq qüdrətli Nadir şahın yaratdığı böyük məmləkətdən sonra, xanlıqlara parçalanmış torpaqlarımızın yadellilər tərəfindən istila olunmasının şahidi olduğundan, yumruqlanmış əli ilə xalqı birliyə çağırmışdı. İndi məndə, el dərdini çəkə-çəkə əldən düşmüş olaraq əbədiyyətə qovuşmalı olacam. Ancaq, mənim ürəyimdə bir narahatçılıq var. Mənim qüdrətli xalqım, nə vaxtsa, onu sevməyən, bütöv olmasını istəməyən yadellilərə qarşı mübari-

zədə, Elhaqq babamızın əbədiyyətə qovuşan, ancaq xalqı birliyə çağıran yumruğu kimi bütöv olacaqmı?!

Vətən, torpaq nə vaxtsa rahat nəfəs alacaqmı!?

Kaş o gün olaydı!?

Ulu Elhaqq babamızın, sərkərdə və fatehlərimiz Şah İsmayılın, Nadir şahın ruhu şad olardı!?

Ancaq mən bədbin deyiləm.Bu xalq, şah İsmayılı, Nadir şahı yetişdiribsə, inanıram ki, bu xalqın elə bir oğlu yetişərək, deyəcək: “Biz azadıq!Vətən, millət, xalq olaraq birik! Yumruqlanmışıq və möhkəmik!”

1969-cu ildə H. Əliyevin Azərbaycana rəhbər təyin edilməsi və sonradan SSRİ dövlətinin rəhbərlərindən birisi olması uzun müddət ermənilərin separatçı hərəkətlərini dondurmuş oldu. H. Əliyev şəxsiyyəti ermənilərin separatçı hərəkətlərinə qarşı sipər idi. Təkcə onu demək kifayət edər ki, SSRİ konstutiyası qəbul olunarkən, ermənilər Dağlıq Qarabağ məsələsini qabartmaq istəsələr də, buna müvəffəq ola bilmədilər. Lakin, bütün bununla bərabər erməni millətçiləri öz çirkin niyyətlərindən əl çəkməyib pozuculuq fəaliyyətinə yer verməli oldular. Belə ki, millətçiliyi ilə seçilən erməni yazıçısı Z. Balayan millətçi ermənilərin separatçı hisslərini coşduracaq, tarixən ocaqları olmayan ermənilərə “Ocaq” kitabını yazdı. Saxta və təhrif edilmiş Qarabağ tarixindən bəhs edən Z. Balayan, separatçı, başıpozğun ermənilərin çirkin ürəyinə millətçilik toxumunu bir daha səpmiş oldu. Sonralar SSRİ-də hakimiyyətə gələn ermənipərəst M. S. Qorbaçov erməni millətçilərini əhatəsinə yığıb, elə onların təhriki

ilə erməni separatçılığına "əngəl" olan H. Əliyevin bəhanə ilə vəzifədən uzaqlaşdırılmasına və erməni millətçilərinin separatçı ehtiraslarının coşmasına şərait yaratdı. SSRİ-nin Stavropol vilayətinin rəhbəri olub ermənilər əhatəsində inkişaf edən M. S. Qorbaçov Moskvaya rəhbərliyə gətirilsə də, xalq arasında bir o qədər də tanınmırdı. 80-cı illərin əvvəlində L. Brejnevin 19 illik hakimiyyətindən sonra, rəhbərliyə gələn "qocalar" Y. Andropov, A. Çernenko heç bir il hakimiyyətdə olmayıb dünyalarını dəyişdiklərindən, yeni rəhbərliyin seçilməsi lazım gəlirdi. Hələ Çernenko rəhbərliyə gəlməmişdən öncə yaşadığım Rusiyada, xalq yeni rəhbərliyə ya H. Əliyevi, ya da Romanovu düşünür və mübahisə yaradırdılar. İndiki halda Çernonkonun ölümü, xalqda yenə də H. Əliyev və Romanov rəhbərliyi müzakirə obyektinə çevrildi.

Heç vaxt yadımdan çıxmaz ruslar arasında rəhbər seçimi müzakirə olunanda yüksək liderlik istedadına sahib olan, boylu-buxunlu, yaraşıqlı və səlis nitqi ilə hətta ruclara örnək ola biləcək H. Əliyevə üstünlük vermələri məni çox sevindirərdi. Kremldə rəhbər ölümlərində müəyyən edilmiş "qaydaya" görə, tabut önündə dayanacaq ilk dördlüyün birincisi adətən rəhbər "seçilmiş"olurdu. Əvvəlki, rəhbər ölümlərində belə bir "qayda" hökm sürdüyündən, biz səbirsizliklə ilk gələn dördlüyün birincisinin kim olacağını gözləyirdik. Bəli, Çernenkonun tabutunu əhatə edənlər matəm müsiqisi altında tabut önünə gül dəstələri qoyaraq öz hüznlərini bildirirdilər. Və birdən səbirsizliklə gözlədiyimiz an gəlib çıxdı. İlk gələn

rəhbər dördlüyün içərisində balacaboy və keçəlin birisini görüb sarsıldıq. Bu seçimə dözə bilməyən hündürboylu anbar müdiri Rima ayağa qalxıb, etiraz edirmiş kimi dedi:

-"Bu liliputu haradan tapdılar? Bu böyüklükdə ölkədə rəhbər kişi qəhət idi?!"

Əlbəətə, mən Rusiyada yaşadığıma rəğmən susqunluq mövqeyimdə qalsam da, daxilən sarsılmışdım. Ancaq, millətimin tarixini və onun başına gələn faciələrdən anlayırdım ki, Rus millətçiliyi və slavyançılıq Sovet rəhbərləri içərisində liderlik istedadı və uzaqgörənliyi ilə seçilən H. Əliyevə qarşıdır və cənublu liderə qarşı yönəlmiş ciddi qısqanclıq hissləri hökm sürür. Çox çəkmədi ki, babalarımızın haqq deyilmiş bir məsəli M. Qorbaçovun simasında özünü doğrultmuş oldu. Babalar deyib:"Bapbalaca boyu var, dam dolusu toyu var."M.Qorbaçov da bapbalaca boyu ilə boyuna uğun olaraq, Sovet hökümətinin köhnə bağına təzə nırx qoymaq üçün "Aşkarlıq və Yenidənqurma" adlı sovet adamının anlamayacağı bir kitab yazıb, əvvəlki rəhbələrdən seçilmək isrtədi . M. Qorbaçov sərsəm yenidəqurma fəaliyyətini gerçəkləşdirmək üçün ilk növbədə qısqanclıqla yanaşdığı rəhbər vəzifə sahiblərini uzaqlaşdırıb, ətrafına onun çürük ideyasına səs verəcək insanları yığmağa başladı. M. Qorbaçov keçmiş Stavropol həyatını unutmayıb əhatəsində inkişaf etdiyi erməni qardaşlarını böyrünə toplayıb onların millətçi və separatçı ehtiraslarının genişlənməsinə şərait yaratdı. M. Qorbaçovun əhatəsində olanlardan qatı millətçi,

dağılmaqda olan Sovet iqtisadiyyatının "çiçəklənməsinə"töhvələr verən akademik A.Ağanbəyyan də var idi. 1987-ci ildə Fransanın paytaxtı Paris şəhərində vətənsiz erməni qardaşları ilə görüşən bu üzdəniraq "akademik", tarixi Azərbaycan torpaqları olan Qarabağ və Naxçıvan diyarlarının təhrif edilmiş tarixlərini "vətənsizlərə" danışdıqdan sonra, söz verdi ki, Qarabağ və Naxçıvanın Ermənistana birləşdirilməsinə səy göstərəcək. H. Əliyev dövründə ermənilərin "dondurmuş" oluqları separatçı erməni ehtirasıları vüsətlənmış oldu. Moskvadakı himayədarlarına arxalanan torpaq acgözləri olan ermənilər Azərbaycan SSR-nin Qazax rayonunun ermənistana sərhəd olan hissəsindəki meşəlikləri, yaşayış məntəqələri ilə bərabər Ermənistan SSR-nin Noremberyan rayonuna birləşdirilməsini tələb edərək, bilərəkdən insident də törətmiş oldular. Havadarlarının köməyi ilə tələb etdikləri meşəlik massivini, yaşayış məntəqələri ilə bərabər, Moskvanın təzyiqi nəticəsində ələ keçirməyə nail oldular. Bununla bərabər əvəllər gizli fəaliyyət göstərən "Qarabağ komitəsi", "Krunk-Durna" və s. kimi milliyətçi hərəkatları fəallaşdırıb, daha aqressiv və təhlükəli mübarizə formalarına əl atdılar. 1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin sessiyası, vilayətin statusu haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etdi. Təəssüf ki, Azərbaycan hökumətinin, erməni separatçıları taktikası qarşısında olan hazırsızlığı, ona gətirib çıxardı ki, bu müraciətdən dörd gün sonra Azərbaycan xalqının qanına susamış olan erməni millətçiləri Əs-

gəranda yerli Azərbaycanlıların öldürülməsinə və yaralanmasına səbəbkar oldular. Bu hadisələrin ardınca fevral ayının sonunda ikinci böyük şəhərimiz olan Sumqayıtda erməni millətçilərinin əlaqəli olduğu KQB sisteminin əli ilə, Sumqayıt hadisələrini törətdilər. Erməni millətçiləri törətdikləri Sumqayıt hadisələrindən bəhanə olaraq istifadə etməklə, monoetnik Ermənistan yaratmaq üçün Ermənistan SSR-də yaşayan 200 mindən çox Azərbaycanlıları dədə-baba torpaqlarından sürgün etməyə də nail oldular. İllərlə yaşadıqları doğma torpaqlarından hədə, zorla qovulan əhalinin ahu-fəqanları, torpaq-vətən həsrətləri, yaratdıqları bayatılarda öz əksini tapmışdır:

Möhtacam sənə durna,
Havalan yenə, durna.
Bir ovuc torpaq gətir,
Vedidən mənə, durna.

xxx

Qəmərrinin qoçağı,
Oldu düşmən qaçağı.
Bu zülüm yerdə qalmaz,
Qırılıb solu-sağı.

xxx

Mən aşıx Ağbulağa,
Yol gedir Ağbulağa.
Düşmənə girov qalan,
Ağla sən Ağbulağa.

xxx
Eləmi Göyçəyə mən,
Gözəlçə , göyçəyə mən.
Qürbətdə həsrət qaldım,
Vətənim Göyçəyə mən.

xxx
Əzizim hardadı,
O xoş günnər hardadı.
Yuxu gəlməz gözümə,
İrəvanım hardadı.

xxx
O yerdə ümman qaldı,
Getmədi duman qaldı.
Ana Vətən qoynunda,
Bir qarı düşman qaldı.

Ermənistan ərazisində etnik təmizləmə aparan ermənilər, Moskvada oturan və onların separatçı hərəkətlərinə bilərəkdən göz yuman havadarlarına arxalanaraq, Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-yə birləşdirilməsi üçün fəaliyyətə keçdilər.Üzümüzə qarşı gülüb, bizlərə "qardaş"deyərək hiylələrə əl atan ermənilər çoxəsirlik, əsassız Qarabağ iddialarını ortaya ataraq, torpaqlarımıza göz dikdilər. Ermənilərin torpaq acgözlüyünü, məkrli hərəkətlərini görən xalq şairimiz B.Vahabzadə "Torpaqdan pay olmaz"şerində onların torpaq ehtiraslarını belə qiymətləndirmişdi:

Ösgə torpağına göz dikdiyindən
Sənin neçə dəfə gözün oyuldu?
Sənə dərs olmadı yenə də bunlar
Yoxsa tökülməli artıq qanın var?
Mənə üzə vari qardaş deyirsən,
Ancaq altdan-altdan iynələyirsən.
Əyyamı qədimdən zadə diləm mən
Baş aça bilmədim hiylılələrindən.

Dağlıq Qarabağda yaşayan Azərbaycan əhalisinə qarşı erməni millətçilərinin etdikləri antimilli zorakılıqlardan istifadə edən Moskva din qardaşları ermənilərin çoxdankı arzularını həyata keçirmək istədilər. Yaranmış milli məsələləri tənzimləmək adı ilə SSRİ Ali Soveti 1989-cu il yanvarın 12-də"Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar vilayətində xüsusi idarəçilik inzibati sisteminin tətbiqi haqqında"qərar qəbul etmiş oldu. Lakin, Moskvanın ermənipərəst məqsədini başa düşən Azərbaycan xalqının demokratik qüvvələri Moskvanın bu qərarını ləğv etdirməyə nail oldular. Sonralar, Azərbaycan rəhbərliyinin Moskvaya olan mütiliyini dərk edən ermənipərəst Moskva rəhbərliyi "Xüsusi idarəçiliyi" təşkilat komitəsi ilə əvəz etmiş oldu. Moskvanın bu qərarı eyni ilə Rus çarizmin 1828-ci ildə yaratdığı "Erməni vilayəti"i, Dağlıq Qarabağ "təşkilat komitəsi"indən heç nə ilə fərqlənmirdi. O vaxtlar Nerseslər, Lazarevlər Azərbaycan xalqının başına bəlalar gətirdiyi kimi, indi də ermənipərəst Voliskilər, Kazimirovlar sələflərindən geri qalmadı-

lar. Müxtəlif vaxtlarda qəbul edilmiş hər iki qərarda eyni məqsəd güdülürdü. Azərbaycan torpaqlarını hissə-hissə Ermənistana birləşdirmək. İndiki dövrdə ermənipərəst Moskva rəhbərliyi öz forpostunun arzularını reallaşdırmaq üçün istənilən qərarı vermək əzmində idi. Belə bir vaxtda havadarlarının qayğısından ruhlanan Ermənistan hökuməti 1989-cu il 1 dekabrda SSRİ konstutiyasının müddəalarını kobudcasına pozaraq Dağlıq Qarabağın Ermənistan SSR-yə birləşdirilməsi haqqında qərar qəbul etdi. Ermənistanın bu antikonstutisiyon qərarına Moskvanın göz yumması Azərbaycan xalqı tərəfindən kəskinliklə qarşılaşmış oldu. Ermənipərəst Moskva, başda M. Qorbaçov olmaqla Azərbaycan xalqının konstutsiyon hüquqlarını pozaraq, 1990-cı il yanvarıb 19-dan 20-nə keçən gecə Azərbaycanda yaranmış milli azadlığı silah gücünə boğmaq üçün Bakı şəhərinə qoşun yeritmiş oldu. Həmin gecə Sovet qoşunları tərəfindən azadlıq mübarizləri olan xalqa qarşı elə qırğınlar törətdilər ki, bu qırğınlar nəticəsində xeyli insanları qətlə yetirib, bir çoxlarını şikəst etdilər.Bu da Azərbaycan tarixində "Qanlı 20 Yanvar"adı ilə Azərbaycan xalqının yaddaşlarında silinməz bir qətliam oldu. Sovet hökumətinin bu xəyanətinə cavab olaraq Azərbaycan hökuməti oktyabrın 18-də "Dövlət müstəqillyi haqqında Konstutisiya Aktı"- nı qəbul etmiş oldu. Azərbaycanın müstəqillik aktını qəbul etməsindən sui-istifadə edən ermənilər "Dağlıq Qarabağ Respublikası" adlı qurum yaratdılar. Azərbaycan hökuməti bu qurumu tanımadığını elan edib, noyabrın 26-da bu tanın-

mamış qurumun statusunu ləğv etmiş oldu. Sovet hökumətinin dağılması, mütəffiq olan respublikaların müstəqilliklərini elan etməsi, yaranmış yeni geosiyası şərait ermənilərin Dağlıq Qarabağda monoetnik ikinci bir erməni dövlıətinin yaratması ehtirasını gücləndirdi. Erməni şovinistləri Azərbaycan əhalisinin yaşadığı ərazilərə silahlı basqınlar törətməyə başladılar. Ermənistan hərbi qüvvələri Azərbaycanda yaranmış hakimiyyət böhranından və Azərbaycan hərbiçilərinin nizamsız, parakəndə döyüş qabiliyyətindən yararlanaraq əraziləri işğal edib dinc əhaliyə qarşı vəhşiliklər törətdilr. Bu vəhşiliyin pik həddi, 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə 366-cı Rus hərbi alayının köməkliyi ilə törədilmiş Xocalı soyqırımı oldu. Ayaqdan başa qədər silahlanmış olan erməni faşistləri rus hərbi alayının köməyi ilə Xocalı əhalisini al-qana boyadılar. Erməni faşistlərindən qurtulmaq istəyən dinc əhali, qarlı-çovğunlu şaxtada üzü meşələrə doğru üz tutsalar da, ölənlərin sayı hesabı yox idi. İnsanlar ah-nalə edir, Xocalı deyə göz yaşı tökərək bayatı deyirdilər:

Eləmi, ay Xocalı,
Oldun başı bəlalı,
Düşmən soyqırım etdi,
Viran oldun Xocalı.

xxx

Ağlaram öz günümə,
Gülərəm öz günümə.
Fələh əlimə düşsə,
Salaram öz günümə.

Xocalı soyqırımı bəşər tarixində Alman faşistləri tərəfindən baş vermiş ikinci dünya müharibəsindəki Xatın(Belorusiya) soyqırımından qat-qat dəhşətli idi. Günahsız insanların dərisini soymaq, gözlərini oymaq, süngüdən keçirmək, hamilə qadınların bətnindəki, hələ dünyaya göz açıb erməni vəhşiliyini görmədiyi halda süngülərlə deşik-deşik edilən körpəciklər, gəlin-qızların təhqir edilmələri insanlığa sığmayan vəhşilikləridi. Erməni cəlladları Araz boyu yaşayış məntəqələrinin əhalisini də hər tərəfdən mühasirəyə almaqla, yeni Xocalı soyqırımlarını törətmək istəyirdilər. O zaman Xalq cəbhəsi və Müsavat deputat nümayəndələrinin hərc-mərcliyə əsaslanan çıxışlarından uzaqlaşaraq doğma Naxçıvanına dönən və sonradan Naxçıvan xalqı tərəfindən Naxçıvan Milli Məclisinin Sədri seçilən, eyni zamanda Azərbaycan Bayrağını Dövlət rəmzi kimi Naxçıvanda qaldıran H.Əliyev xilaskarlıq missiyasını həyata keçirərək xalqın yeni Xocalı soyqırımına məruz qalmasının qarşısını aldı. İran rəhbərliyinə etdiyi xahişi və İran hökumətinin razılığı ilə, qanlı müharibələrin şahidi olan, tarixi ayrılığa dözməyərək təlatümlə aşıb-coşan Araz çayının, aşıb-daşan təlatümü sakitləşdirildikdən sonra, əhali Araz çayı sərhədini kecib, tarixi doğma torpaqlarına "qonaq"kimi daxil olaraq soyqırımdan xilas ola bildilər. Araz çayının o tayından ayrı düşdükləri el- obalarını həsrətlə yad edənlər, ah-naləli bayatılarını deyərək, ayrılıq göz yaşlarını tökürdülər:

Araz da axar qaldı,
Tərlan uçdu, sar qaldı.
Elimdən ayrı düşdüm,
Gözlərim axar qaldı.

xxx

Əzizinəm Sobudu,
Dərdə çarə su budu.
Ürəyimdə sızlayan,
Qanlı simim Sobudu.

xxx

Əzizinəm, can Bartaz,
Yayı, yaz olan Bartaz.
Düşmən sənə zülm etdi,
Yağıya qalan Bartaz.

xxx

Əzizinəm, Ağbənddi,
Aranlar dağa bənddi.
Sərvəti yada qalıb,
Girov olan Ağbənddi.

xxx

Günəş quruba qaldı,
Yurd qaldı, oba qaldı.
Çıxdıx evlərimizdən,
Kənddər xaraba qaldı.

Bütün Qarabağın dinc Azərbaycan əhalisini öz doğma torpaqlarından silah gücünə qovan erməni quldur dəstələri, tək Dağlıq Qarabağı deyil, bütöv Qarabağı, hava-

darlarının köməyi ilə ələ keçirir, insanları doğma yurdlarından didərgin salırdılar. İndiki halda, dağlıq Qarabağ deyil, bütöv dağlı-aranlı Qarabağ işğala məruz qalmış, viran olmuşdu:

Əzizinəm, quşam mən,
Qəfil dərdə tuşam mən.
Şuşasız, Kəlbəcərsiz,
Bir qanadsız quşam mən.

Cavanlarımız Qarabağ yolunda canlarını düşmənə sipər etmişdilər:

Əzizinəm Qarabağ,
Qarabağda qara bax.
Cavanlar şəhid oldu,
Qana döndü Qarabağ.

Bütün bunlar demokratiyadan dəm vuran ölkələrin biganəliyi, bu vəhşiliklərə göz yumanların gözü önündə baş verirdi. Bəli, Azərbaycan torpaqlarının işğalı və əhalisinin soyqırıma məruz qalması Qafqaza ayaq basdıqları gündən, bu günə qədər erməni qaniçənlərin havadarlarına arxalanaraq mütamadi olaraq törətdikləri vəhşiliklərin davamı idi. Ermənilərin işğal dairəsinin genişlənməsi Azərbaycan hökumətinin səriştəsizliyindən, nizami ordunun olmamasından irəli gəlirdi. Qarabağı itirən

xalq, qəhrəmanlığı ilə seçilən keçmiş tariximizə bələd olduğundan, geriyə Qarabağa qayıdış gününə inanırdı:

Kədərriyih hamımız,
Həm oğlumuz, qızımız.
Yenə bizim olacax,
Doğma Qarabağımız.

Xalq, ümidini yeganə xilaskar olacaq H. Əliyevə bağlayıb:-"Heydər baba bizi bu bəlada xilas et! -deyə müraciət ünvanladı. Xalqın səsinə biganə qalmayan H. Əliyev hakimiyyətə dəvət olunduğu gündən ölkənin daxili sabitliyini təmin etməklə bərabər, genişmiqyaslı səfərbərlik elan edərək ordunu hərbi silahlarla komplektləşdirib, parakəndə ordunu nizami orduya çevirərək, 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində Füzuli rayonunun 20 Arazboyu kəndini, strateji əhəmiyyət kəsb edən Horadiz qəsəbəsini və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini erməni işğalçılarından azad etdi. Bu qələbədən ruhlanan xalq, H. Əliyevin sərkərdəlik məharətini görərək düşmənə qarşı mübarizədə qələbələr qazanmış oldu. Onu da demək lazımdır ki, Horadiz əməliyyatı hərb tarixinin qürurverici qələbəsidir. H.Əliyevin rəhbərliyi nəticəsində Horadiz əməliyyatı zamanı düşmən xeyli canlı qüvvə, həbi texnika itirərək döyüş qabiliyyəti məhv edildiyi kimi, mənən də sındırıldı. Döyüşlərdə ağır itgilər verən düşmən atəşkəsi dayandırmağa məcbur oldu və

1994-cü ilin mayında Bişkek protokolu imzalandı. Beləliklə, erməni işğalçıları havadarları olan ermənipərəst güc dövlətlərinin köməyi ilə Azərbaycan torpaqlarında ikinci gondarma erməni dövlətini, Dağlıq Qarabağ Respublikasını yaratmaqla bərabər, Dağlıq Qarabağa aidiyyatı olmayan yeddi rayonu da işğal altında saxlamaqla, bir milyona yaxın Azərbaycan əhalisinin öz doğma torpaqlarından məcburi qovularaq köçkün yaşamasına səbəb oldular. 1-ci Qarbağ müharibəsi adlanan bu müharibədə Azərbaycanın 4, 400 min km kv. ərazisi erməni işğalçıları tərəfindən zəbt edildi.Ağdam-1154 km kv, Cəbrayı-l 1049 km kv, Qubadlı-802 km kv, Laçın-1835 km.kv, Kəlbəcər-3054 km kv, Füzuli 1386 km.kv, Zəngilan-707 km kv.Bununla bərabər Azərbaycanın ərazisi olan və Dağlıq Qarabağ Muxtar vilayətinə tabeçiliyi olan Xankəndi, Ağdərə, Xocavənd, Xocalı, ŞuşaƏsgəran, Hadrut və s. kimi yaşayış məntəqələri Azərbaycandan qoparılmışdı. Xalqımız bu müharibədə 20 mindən çox şəhid verdi, 50 mindən çox insan əlil oldu, 4861 nəfər qocalı, qadınlı, uşaqlı, cavanlı mülki və hərbi insanlar əsir və girov götürüldü. Bütün tarix boyu Azərbaycan torpaqlarını zəbt edib, şəhər, kənd tarixi Azərbaycan adlarını, - Qarakilsə-Sisyan, Basarkeçər-Vardenis, Qəmərli-Artaşat, Vedi-Ararat, Zəngibasar-Masis, Karvansaray-İcevan, Mehri-Meğri, Hamamlı-Spitak, Çəmbərək-Krasnoselsk, Şəmsəddin-Berd, İrəvan-Erevan və s. kimi dəyişdirən erməni millətçiləri, indi də işğal etdiyi Qarabağ şəhər və rayonlarının adlarını erməniləşdirirdilər.Laçın-Berdzor, Ağ-

dam-Akna, Qubadlı-Sanasar, Cəbrayıl-Krakan, Füzuli-Varanda, Zəngilan-Kovsakan, Şuşa-Şuşi və s.toponim dəyişikliklər aparmaqla saxta erməni tarixini yaratmaqla məşğul olurdular. Dini abidələrimizi məhv edir, ermənilərə aidiyyatı olmayan və tarixi Azərbaycan ərazisində yerləşən Alban monastrlarını erməniləşdirirdilər. Ermənilərin yaratmaq istədiyi saxta tarix dünya ictimaiyyətinin gözü qarşısında baş verirdi.

Nəhayət ki, dünyada baş verən münaqişələrə təhlükəsizlik nöqteyi nəzərindən yanaşan və təhlükəsizlik məqsələri üçün yaranmış Birləşmiş Millətlər Təşkilatının baş vermiş münaqişəyə qiymət verməsi gündəmə gəlmiş oldu. Erməni quldurlarının işğalçılıq siyasətinə qarşı BMT-nin Təhlükəsizlik Şurasının 1993-ci il ərzində qəbul etdiyi dörd qətnaməsi(822, 853, 874, 884), erməni hərbi qüvvələrinin Azərbaycan torpaqlarından heç bir şərt irəli sürmədən çıxmasını tələb etməsi vaxtında verilmiş düzgün qərar oldu.Lakin, havadarlarına arxalanan erməni faşistləri bu qətnamələrin tələblərini yerinə yetiməkdən vaz keçirlər.

Bu dövrdə əvvəlki səriştəsiz hökumətdən miras qalan dağılmış iqtisadiyyatı qaldırmaq, insanların sosial rifahını yüksəltmək üçün böyük quruculuq işlərinə başlayan H. Əliyev ölkəmizi dünya miqyasında tanıtdıraraq , geniş iqtisadi imkanlarımızı dünyaya bəyan edərək, ölkəmizin stabil iqtisadi inkişafına səbəb olacaq 1994-cü il 20 sentyabr tarixində "əsrin kontraktı" kimi tarixə düşən neft kontraktlarının bağlanmasına müvəffəq oldu. İstər

çar Rusiyası dövründə, istərsə də Sovet dönəmində Bakı neftini çapıb talayan yadellilərin neft hökmranlığına son qoyuldu. Allahımızın xalqımıza payı olan neft ölkəmizin qüdrətlənməsinə yönəlmiş oldu. Təsadüfi deyildi ki, neftin bərəkəti bayatılarimızda da, tərənnüm olunmağa başladı:

Əzizinəm, ay Bakı,
Sənə yoxdu tay Bakı.
"Qara qızıl" xudadan,
Şöhrətinə pay Bakı.

Ölkəmizdə quruculuq işləri getdiyi bir zamanda erməni vandalları işğal etdikləri ərazilərdə öz keçmiş nacins xislətlərinə uyğun olaraq, xalqımızın tarixi, mədəni , dini abidələrini dağıdır, saxtalaşdırır, şəhər və kənd adlarını dəyişdirərək iyrənc erməni adları qoyur, coğrafi toponimlərə ermənilərə məxsus adlar verir, ekoloji dağıntılar yaradır, dünyaya səpələnmiş qaraçı-dilənçi erməniləri ərazimizə yerləşdirir və bütün bunlar azmış kimi qondarma Dağlıq Qarabağ Respublikasını beynəlxalq qurumlarda tanıtdırmaq üçün fəaliyyət də aparırdılar. Bir çox beynəlxalq problemlər BMT TŞ-ı tərəfindən yerindəcə çözüldüyü halda, BMT TŞ-na üzv olan islamafob ölkələr nədənsə Azərbaycanın haqq səsinə biganə yanaşıb Qarabağ məsələsini çözməyə tələsmirdilər. 1995-ci ilin martında yaranmış(həm də BMT-yə qəbul olunub)Avropa Tənlükəsizlik və Əməkdaşlıq Təşkilatı 12 dövləti özündə üzv kimi birləşdirsə də, erməni işğalının

qarşısını ala biləcək təsirli tədbirlər görə bilmədi. Hələ müharibə gedişi dövründə Azərbaycan-Ermənistan Dağlıq Qarabağ konfliktini çözmək üçün yaradılmış olan Minsk qrupu da təsirli bir iş görə bilməmişdi. 1996-cı ilin dekabrında ATƏT-in Lissabon samitində Azərbaycan-Ermənistan Dğlıq Qarabağ konflikti məsələsində H. Əliyevin qətiyyətli səyi nəticəsində 53 dövlət Azərbaycanın haqlı mövqeyini müdafiə edib, Dağlıq Qarabağ haqqında bir neçə sənəd paketi qəbul etmişdi.Lakin, sonrakı ATƏT –in Minsk görüşlərindən nəticə çıxaran uzaqgörən siyasi xadim H. Əliyev belə bir qənaətə gəlmişdi ki, "bunlar(ATƏT-in Minsk qrupu üzvləri) Dağlıq Qarabağa müstəqilliyə yaxın bir status verməklə məsələni həll etmək, yaxud da tanınan müstəqillik vermək istəyirlər. Minsk qrupunun bütün təkliflərindən bu görünür, başqa bir şey yox. Biz də buna razı olmamışıq və razı ola bilmərik. "Uzaqgörən lider siyasətçi çox gözəl başa düşürdü ki, yüz illiklər ərzində torpaqlarımızı Rus himayədarlarının səyi nəticəsində qarış-qarış zəbt edən erməni şovinistləri, bütün zəbt etdikləri ərazilərdə Azərbaycan tarixini əks etdirəcək həqiqətləri yerli-köklü silərək, saxta erməni tarixi yaradıb öz ermənipərəstlərini bu uydurma tarixə inandırmışlar.Bu saxta tarixi mərkəzləşmiş dövlət olan SSRİ təsdiq edərək yaymış və "Sovet xalqı" bu uydurma erməni tarixini əxz etmişdi.Xalq şairimiz B.Vahabzadənin bu barədə yazmış olduğu şeir çox diqqətəlayiqdir:

Tariximiz danıldı
Uydurma tarix ilə kimliyimiz anıldı
Öz kökünü bilməyən gözü küllü bir millət
Zamanın yollarında hər addımda yanıldı
Uydurma tarix bizi anamızdan ayırıb,
Yad anadan alınmış bələkdə qundaqladı
Özülümüz laxladı.
Bu xalqın tarixini düz bildirən, düz yazan
Tarix kitablarında hörümçək tor bağladı.
Cəsur keçmişimizdən, üzüldü əllərimiz
Şərəf bildik özgəyə qul olmağı yoxsa biz?
Hər cürə zülmü udduq
Köləliyi qazanıb, kişiliyi unutduq.
Vicdan, düzlük, həqiqət sürgün oldu bu yerdən
Yaltaqlıq və xəyanət silahını yağladı
Cəsarət qılıncının ağzı düşdü kəsərdən
Qəbzəsində, qınında hörümçək tor bağladı.
Dilimiz yasaq oldu
Ruhumuz qəlbimizdə əbədi dustaq oldu.
Ruhsuz yaşadıqca biz
Vicdanımız, eşqimiz üzümüzə ağ oldu.
Biz beləcə yaşadıq, yaşamadıq süründük,
Ruhumuz qan ağladı
Məscid qapılarında hörümçək tor bağladı.

1997 –ci il ATƏT-in Minsk qrupuna həmsədr qismində ABŞ, Rusiya, Fransa başçılıq edərək Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün baza prinsiplərini

qəbul etsələr də, yekun olaraq qəbul edirdilər ki, münaqişənin hərb yolla variantı yoxdur, yalnız baza prinsipləri əsasında sülh variantı mümkündür.Qəbul edilmiş baza prinsipləri, yenilənmiş Mardrid prinsipləri ilə eynilik təşkil edərək aşağıdakıları nəzərdə tuturdu:

-Dağlıq Qarabağ ətrafındakı ərazilərin Azərbaycana qaytarılması;

-Dağlıq Qarabağa onun təhlükəsizliyini və özünüidarəetdirilməsini təmin edəcək müvəqqəti statusun verilməsi;

-Ermənistan və dağlıq Qarabağ arasında dəhlizin yaradılması;

-Dağlıq Qarabağın yekun statusunun hüquqi öhdəlik yaradan öz iradəsinin idarəetmə yolu ilə müəyyənləşdirilməsi;

-Bütün məcburi köçkün və qaçqınların öz əvvəlki yaşayış yerlərinə qaytarılması;

-Sülhməramlı əməliyyat da daxil olmaqla, beynəlxalq təhlükəsizlik təminatları.

Göründüyü kimi, baza prinsiplərində Dağlıq Qarabağ ətrafındakı yeddi rayonun Azərbaycana qaytarılması, köçkünlərin doğma torpaqlarına qayıtması, Dağlıq Qarabağa status verilməklə özünüidarə sisteminin müəyyənlişdirilməsi, Dağlıq Qarabağla Ermənistan arasında dəhlizin yaradılması və benəlxalq təhlükəsizliyin təminatçısı olacaq sülhməramlıların yerləşdirilməsi nəzərdə tuturdu. Bu prinsiplər içərisində dördüncü bənddə Dağlıq Qarabağa status verilməklə özünüidarə sisteminin müəy-

yənləşdirilməsi referendum(səsvermə) yolu ilə müəyyən olunacaqdı ki, monoetnik erməniləşmə aparmış Dağlıq Qarabağ erməniləri üçün, müstəqillik rəvacı verə bilərdi. Bu isə Azərbaycanın müstəqilliyinə zərbə demək idi. Əslində, hiyləgər Ermənistan rəhbərliyi Dağlıq Qarabağ ətrafındakı zəbt etdikləri rayonları "bufer zonası" olaraq özününküləşmə və məskunlaşma apardıqlarından Azərbaycana geri qaytarmaq fikrində belə olmadıqlarından, hər dəfə pozuculuq işlərinə rəvac verməklə danışıqlar prosesini əngəlləməkdə qərarlı olurdular. Ermənistanın ən ali məqsədi Dağlıq Qarabağın müstəqilliyinə nail olmaqla bərabər, bacardıqca zəbt edilmiş rayonlarda tarixi Azərbaycan izlərini itirib məskunlaşma aparmaqla, daha çox torpaqlar əldə etmək idi. Ermənistanın belə bir məqsədi Avropa İttifaqının, Avropa Şurası Parlament Assambleyasının Azərbaycana qarşı apardıqları əsassız qarayaxmalardan, ATƏT-in Minsk qrupunun ermənipərəst olmalarından irəli gəlirdi. Minsk Qrupunun həmsədrləri isə öz vəzifə işlərini bölgələrə səfər etməkdə, gözdən pərdə asacaq monitorinq aparmaqda , yaranmış status kvonun qorunmasına xidmət etməkdə və yaranacaq hərbi münaqişəni sülh yolu ilə tənzimləməkdə görürdülər. Azərbaycan xalqı Avropa qurumlarının gözdən pərdə asan, seyirçi xarakter daşıyan monitorinq "ekskursiyalarından" bezmişdilər. Xalq arasında bu mənasız beynəlxalq qurumlar "səyahətçilər" adlandırıldıqlarından, onların bu mənasız qurumlarının fəaliyyəti bayatıda da əks olunurdu.

Əzizim, AŞPA, ATƏT,
Minski qrupu bir alət.
Gəlirlər, göz yumurlar,
Seyrçilik olub adət.

Bütün beynəlxalq qurumların münaqişəyə olan laqeydsizliyi, həmsədrlərin ermənipərəst fəaliyyətləri isə Ermənistan, Dağlıq Qarabağ quldur hakimiyyətini qane edirdi. Avropa ölkələri, o cümlədən həmsədrlər çox gözəl başa düşürdülər ki, keçmiş SSRİ dövlətinin Respublikaları olan Ermənistan və Azərnbaycanın Rusiya dövləti ilə bağlılığı var və Rusiya regionda baş verə biləcək münaqişəni tənziməyəcək yeganə həmsədrdir. Avropalılar və həmsədrlər Moskvanın Ermənistan-Azərbaycan münaqişəsində tənzimləyici olmasını nəzərə alıb belə bir fikirə gəlirdilər ki, ″münaqişənin həllinin açarı Kremlin cibindədir.″Bəli, vaxtilə bu fikirin əsasını, antislam və antitürk tərbiyəsi alıb, Avropalılara Üçkilsə katolikoslarının yazdıqları "əzabkeş" erməni millətinin qeyri dinçilərin əsarətindən qurtulmaq məktub-müraciətləri ilə yola düşən İzrael Oriyə Avropalıların verdiyi cavabda görmək olar: "Əlimizdə ermənilərin müsəlmanlardan zülm gördükləri və buna görə onlardan ayrı yaşamaq istəmələri barədə yazılı bir sənəd olmadığı üçün sizə yardım edə bilmərik. Bu işdə sizə ən yaxşı Rusiya yardım edə bilər."
Məhz, Rus çarı 1-ci Pyotrun erməni din qardaşlarına kömək üçün söz verməsi və bu qayğını xüsusi fərmanla təsdiq etməsi, 300 il müddətində Azərbaycan torpaqları-

nın hissə-hissə parçalanmasına gətirib çıxartmadımı?! Rusiya çarizmi dövründən və Sovet dönəmindən bu günə kimi parçalanaraq yadelli dövlətlər arasında bölünən Azərbaycan torpaqlarından xəbərdar olan bu günkü Avropalılar, Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənmə açarının Moskvada olmasını mesaj etməklə, "açar" mifini yaratmaları boş-boşuna deyildimi?!

ATƏT-in Minsk qrupunun həmsədrlərindən olan Rusiya nəyə görə Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsində maraqlı deyildi. Əslində, Moskva yaranmış status kvonu saxlamaqla, dövlət marağı xatirinə bu münaqişədən hər iki dövlətə təzyiq kimi istifadə edirdi. Eyni zamanda, Azərbaycanın müstəqil siyasət aparması, qərb ölkələri ilə enerji və loqistika layihələrini həyata keçirməsi, böyük siyasətçi H. Əliyevin "bir millət iki dövlət" devizinə rəğmən NATO üzvü olan Türkiyə ilə qardaşlıq münasibətlərini qurması, heç bir hərbi bloklara qoşulmaması, əlbəətə ki, Rusiyanın ürəyincə deyildi. Rusiya çox istərdi ki, Azərbaycanı öz maraq dairəsində saxlamaqla, özünün nəhəng inteqrasiya layihələrinə yeni nəfəs versin, yaratmış olduğu Avrasiya iqtisadi və KTMT hərbi bloka Azərbaycanı üzv etsin. Ermənistan isə, çar Rusiyasının müsəlman ölkələri əhatəsində, Azərbaycanın tarixi torpaqlarında yaratdığı "xristiyan dayaq nöqtəsi" olduğundan, bu günkü Rusiya dövləti üçün forpost rolunu oynayırdı. Məhz bu forpostluğun nəticəsidir ki, Ermənistana 1-c- Pyotrdan qalma vəsiyyətə uyğun olan qayğı göstərilir, təmənnasız iqtisadi, siya-

si, hərbi güzəştlər həyata keçirilirdi. Elə bu nöqteyi nəzərdən də, 2002-ci ildə Moskvada ermənilərin təsis qurultayında iştirak edən prezident V.V.Putin ermənilərə olan mehribançılığı 1-ci Pyotrun fərmanından irəli gələn "qayğı" ilə başlayır:"Erməniləri olduqca əzizləmək və onların Rusiyaya gəlişinə şərait yaratmaq lazımdır. " Artıq o vaxtdan 300 il keçmişdir. Deyilib və yerinə yetirilib. Ermənilərin sürəkli alğışları ilə qeyd olunan bu çıxışın mənasını erməni "ağıllıları" anladılarmı? Əslində, V.V.Putin ermənilərə demək istəyirdi ki, sizin, dövlət olaraq varlığınızın səbəbkarı Rusiyadır.

Görəsən bu erməni "ağıllıları"anladılarmı ki, onların "qədim dövlət", "Böyük Ermənistan" xülyaları qondarma erməni tarixçilərinin yalanlar üstündə qurduğu "qədimilikdən"başqa bir şey deyil!?

Görəsən bu"ağıllı"ermənilər anladılarmı ki, erməni tarixi 16-cı əsrin axırlarında eşidilmə ərəfəsində olduğu halda, 17-ci əsrin əvvəllərində onların Rusiya Çarına müracət-məktublarından və Rusiya himayədarlığından sonra başlayır?!

Bu tarixi həqiqətə erməni tarixçisi F.Ekozyantsın "İsrael Ori.Larets Pandorı"kitabında da rast gəlmək olar. Kitabda qeyd edilir ki, 16-cı əsrdə Ermənistan demək olar ki, fiziki-coğrafi bölgə kimi yada düşürdü.17-ci əsrdə Avropa missionerlərinin Türkiyə və Fars diyarlarına olan səyahətləri nəticəsində erməni sözü yeni bir fikir yaratdı.

Erməni tarixinə müraciət edən, tarixçi F.Ekozyantsın "Vestnik Kafkaza"studiyasında dediyi fikir isə daha də-

qiqliyi ilə diqqəti cəlb etmiş olur:"Erməni məsələsində "birinci bombanı" İsrael Ori qoymuşdur."

2003-cü ildə prezident seçkilərində qələbə qazanan İ. Əliyev prezidentlik fəaliyyətinə qədəm qoyduğu gündən Azərbaycan hökumətinin bir nömrəli vəzifəsi olan Dağlıq Qarabağ problemi ilə ardıcıl və prinsipial məşğul olmağa başladı. Bütün beynəlxalq təşkilatlarda ərazi bütövlüyümüzə illərlə əngəl olan Dağlıq Qarabağ münaqişəsini ortaya qoymaqla, dünya ictimaiyyəti qarşısında əsil həqiqəti açıqlayır, beynəlxalq tribunalarda haqq işimizdən danışaraq Azərbaycanı bir dövlət olaraq imicini qaldırırdı. Prezident İ. Əliyevin rəhbərliyi ilə, Dağlıq Qarabağ məsələsi BMT Baş Assambleyasına çıxardıldı. Avropa Şurasında parlament nümayəndə heyətinə rəhbərliyi dövründə ərazi bütövlüyümüzün tanınması, Ermənistanın şovinist və işğalçı siyasəti açıqlanmış oldu. 2004-cü ildə beynəlxal tribunalarda çıxış edən İ. Əliyev Ermənistanı işğalçı dövlət, Dağlıq Qarabağı isə, separatçı-terror rejim kimi dünyaya tanıtdırdı. 2005-ci ilin yanvarında Qarabağ ərazisində mənşəyi məlum olmayan ermənilərin məskunlaşdırılmasını müəyyən edəcək faktaraşdırıcı missiyasının fəaliyyətə başlaması İ.Əliyevin rəhbərliyi nəticəsində Azərbaycan xarici siyasətinin uğuru idi. 2007-ci il oktyabrın 31-də prezident seçkilərində andiçmə nərasimi zamanı İ. Əliyev demişdir:

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir. Uzun illərdir ki, biz atəşkəs rejimində yaşayırıq. Təəssüflər olsun ki, məsələ

ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyəti hələlik heç bir nəticə vermir. Biz hələ də ümidlərimizi itirmirik... Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir. ”

Prezident İ. Əliyev uğurlu xarici siyasəti ilə bərabər, Azərbaycan dövlətinin iqtisadi, siyasi, hərbi cəhətdən güclü dövlətə çevirmək üçün, ardıcıl islahatlar apararaq, ölkəmizi dünya miqyasında tanıtdırırdı. İ.Əliyev, əsası böyük rəhbər H. Əliyev tərəfindən qoyulmuş enerji strategiyası olan, əsrin neft kontraktını inkişaf etdirərək, Bakı-Tiflis-Qars nəqliyyat dəhlizini genişləndirməklə bərabər, cənub qaz dəhlizinin tərkib hissələri olan TANAP, TAP layihələrini həyata keçirməklə enerji birliyini yaratmış oldu.Təssəvvür etmək lazımdır ki, bizim ölkəmiz qaz istehlakçısı olduğu halda, gərgin elmi axtarışlar nəticəsində qaz istehsalçısına çevrildik. Artıq istehsalçı olaraq qaz layihələri olan TANAP, TAP kimi dünyanı hetrətə gətirəcək layihələrə imza atırdıq. Azərbaycan Prezidenti İ. Əliyevin, qardaş Türkiyə dövlətinin başçısı R. T. Ərdoğanın birgə səyləri, dost Gürcüstan Respublikasının tranzit ölkə olaraq bu səylərə qoşulması enerji layihələrinin və yeni nəqliyyat yollarının açılmasına doğru atılmış addımlar, bu üç dövlətin böyük inkişafa qədəm qoyması demək idi.

Prezident İ. Əliyev ölkəmizi hər bir sahədə inkişaf etdirib dünyada tanıtdırmaq üçün, mədəniyyət, elm, idman sahələrində geniş islahatlara rəvac verməklə böyük uğurlara imza atırdı. İ. Əliyev tərəfindən BMT-nin Baş Assambleyasında Ümumdünya Mədəniyyətlərarası Dialioq Forumunun təşkil edilməsi, YUNESKO, İSESKO Benəlxalq təşkilatları ilə qurulmuş münasibətlər, 2014 -cü ildə Beynəlxalq Multikulturalizm mərkəzinin yaradılması və bunun nəticəsində 2016-cı il Azərbaycanda "Multikulturalizmi ili"-nin qeyd olunması, Azərbaycan mədəniyyət nümayəndələrinin" Erovizion"-da əldə etdiyi qələbələr və Avropa Evrovizion müsaqibəsinin Azərbaycanda keçirilməsi, Beynəlxalq muğam festivalları və digər uğurlar mədəniyyət sahəsində aparılan islahatların təntənəsi idi.

Elm sahəsində 2004-cü ildə Azərbaycan Milli Ensiklopediyası" elmi mərkəzinin yaradılması, Elmin inkişaf fondunun yaradılması, 2018-ci il 9 aprel "Elm günü"-nün təsisi, elmimizin dünyada tanıtdırılması demək idi.

İdman sahəsində İ.Əliyev tərəfindən aparılan islahatların nəticəsi idi ki, dünyada idman ölkəsi kimi tanınan Azərbaycanda, 1-ci Avropa Oyunları, 4-cü İslam Həmrəylik oyunları, 42-ci şahmat olimpiadası ölkəmizdə aparılmışdı.Bütün dünyada humanistliyi və xeyriyyəçiliyi ilə, bir neçə beynəlxalq təşkilatların xoşməramlı səfiri kimi tanınan H.Əliyev fondunun rəhbəri M.Əliyevanın himayədar olduğu yüngül atletika və gimnastika sahəsində

keçirilən möhtəşəm çıxışlar da məhz idman nailiyyətlərimizin nəticəsiydi.

Mədəniyyət, Elm, İdman sahəsindəki uğurlar ölkəmizin dünyada tanınmasına təkan verən amillər sayılırdı.

Dünyanın bütün ölkələri ilə qurulmuş olan siyasi, iqtisadi, mədəni və strateji əlaqələr daim dövlətimizin diqqət mərkəzində olmuşdur. Qardaş Türkiyə ilə, Türkdilli dövlətlərlə olan münasibətlər, eyni zamanda İsrail və Pakistanla olan münasibətlər daim nəzər diqqətində də idi.2004-cü ildə İ. Əliyevin V. Putinlə bağladığı Moskva bəyannaməsi Azərbaycanla Rusiya münasibətlərində strateji müttəfiq səviyyəsinə yüksəlmiş oldu. İ. Əliyev böyük qonşumuz, Rusiya dövləti ilə olan münasibətlərə geniş imkan verirdi. Ölkəmizdə rusdilli təhsil ocaqlarının genişləndirilməsi müsbət amil kimi qiymətləndirilirdi.

Əsası, H. Əliyev tərəfindən "əsrin kontraktı"adlanan neft müqavilələri ilə qoyulmuş Azərbaycan- ABŞ dostluq münasibətləri, prezident İ. Əliyev tərəfindən davam etdirilmişdir. 2006-cı ildə neft və qaz sənayesi, regional və qlobal enerji təhlükəsizliyi, nəqliyyat və s. kimi beynəlxalq əhəmiyyətli məsələlərin ABŞ prezidenti C. Buşla müzakirə etməsi, 2010-cu ildə BMT Baş Assambleyasının 65-ci sessiyasında prezident B. Obama ilə görüşü, 2016-cı ildə Nüvə təhlükəsizliyi sammiti çərçivəsində ABŞ vitse prezidenti Co Baydenlə ikitərəfli münasibətləri müzakirə etməsi, 2017-ci ildə BMT Baş Assambleyasının 72-ci sessiyasında D. Trampla görüşü Amerika-Azərbay-

can ikitərəfli münasibətlərinin yüksək inkişaf göstəricisi idi.

Bu illər ərzində NATO Beynəlxalq hərbi təşkilatı ilə qurulan münasibətlər, Azərbaycanın fərdi tərəfdaşlıq üzrə Fəaliyyət Planına qoşulması, sülhməramlı olaraq bu təşkilatın çərçivəsindəki iştirakı, bu təşkilatın rəhbərləri ilə prezident İ. Əliyevin cənubi Qafqaz regionunda təhlükəsizlik məsələlərini müzakirə etməsi Azərbaycan-NATO əlaqələrinin inkişafı demək idi.

Beynəlxalq qurum olan İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın xarici siyasətində önəmli yer tutur. 2005-ci ildən başlayaraq İƏT təşkilatının rəhbərləri ilə mütamadi görüşlər keçirən prezident İ. Əliyev bu təşkilatda Azərbaycanın nüfuzunu elə yüksəltdi ki, 2008-ci ildə Bakı, 2018-ci ildə isə Naxçıvan İslam mədəniyyətinin paytaxtı kimi seçildilər.

Əsas məqsədi behəlxaq hüquqa hörmət əsasında, dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan Qoşulmama Hərəkatı ilə qurulan münasibətlər siyasi uzaqgörənliyin nəticəsi idi. Belə ki, BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından yüksək aktuallığı ilə seçilən bu təşkilat dünyanın 120 dövlətini özündə üzv, yaxud müşahidəçi qismində birləşdirən nüfuzlu bir qurum idi. Əsas qayəsi, heç bir hərbi bloka qoşulmamaqdan ibarət olan Azərbaycan, prezident İ. Əliyevin rəhbərliyi altında 2011-ci ildə bu btəşkilata ölkəmiz üzv olmuş və Qoşulmama Hərəkatının etimadını qazanaraq, 2019-cu ildən növbəti üç il ərzində

bu mötəbər quruma sədrlik etmək hüququ qazanmışdır. Göründüyü kimi bir çox dövlətlər və beynəlxalq təşkilatlarla qurulan düzgün münasibətlər Azərbaycan dövlətinin, İ. Əliyevin rəhbərliyi ilə aparılan xarici siyasətin balanslaşdırılmış olmasının təzahürü kimi qiymətləndirilirdi. Bütün dövlətlərlə və beynəlxalq qurumlarla olan münasibətlərdə Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin əsil mahiyyəti beynəlxalq ictimaiyyətin geniş dairəsinə aşılanmış, bu müqabildə münaqişənin tənzimlənməsində uğurlu dəstəklər əldə edilmiş, Azərbaycanın ərazi bütövlüyü qəbul edilmiş sənədlər paketində öz əksini tapmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın apardığı humanistliyə, sülhə əsalanan xarici siyasətinə əhəmiyyət verməyən Ermənistan və qondarma, tanınmamış Dağlıq Qarabağ Respublikasının hərbi-terrorist qurumu öz işğalçılıq niyyətlərindən vaz keçmək niyyətində deyildilər. Ermənilər 90-cı illərdə zəbt etdikləri torpaqlarda hələ də "məğlubedilməz ordu"mifi ilə yaşayır və ermənipərəst havadarlarına arxalanaraq Azərbaycana qarşı müxtəlif təxribatlar törətməklə bərabər, anti Azərbaycan fikirlərindən əl çəkmirdilər. Ermənistan rəhbərlərinin bir ucu Ter-Petrosyandan tutmuş, Köçəryan-Sərkisyan cütlüyünə qədər olan rəhbərləri Azərbaycana xalqına qarşı nifrətlərini açıqcasına söyləmələri, onların məkrli və şovinist olmalarına dəlalət edirdi.

Xocalı soyqırımının baiskarlarından olan Köçəryanın dediyi, -Erməni və Azərbaycan xalqlarının genetik ola-

raq bir yerdə yaşaya bilməyəcəkləri fikri qatı millətçiliyin təzahürü deyilmi?!

Yaxud, digər bir Xocalı soyqırımının cəlladlarından olan Sərkisyanın BMT-nin Ali tribunasındam demiş olduğu: "Azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə divan tutmazlar, ancaq biz bu stereotipi həmişəlik məhv edərək, dinc əhaliyə divan tutmuş olduq", sarsaq bəyənatı, qəddarlığın, vəhşiliyin göstəricisi deyildimi?!

Necə olur ki, demokratiyadan, insan haqqlarından ağız dolusu danışan Avropalılar "baş kəsməyə, göz çıxartmağa, diri-diri dərisi soyulmağa, körpə uşaqların süngüdən keçirilməsinə, hamilə qadınların qarnının doğranmasına, dinc insanların yandırılmasına əsaslanan bu qəddar və vəhşi bəyənatı sakitliklə dinləyirlər?!

Azərbaycanın torpaqları talanır, evlər viran qoyulur, yeraltı-yerüstü sərvətlər oğurlanır, Azərbaycan xalqının varlığını əks etdirən bütün tarixi, mədəni, dini abidələr yer üzündən silinir, təbiətə qarşı ekoloji müharibə aparılır.

Daha nələrdən danışaq sizə, Avropalı demokratlar! Sizcə bir milyona yaxın insanlar dədə -baba torpaqlarından qovularaq, onların çadırlarda, vaqonlarda yaşamasına baxmayaraq, "qaraçı-dilənçi", əsli-kökü bilinməyən ermənilərin bu torpaqlarda məskunlaşmasına göz yummaq demokratiya deməkdirmi?!

Məhz siz ermənipərəstlərin, bilərəkdən haqsızlığa qarşı göz yummalarınız, bu terrorçu Dağlıq Qarabağ rejimini dolayısı yolla silahlandırmağınız, sülh, əmin-

amanlıq, mehriban qonşuluq ideyalarından tarixən uzaq olan bu frig-erməniləri azğınlaşdırmirmı?!

Bütün dünyada haqq carçısı olan Azərbaycan prezidenti İ. Əliyev ölkənin iqtisadiyyatını elə gücləndirirdi ki, bu güclü iqtisadiyyat nəticəsində ordu quruculuğu ön yerdə dayanırdı. Təkcə onu demək kifayətdir ki, ordu quruculuğuna ayrılan büdcə vəsaiti, Ermənistan hökumətinin illik büdcə vəsaitindən dəfələrlə çox olurdu. Havadarlarına arxalanan ermənilər güzəştli silahlar əldə etməklə silahlı təxribatlar törətsəydilər belə, güclü ordusu olan Azərbaycan tərəfindən qətiyyətlə dəf edilə bilərdi.

Azərbaycan dövlətinin prezidenti İ. Əliyevun sülhə əsaslanan balanslaşdırılmış xarici siyasətini, ədalətli mövqeyini beynəlxalq təşkilatlar, beynəlxalq ictimaiyyət müdafiə etsə də, Azərbaycanın dünya miqyasında nüfuz dairəsi genişlənsə də, Ermənistan, Dağlıq Qarabağ xuntası havadarlarına arxalanaraq BMT-nin qəbul etdiyi dörd qətnaməni yerinə yetirmək istəmir, heç bu qətnamələrə əhəmiyyət də vermirdilər. Azərbaycan prezidenti İ. Əliyev beenəlxalq hüquqa əsaslanaraq, bilirdi ki, Dağlıq Qarabağ tarixən Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bütün dünya Azərbaycanı öz sərhədləri daxilində tanımış və sənədlərində hüququ əsas olaraq ərazi bütövlüyünü təsdiq etmişdilər. Lakin, Ermənistan hökuməti başda Sərkisyan olmaqla ermənipərəst havadarlarına arxalanaraq anti Azərbaycan iftira və böhtanları ilə bərabər, qoşunların təmas xəttində silahlı təxribatlar, toq-

quşmalar törətməklə hərbçilərin, dinc əhalinin şəhid olmalarına səbəb olurdular.

2016-cı ilin aprelində baş verən hərbi toqquşma isə, ″dördgünlük müharibə″kimi yaddaşlarımıza həkk olundu. Belə ki, ″məğlubedilməz″ erməni terrorçu hərbi qüvvələri aprelin 1-dən 2-nə keçən gecə bütün təmas xətti boyu hucuma keçərək Azərbaycanın hərbi mövqelərinə və yaşayış məntəqələrinə iri çaplı silah və artilleriyadan istifadə etməklə atəşə tutmuş oldular. Gözlənilməz atəşlər nəticəsində 2 nəfər dinc sakin şəhid oldu və 10 nəfər dinc sakin isə müxtəlif bədən xəsarətləri aldılar. Mülki əhalinin təhlükəsizliyini və ərazi bütövlüyümüzü təmin etmək üçün əks hucuma keçən Azərbaycan ordusu aprel ayının 5-dək Ermənistan silahlı qüvvələrinə məxsus 30 tankı, 15-dək artilleriya qurğularını, möhkəmləndirilmiş mühəndis istehkam qurğularını məhv edib, 320-dən artıq qəsbkar erməni döyüşçüsünü öldürməklə, 500-dən artıq döyüşçüsünü yaraladı. Bununla bərabər əhəmiyyətli yüksəkliklər, o cümlədən strateji yüksəklik olan "Lələ təpə" nəzarətə götürüldü. Öz torpağının təhlükəsizliyini təmin edərək əks-hucuma keçən Azərbaycan ordusu canlı və texnika höqteyi-nəzərindən itgilər versə də, bu ordumuzun haqq və ədalət yolunda olan itgisiydi. Dördgünlük müharibə ermənilərə və onların havadarlarına göstərdi ki, Azərbaycan dövlətinə və onun xalqına qarşı zor tərbiq etmək indiki halda çox gülüncdür. Dördgünlük müharibədən təşvişə düşən ATƏT-in Minsk qrupunun həmsədrləri, o cümlədən tarixi havadar Rusiya hö-

kuməti bu hərbi əməliyyatların dayandırılmasına səbəb oldular.Bu hərbi toqquşmasından məğlubiyyət acısını dadan Xocalı cəlladı S.Sərkisyan hiyləgərliyə əl atıb işğal etdikləri torpaqları qaytaracağı adı ilə, tarixi havadarı Rusiyaya müraciət edib müharibənin dayandırılmasına nail olsa da, erməni xislətlərinə rəğmən verdiyi vədə müxtəlif bəhanələrlə əməl etmədi.Həmişəki kimi, həmsədrlər münaqişənin hərb yolla həll olunmasının mümkünsüzlüyünü qeyd etməklə, status kvonun qoruyub saxlanılmasını əsas bildilər. Əbəs deyildi ki, dördgünlük müharibəyə “qiymət verən” Rusiyanın Baş naziri D. Medvedev, müharibədənsə status kvonun qalmasını məsləhət bilərək, Ermənistan-Azərbaycan xalqları arasında etimadın yaradılması üçün illər lazım olduğunu dilə gətirmişdi. D. Medvedevin bu “ürək yanan” məsləhəti əslində rus çarı 1-ci Pyotrdan qalma “erməni qayğısına”və Rusiyanın cənubi Qafqazdakı maraqlarına xidmət edirdi. Beləliklə, ATƏT-in Minsk qrupu apardığı missiyaya rəğmən öz vəzifələrini yerinə yetirməməklə bərabər, boş və mənasız qurum olduqlarını ortaya qoymuç oldular.

Azərbaycan dövlətinin işğalçı Ermənistanı blokada şəraitində saxlaması, onları beynəlxalq enerji və nəqliyyat layihələrindən kənarlaşdırması nəticəsində, iqtisadi tənəzzül keçirən Ermənistanın yoxsullaşmasına və ermənilərin nəinki Ermənistanı, o cümlədən Dağlıq Qarabağı tərk etmələrinə səbəb yaradırdı. Ermənistanın ölkə daxilində apardığı yarıtmaz sosial yönümlü siyasət, iqtisadi asılılıq siyasəti, xarici siyasətin müharibə ritorikası, xal-

qı hökumətə qarşı üsyana qaldırırdı. Belə vaxtlarda xalqın içərisinə soxulan bəzi populist, üzdəniraq siyasətçilər əsası olmayan xəbərlər söyləməklə, yarıac-yarıtox əhalinin rəğbətini qazanmaqla məşğul olurdular. Belə üzdəniraq siyasətçilərdən biri də, əsassız xəbərlər yayması ilə ("Ermənistan xəbərləri") populistlik qazanan jurnalist N. Paşinyan idi. Yarıtmaz siyasətləri ilə xalqın yaşamını zülmə çevirən R.Köçəryan-S.Sərkisyan dövlət başçılarını düzgün siyasət aparmamaqda tənqidə tutan, sonralar xalqın etimadını qazanıb millət vəkili olan N.Paşinyan Ermənistanın Rusiyaya olan yaxınlığına da qarşı çıxırdı. 2018-ci il aprel ayının əvvəllərində rəhbərlik etdiyi dövləti iqtisadi tənəzzülə sürükləmiş S. Sərkisyan hakimiyyətdə qalmasını təmin edəcək, parlamentdəki öz ətrafı tərəfindən seçilməklə, Baş Nazir postuna yiyələnsə də, xalqın etirazı ilə qarşılaşmış oldu. Xalqın təşkilatlanmamış və kortəbii xarakter daşıyan etirazından sui-istifadə edən N.Paşinyan xalq etirazına rəhbərliyi ələ alıb 23 aprel 2018-cildə xalq kütləsinin tələbi ilə S. Sərkisyanın "istefasına" səbəb olub Baş Nazir postuna yiyələnərək, "Narıncı inqilabın" təzahürü kimi Ermənistana rəhbərlik etməyə başladı.Əslində, hakimiyyət xəstəsi olaraq, onun yerinə göz dikənləri öldürməyə belə hazır olan hiyləgər S.Sərkisyan 2016-cı il aprel Ermənistan-Azərbaycan hərbi toqquşmasında məğlub olub, toqquşmanı dayandırmaq üçün Rusiyaya verdiyi "ərazi qaytarmaq"vədini yerinə yetirə bilməyəcəyini bildiyindən, təzə seçiləni "günaha batırmaq üçün "istefa verməyi lazım bilmişdi. Dağlıq Qa-

rabağ münaqişəsində mürtəce mövqe tutmuş olan Köçəryan-Sərkisyan cütlüyünün yarıtmaz iqtisadi siyasətindən bezmiş, münaqişənin həll olunmasına inamı olmayan erməni xalqı populist N.Paşinyana ümid bağlamışdı. O cümlədən Azərbaycan dövləti, həm də xalq Köçəryan-Sərkisyan cütlüyünün vəhşiləşmiş siyasətinə rəğmən, ″yeni inqilabçıya″ ümidlə yanaşırdı.

Müstəqil Dövlətlər Birliyinin Bişkek sammitində İ. Əliyevlə görüşən "maskalanmış"N. Paşinyan münaqişənin həlli üçün, hakimiyyətdə yerini möhkəmlətməyə vaxt istəmiş və özünü pozitiv bir siyasətçi kimi göstərmişdi. Lakin, çox çəkmədi ki, maskalanmış N. Paşinyanın iç üzü görsənməyə başladı. Əvvəlki, sələflərindən daha mürtəceliyi ilə seçilməyə başlayan N. Paşinyan Dağlıq Qarabağ torpaqlarının Erməni torpaqları olmasını, erməni dövlətçiliyinin qədimiliyini, dönə-dönə təkraralamaqla tarixi saxtakarlığa yol verir, ermənilərin Azərbayycana qarşı terrorçuluğunu, öz müqqədaratlarını təyin etmək uğrunda mübarizə kimi qələmə verməyə çalışırdı. N. Paşinyan mənasız təkliflər irəli sürərək danışıqlar prosesini uzatmağa rəvac verirdi. İş o yerə gəlib çatmışdı ki, Ermənistan-Azərbaycan münaqişəsini, Azərbaycanın Dağlıq Qarabağla olan münaqişəsi kimi irəli sürüb, danışıqlar prosesində Ermənistanın yox, Dağlıq Qarabağla Aqzərbaycanin iştirak etməsini təklif etməyə başladı. Azərbaycan hökuməti N. Paşinyanın bu mənasız və həqiqətə arxalanmayan təklifini qətiyyətlə rədd etmiş oldu. Ermənistan rəhbərinin bu ağılasığmaz

hərəkətləri Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşdirilməsinə yönəlmiş bir addım idi. Məhz bunun nəticəsi idi ki, Ermənistan hökumətinin müdafiə naziri Amerikada olarkən, vətənsiz erməni lobbisi qarşısında belə bir bəyanatla çıxış etmişdi:

"Ermənistan yeni ərazilər uğrunda, yeni müharibəyə hazırlaşır."

Bu bəyanat əslində Ermənistanın təcəvüzkar, işğalçılıq niyyətlərindən irəli gəlirdi. "Məğlubedilməz ordu"eyforiyası ilə yaşayan ermənistan rəhbəri N. Paşinyan, 5 avqust 2019 cu ildə Şuşa şəhərində Dağlıq Qarabağ quldur rejimin nümayəndələri qarşısında çıxış edərkən, münaqişəni kəskinləşdirəcək, "Qarabağ Ermənistandır və nöqtə"-deyərək, danışıqlar prosesini mənasız etdi. 2019-cu il oktyabrın 3-də Rusiyanın Soçi şəhərində Valday beynəlxalq Disskusiya Klubunun 16-cı illik iclasının plenar sessiyasında çıxış edən Azərbaycan prezidenti İ. Əliyev, Ermənistanın Baş Naziri N. Paşinyanın yalan və iftiraya əsalanan "Qarabağ Ermənistandır və nöqtə" bəyanatına cavab verərək demişdir:

-"Birincisi yumşaq desək, bu yalandır. Dünya tərəfindən həm Aran, həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınıb. Ermənistanın özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi."

İ. Əliyevin bu parlaq və cəsarətli çıxışından sonra, artıq beynəlxalq aləmdə nüfuzunun biabırçı vəziyyətə

düşdüyünü hiss edən N. Paşinyan danışıqlar prosesini pozmağa yönəlmiş siyasət yürütməyə başladı. 17 fevral 2020-ci ildə Münxen Təhlükəsizlik Şurasında Azərbaycan prezidenti ilə debutə çıxan və tarixi həqiqətləri saxtalaşdıraraq qondarma erməni tarixindən, Dağlıq Qarabağın erməni torpaqları olmasından dəm vuran N. Paşinyan, prezident İ. Əliyev tərəfindən elmi, tarixi faktlara əsaslanan arqumenti ilə yerinə oturdulmuş və biabırçı vəziyyətə salınmışdı. Azərbaycan xalqının səbir kasasını daşdıran və xalqımızın hissləri ilə oynayan N. Paşinyanın 2020-ci il mayın 21-də Azərbaycanın qədim musiqi beşiyi olan Şuşada qondarma resbublika başçısının andiçmə mərasimində iştirak edərək tarixi Cıdır düzündə, Azərbaycan xalqının Yallı rəqs sədaları altında öz yaxınları, Ermənistanın kilsə cəbbəxanasının katolikosları, bacarıqsız hərbiçiləri, qatı millətçi-yazıçı Z. Balayan kimi üzdəniraq ziyalıları ilə rəqs etdi. Hələ bu azmış kimi, azğınlaşan N. Paşinyan qondarma Respublikanın parlament binasını Şuşaya köçürmək və Şuşanı tanınmamış Dağlıq Qarabağ Respublikasının paytaxtı elan etmək qərarına gəldi.

Bütün bunlarla bərabər ermənipərəst havadarlarına arxalanan, münaqişənin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun birtərəfli mıvqeyindən istifadə edən Ermənistan hökumətinin silahlı qüvvələri 12 iyul 2020-ci ildə atəşkəs rejimini pozaraq Dağlıq Qarabağ münaqişəsinə aidiyyatı olmayan Ermənistan-Azərbaycan dövlət sərhədindəki Tovuz rayonu istiqamətində artilleriya qur-

ğularından və zirehli texnikadan istifadə etməklə hucuma keçdilər. Azərbaycan silahlı qüvvələri əks hucum tədbirləri ilə düşmənin irəliləyişinin qarşısını alaraq, geri oturtsada bu hərbi münaqişə ciddi olaraq iyul ayının 17-nə kimi davam etdi. Erməni silahlı birləşmələri bu müddət ərzində Tovuz rayonunun Dondarquşlu, Ağdam, Əlibəyli, Hacallı və Muncuqlu kəndlərini ağır silahlarla atəşə tutub dağıntılar yaratmaqla bərabər, mülki insanların həlak olmalarına və yaralanmalarına səbəb oldular. Rəşadətli Azərbaycan ordusu əks hucumları ilə düşmənin xeyli hərbi texnikasını və canlı qüvvələrini məhv edərək, onların bir metr belə ərazimizə doğru irəliləməsinə imkan vermədilər. Əsası olmayan bu hərbi təxribat, Ermənistan rəhbərliyinin yeni hucumlarla yeni ərazilər ələ keçirilməsinə dair nəzərdə tutulmuş hərbi konsepsiya olsa da, düşmən məğlubiyyətin acısını dadmışdı. Bu beş günlük müharibədə Azərbaycan silahlı qüvvələrinin 12 hərbi qulluqçusu da qəhrəmanlıqla həlak oldular. Bu beş günlük müharibə zamanı Azərbaycan xalqı və xüsusən gənclər "Qarabağa azadlıq!"-deyərək ayağa qalxıb ordumuza olan həmrəyliklərini, düşmənə qarşı vuruşmağa hazır olmaqlarını bildirmiş oldular. Məğlubiyyətin acısını dadan düşmən güclü ordunu, Azərbaycan xalqının ordu-dövlət birliyinin gücünü hiss etmiş oldu. Bu beş günlük müharibədə ermənipərəst qüvvələr, xüsusən Rusiya dövləti forpostu olan Ermənistana hərbi təyinatlı yüklər daşımağa başladı. Rusiya Qazaxıstan, Türkmənistan və İran hava məkanından istifadə edərək, işğalçı Er-

mənistana təmənnasız olaraq, 400 tondan çox hərbi təyinatlı yüklər daşımış oldu. Azərbaycan hökumətinin Rusiya tərəfindən müəmmalı hərbi yüklər daşımasına olan sorğusu Rusiya müdafiə nazirinin timsalında, bu yüklərin inşaat materiallarının daşınması kimi səciyyələndirildi. Lakin, müdafiə naziri S. Şoyqunun gözdən pərdə asan izahatı, Azərbaycan hökumətinin rəsmiləri tərəfindən inandırıcı olmayan izahat kimi dəyərləndirildi və həqiqətə uyğun olacaq cavab gözlədiklərini qeyd etdilər.

Sual olunur, niyə bu hərbi toqquşma Dağlıq Qarabağ münaqişəsi əhatəsində deyil, münaqişə ərazisindən xeyli aralı olan Ermənistan-Azərbaycan dövlət sərhədində baş vermiş oldu?

2016-cı il aprel döyüşlərindəki erməni məğlubiyyəti ermənipərəst qüvvələri, o cümlədən Rusiyanı bərk narahat edirdi. Bu narahatçılıq iki səbəbdən yaranırdı:

-Birincisi, Azərbaycan hökuməti başda Prezident İ.Əliyev olmaqla, zəbt edilmiş torpaqların azad edilməsində qəti qərarlı olması;

-ikincisi isə, Ermənistan kimi vəhşi və məsuliyyətsiz bir ölkəyə dağıdıcı "İsgəndər"raket sisteminin verilməsi. Bu narahatçılıqla bərabər, İyul 2020-ci il beş günlük hərbi toqquşmasının neft boru kəmərlərinin yaxınlığında baş verməsi, ermənipərəst qüvvələrinin Azərbaycana verdiyi siyasi mesaj idi. Çünki, Azərbaycanın enerji layihələrinin reallaşması, NATO üzvü olan qardaşTürkiyə ilə yaxınlıq, beynəlxalq sahədə Azərbaycan dövlətinin nüfuzunun artması, müstəqil xarici siyasətin aparılması er-

mənipərəstlərin həzm etməməsi ilə izah olunurdu. Rusiya çarı 1-ci Pyotrun dövründən bəri cənubi Qafqazda möhkəmlənən Rusiya, 300-il keçməsinə baxmayaraq yenə də Qafqaz maraqlarından əl çəkməyərək, istər çarizm, istər Sovet dövründə olduğu kimi, Rusiya dövləti dövründə də Qafqaz maraqlarını qorumağa çalışırdı. 300-il bundan qabaq Qafqaza ayaq basan ermənilərə Azərbaycan torpaqlarında dövlət yaradan çar Rusiyası, yaratmış olduğu erməniपərəst dövlət ənənələrinə uyğun olaraq, yenə də Azərbaycan torpaqlarının parçalanması siyasətini davam etdirirdi.

Bu üç yüz ildə yad torpaqları ələ keçirib yerləşdirdiyi erməni millətinin fironluğu xatirinə, torpaqları əldən getmiş digər bir milləti yer üzündən silmək, məhv etmək, hansı humanist maraqlardan doğur mən başa düşə bilmirəm!?

Azərbaycan adlı bir məmləkəti parçalayıb, dörd ölkə ərazisində böldüyünüz bəs deyilmi, erməni havadarları?!

Bu da azmış kimi, Rusiya hökumətinin gözü qarşısında bütün informasiya və mətbuat sahələrini ermənipəstlərin razılığı ilə, ələ keçirmiş olan bu "cırtdan" erməni diasporunun nümayəndələri və onların vicdanları ilə bərabər satılmış olan himayədarları, Azərbaycanın haqq işinə qarşı qarayaxma kompaniyası aparırdılar.Rusiya informasiya məkanını qarayaxmaları ilə gündəlik siyasi oyuna çevirən qatı erməni millətçiləri Baqdasarovları, Simonyanları, Kurginyanları, erməni xislətli olduqlarını nəzərə alsaq, başa düşüləndir.Yaxşı bəs öz milli hissləri-

ni, vicdanları ilə bərabər itirmiş olan Solovyovlar, Zatulinlər, Tolstoylar, Şeyninlər, Azərbaycan- ın haqq işinə qarşı çıxmaqla kimə və nəyə qulluq edirdilər?!

Demək olar ki, Rusiya informasiya sferası Azərbaycanın haqq işinə kolgə salmaqla bərabər, Ermənistan-Azərbaycan münaqişəsi üçün bir növ "bomba" hazırlayırdılar. Havadarlarının ermənipərəst siyasətindən ruhlanan Ermənistan hökuməti yaratdıqları beş günlük iyul hərbi toqquşmasından dərs almayıb, sentyabrın əvvəllərində Azərbaycana qarşı yeni təxribata əl atmış oldular. Belə ki, erməni hərbi qulluqçularının təxribat qrupu, qoşunların təmas xətti zonasında Goranboy rayonu ərazisinə girməyə çalışsalar da, bu da təxribat qrupunun başçısının saxlanılması və əsir götürülməsi ilə nəticələnmiş oldu. Əslində bu təxribat Azərbaycan ərazisində terrorçuluq fəaliyyəti üçün nəzərdə tutulmuş bir akt idi. Bir-birinin ardınca baş verən hərbi toqquşma və təxribatlar vasitəçilik missiyalarını yerinə yetirmək "əzmində"olmayan ATƏT-in Minsk qrupunun gözləri qarşısında baş versə də, müharibə yolu ilə münaqişənin tənzinləməsini qəbul etməyən bu "üzdəniraq qrup"nümayəndələri yenə də status kvonun saxlanmasını vacib sayırdılar. Dünyanın üç böyük dövlətini təmsil edən Minsk qrupu nümayəndələri, həmişəki kimi öz vəzifələrini ancaq monitorinq aparmaqda görürdülər. Dünyanın nəhəng bir təşkilatı olan, münaqişələrin tənzimlənməsi üçün sülhməramlı ordu imkanı olan BMT kimi bir qurumun bu münaqişə ilə əlaqəli dörd qətnamə qəbul edib, erməni hərbi qüvvələrinin işğal

ərazisindən qeyri-şərtsiz çıxmasını tələb edə bilməməsi Azərbaycan xalqında başadüşülməz bir müəmma yaradırdı. BMT-nin və digər beynəlxalq qurumların illərlə davam edən münaqişəyə biganəliyi, yaxud erməni havadarlığı , Ermənistan hökumətinin işğalçılıq siyasətinin daha da azğınlaşmasına səbəb olurdu.Ermənistan rəhbəri N. Paşinyan hərbi toqquşmalara, təxribatlara rəvac verdiyi kimi, sərsəm təkliflər verməyi də unutmurdu. Belə əsassız təkliflərdən biri də yeddi şərt paketi kimi irəli sürülsədə, Azərbaycan prezidenti bu sərsəm yeddi təklifə qarşı bir təklif irəli sürmüşdü: "erməni hərbi birləşmələrinin işğal etdiyi Azərbaycan torpaqlarından dərhal və qeyri-şərtsiz çıxarılması." Azərbaycan prezidenti müharibə eyforiyası ilə yaşayan Ermənistan hökumətinin siyasətinin mənasızlığını tənqid etməklə yanaşı, erməni xalqına, erməni analarına mürazciət edərək deyirdi:

"Erməni əsgərlərinin bizim Azərbaycan torpaqlarında nə işi var?Əgər bu hərbi birləşmələr ərazimizi tərk etməsələr çox peşman olacaqlar."

Ölkəmizə, möhtəşəm ordumuza olan inamımız, hər an millətimizə arxa olacaq Türk qardaşlarımızın hərbi, mənəvi dəstəyini hiss etməyimiz, torpaqlarımızın erməni faşistlərindən azad olunacağına şübhə yaratmırdı. Vaxtı ilə xalqımızı erməni cəlladlarının əlindən qurtarməş Türk qardaşlarımız Ənvər paşa, Nuru paşa xalqımızın hafizəsindən silinməmişdi. Xalq bilirdi ki, onun Türkdən başqa qardaşı yoxdur və bunu da bayatısında tərənnüm edirdi:

Dünyada olma naşı,
Gəl əldən vermə başı,
Özgədən qardaş olmaz,
Türkdü, Türkün qardaşı.

Çox təəssüf ki, yeni torpaqlar acgözlüyü mərəzinə tutulmuş Ermənistan rəhbərliyi ermənipərəst havadarlarına arxalanaraq, ″məğlub edilməz ordu″mifindən ruhlanaraq işğalçılıq siyasətini davam etdirməyi lazım bildi.

27 sentyabr 2020-ci ildə səhər saatlarında Ermənistan silahlı qüvvələri, terrorçu Dağlıq Qarabağ silahlıları ilə bərabər, genişmiqyaslı təxribat törədərək, bütün cəbhə boyu ərazidə yerləşən Azərbaycan ordusu mövqelərinə, o cümlədən mülki insanların yaşayış məntəqələrinə minaatan və artilleriya qurğularından istifadə etməklə hucuma keçdilər. Ermənistan silahlı birləşmələrinin hucumunun qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini qorumaq üçün, Ali Baş komandan İ. Əliyev Azərbaycan xalqının haqq və ədalət uğrunda mübarizəsinə rəğmən "irəli"deyərək, Azərbaycan ordusunu "Dəmir yumruq" əməliyyatına çağırmış oldu. Bu "Dəmir yumruq" həm də xalq, ordu, vətən birliyinin təcəssümü idi. Azərbaycan qoşunlarının bütün cəbhə boyu sürətli əks hucumu və elə ilk müharibə günlərindən bir neçə yaşayış məntəqəsi ilə bərabər, ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən Suqovuşan kəndinin azad etməsi Ermənistan ordusunun "məğlubedilməz ordu"mifinin çürüklüyünü göstərmiş oldu. Suqovuşanın erməni işğalçılarından azad edilməsi,

şah Nadirin ruhunun şad olması demək idi. Əsgərlərimizin Suqovuşanı azad etməsi, bayram əhval-ruhiyyələri, sanki mənə Şah Nadirin Tacqoyma mərasimini xatırladırdı. Nadir şahın öz igid qəhrəmanlarına erməni kənizlərinin necə hədiyyə etməsinin təntənəsini görürdüm. İki yüz səksən dörd il bundan qabaq qürurlu olan Suqovuşan, bu gün də qürurlu və əyilməz görsənirdi. O vaxtlar yumruqlanmış əli ilə, misri qılıncını havaya qaldıraraq"hoy"deyib, işğalçıları əzərək nəhəng bir məmləkət yaradan Nadir şah ənənəsi, bu gün Ali Baş komandan İ. Əliyev tərəfindən davam etdirilirdi. "Dəmir yumruq"əməliyyatının uğurundan sevinən əsgərlərimiz artıq Suqovuşana həsr edilmiş bayatı deyirdi:

Əzizim, Muğandüzü,
Ceyranlı, Muğan düzü.
Nadir, "şah" olan yerdi,
Suqovşan Muğan düzü.

"Dəmir yumruq" əməliyyatı nəticəsində erməni əsgərlərinin, qorxaqlığı, fərariliyi, döyüş meydanını tərk edərək silahları qoyub qaçmaları, məğlubiyyəti qəbul etmələri, əsir düşmələri inanılmaz bir hala çevrilmişdi. Birinci Qarabağ müharibəsində erməni quldurları əsirlərə qarşı ağlasığmaz işgəncələr verdiyi, hətta "general cəllad" M. Qriqoryan kimi antitürkün əsiri zəncirləyib it halına salmağa yönəlmiş şərəfsiz hərəkətlərinə rəğmən, Azərbaycan ordusu və bu orduya rəhbərlik edən Ali Baş

Komandan humanist addımları ilə, əsirləri vətənlərinə qaytarmağı məsləhət bilmişdi.Azərbaycan ordusu düşməni ərazilərimizdən qovaraq çıxartmaq əzmində idi. Elə müharibənin ilk günlərindən "Qarabağ Azərbaycandır!"deyən Ali Baş komandan xalqın qələbə istəyini həyata keçirmək ərəfəsində idi. Torpağa olan məhəbbət, vətən eşqi düşmənə qarşı mübarizədə əsgərlərimizi misilsiz qəhrəmanlıqlar göstərməyə sövq edirdi. Rəşadətli ordumuzun hucumlarına tab gətirməyən erməni faşistləri, Azərbaycan xalqının gözünü qorxutmaq üçün, ordumuzun hucumlarına cavab verə bilmədiyi halda, dinc əhalinin yaşadığı məskənlərə ağır silahlardan atəş açıb, dağıntılar yaratmaları onların nə qədər məkrli olmağından irəli gəlirdi. Bu bədxahlar dinc insanların ölümünə və yaralanmalarına səbəb olsalar da, xalq öz yurdunu tərk etməyərək , orduya, hökumətə, doğma torpağa bağlılığnı bayatı ilə ifadə edirdi:

Əziziyəm sin durar,
Ovçu gəzər, sin durar.
El yığılsa, bir olsa,
Zərbi kərən sındırar..

Erməni quldurlarının Ağdam, Tərtər, Goranboy, Gəncə, Bərdə şəhər və kəndlərinə atdığı mərmi və raketlər xalqı, ölümlərin və yaralıların olmasına baxmayaraq qorxutmadı. Düşmən, xalq-ordu-vətən birliyini poza bilmədi! Körpə uşağı ölmüş ata, qoca qadın və kişilər na-

mərd raketindən ölənlərini, dağılmış evlərini vətənə qurban dedilər.

"Vətən, ordu sağ olsun", "Qarabağ Azərbaycandır!"deməklə düşmənə od püskürdü xalq!

Xalq dözümündən qıcıqlanan xain düşmən gecə vaxtı dinc əhalinin yatmış olduğu bir vaxtda Gəncə şəhərinə namərdcəsinə raket ataraq, böyük dağıntılara, xeyli ölü və yaralılara səbəb olsalar da, xalq Gəncənin bütün çətinliklərini və dözümünü bayatıda tərənnüm etdi:

Əzizinəm Gəncədi,
İlyas gəzən Gəncədi.
Gecə raket atıldı,
Zülmə dözən Gəncədi.

Ali baş komandan İ.Əliyev xain düşməni kişi kimi, döyüş meydanında vuruşmağa çağıraraq, müzəffər ordumuza düşmənə "dəmir yumruğu" göstərməyi əmr etdi.Əmrin verilməsindən saatlar keçməmiş düşmənin nəinki minlərlə hərbiçisi, xeyli miqdarda ağır silahları, zirehli texnika və artilleriyası qəbiristanlıq meydanına çevrildi.

Bir çox ölkələrdə olmuş və bu ölkələrin xalqları ilə münasibət saxlamış bir el adamı olaraq, hərdən özümə sual verirəm ki, görəsən bizim xalq kimi elinə-obasına bağlı, vətən, torpaq eşqi ilə yaşayan ikinci bir xalq varmı?

Bu fikrimi ona əsaslandırıram ki, bir xalq olaraq, biz heç vaxt başqa xalqların torpağına göz dikməmişik, bu

torpaqların sahibləri ola-ola yüz illərdir ki, yadellilər tərəfindən işğala məruz qalmışıq. Yadelli zülmlərinə dözə-dözə torpaqlarımıza olan sevgimizi unutmamışıq. Məhz, məni bayatı deməyə vadar edən xalqımın məğrurluğudur:

Əzizim, zordu bu xalq,
Kökü "Boz qurddu" bu xalq.
Torpağı qanla alan,
Məğrur bir yurddu bu xalq!

Bizim dədə-baba torpaqlarımızda tarixən məskunlaşan erməni hərbiçilərinin fərarilik etməsi, döyüş meydanında silahını qoyaraq qaçması və "sakitcə"əsir düşməsi onunla bağlıdır ki, onlar doğma torpaqları uğrunda vuruşmurdular, bir qrup terrorçu-quldurların "yeni ərazi"ambisiyasına qurban gedirdilər.Tarix boyu da belə olmuşdur.Erməni xalqı öz ambisiyaları uğrunda onları güdaza verən "erməni hərislərinin"fitnəkarlığından əziyyət çəkmişlər.Erməni məsələsini bomba kimi ortaya atan İsrael Ori və digər məlik, katolikosların fitnəkar niyyətlərinə toxunan erməni tarixçisi F.Əkozyants "İsrael Ori.Larets Pandorı" kitabında yazır:

"İsrael Orinin başçılıq etdiyi məliklərin mübarizəsini, erməni xalqının farslardan azad olunması kimi yox, Farslarda yaşayan erməni xalqının etibarı və həyatı bahasına, maraqlar uğrunda məliklərin mübarizəsi kimi başa düşmək olar."

Erməni tarixçisinin həqiqətə əsaslanan bu fikirləri, bu gün vətən, torpaq uğrunda yadellilərə qarşı vuruşub, hələ həyatın dadını çıxartmadan şəhid olanlarımızın torpağa bağlılığını görəndə, istər-istəməz deyirsən:

-"İlahi yeni nəsil necə qürurlu və möhtəşəmdir!"

Ağılsız düşmən əsrlərlə bizim torpağımızda "qonşu" kimi yaşamasına baxmayaraq, Azərbaycan xalqının qüdrətini, türk oğlunun əyilməməzliyini, torpaq və vətən uğrunda şəhidlik zirvəsinə yüksəlmək eşqini heç vaxt qiymətləndirməmişdi. Xalq Türk oğlunun bu dəyanətinə, misilsiz igidliyinə bayatılar qoşurdu:

Polad sınar əyilməz,
Qızarmasa döyülməz.
Döyüşlərdə Türk oğlu,
Şəhid olar, əyilməz.

Erməni cəlladlarına əsir düşməmək üçün özünü sıldırım qayalıqdan atan əsgərin, yaxud düşmənə əsir düşəcəyi təqdirdə öz silahdaşından onu güllə ilə öldürməyi xahiş edən əsgərin, vətən, torpaq eşqini şəhidlik zirvəsi kimi qəbul etməsi ilahilik deyilmi?!

Məncə, belə əsgərləri olan xalq, vətən basılarmı?!

Əlbəətə Yox!

Azərbaycan xalqının qələbəsinə inanan və xalqı inandıran, humanizmliyi ilə seçilən prezidentimiz düşmən rəhbərlərinə, onların havadarlarına dəfələrlə müraciət edərək, insan qırğınlarına və dağıntılara səbəb olmamaq

üçün, hər an siyasi müstəvidə müharibənin həllinin mümkün olduğunu desə də, düşmən müharibə ritorikasından əl çəkmirdi. Düşmənə qarşı mübarizədə yaranmış mürəkkəb şərait çərçivəsində düzgün qərar qəbul edən zabitlərimizin, "Qarabağ Azərbaycandır!"deyən Ali Baş Komandanımız İ. Əliyevin cəsarətli səyi nəticəsində müzəffər ordumuz tərəfindən işğalda olan ərazilərimiz bir-birinin ardınca azad olunmağa başladı. Oktyabrın 4-də Cəbrayıl, oktyabrın 17-də Füzuli, oktyabrın 20-də Zəngilan, Oktyabrın 25-də Qubadlı şəhərləri, ətraf qəsəbə və kəndləri ilə tamamı ilə, Hadrut, Xocavəndin xeyli hissəsi, Laçın və Kəlbəcərin bir neçə yaşayış məntəqələri , başda möhtəşəm Murovdağ olmaqla, digər strateji yüksəkliklər də qısa bir müddətdə azad olundu. Qarşıda müharibənin talehini həll edəcək, 1-ci Qarabağ müharibəsində qırğına məruz qalmış Daşaltı və Qarabağın gözü Şüşanın azad edilməsi dayanırdı. Əsgərlərimiz noyabrın 4-də Daşaltıya, həsr etdikləri yeni bayatını deyərək hucuma başladılar:

Əzizinəm Daşaltı,
Otlaqları baş altı.
Yağı qırğın törətdi,
Əyilmədin Daşaltı.

Daşaltıya hucuma keçən müzəffər ordumuz quldur erməniləri Daşaltından qovub çıxarıb, sıldırım qayaları dırmaşaraq, Şuşanı əldən vermək istəməyən və güclü

hərbi silahlarla müdafiə mövqeyində dayanan düşməni, ağır texnikasız, qumbara, tapança və bıçaqla, eyni ilə digər sıldırımlı qayalardan Şuşaya qalxan xüsusui hərbi təyinatçılarımız olmaqla, əlbəyaxa döyüşə girişdilər. Əsgər və zabitlərimiz düşmənin dəfələrlə olan əks hucumunu dəf edib, Şuşaya daxil oldular.Şuşaya daxil olmaq üçün, əsgərlərimizin düşmənlə əlbəyaxa döyüşü dəhşətli bir mənzərəni xatırladırdı.Belə bir dəhşətli əlbəyaxa döyüş mənzərəsi tarixin heç bir zamanında nə baş vermişdi, nə də film olaraq göstərilmişdi.Nəhayət ki, otuz il həsrətini çəkdiyimiz Şuşa şəhərinə müzəffər ordumuz vətən bayrağını sancdı. Beləliklə bu xöşbəxt gündə, noyabrın 8-də Şuşa düşmənlərdən azad edilmiş oldu.

Ali Baş komandanımız İ. Əliyev həmən gün; "Əziz Şuşa biz qayıtdıq! Əziz Şuşa sən azadsan!-deyərək xalqımızın həsrətlə Şuşaya dikilmiş gözlərindən axan yaşa, sevinc bəxş etmiş oldu.

Ağır texnika ilə birlikdə Şuşadan qaçan erməni hərbi tör –töküntüləri vuruşmaqdan çəkinərək aradan tülkü kimi çıxmışdılar. Şəhərə daxil olan hərbiçilərimiz qəhrəmanlıq bayatılarını oxuyurdular:

Əzizim ər əsgərlər,
Nər, müzəffər əsgərlər.
İlham irəli dedi,
Çaldı Zəfər əsgərlər.

Yaşasın, Ali baş komandan İ.Əliyev!

Var olsun, Xilaskar!-deyən əsgərlərimiz Ali Baş Komandanın sərkərdəlik və xilaskarlıq missiyasını bayatı yolu ilə belə tərənnüm edirdilər:

Əzizim ər Xilaskar,
Xalqa rəhbər Xilaskar.
Qarabağ bizimdir! Hoy,
Hayqıran, nər Xilaskar.

Azad olunan bütün torpaqlar, o cümlədən Daşaltı və Şuşanın əlbəyaxa olaraq düşməndən azad edilməsi, dünya hərb tarixinin ilk dəfə qarşılaşdığı və öyrənəcəyi misli görünməmiş qəhrəmanlıqdır. Azərbaycan ordusunun düşmənə qarşı apardığı bu müharibə, dünya hərbi qurumları tərəfindən izlənərək, Azərbaycanın 21-ci əsrdə tətbiq etdiyi müharibə taktikasını yenilik kimi qəbul etdilər. Şuşa şəhəri alındıqdan sonra, biabırcasına məğlubiyyətə uğradığını və müharibəni davam etdirəcəyi təqdirdə tamamilə məhv olacaqlarını anlayan erməni ordu rəhbərləri N. Paşinyana məğlub olduqlarını bildirməklə, tezliklə müharibənin dayandırılmasını tələb etdilər. Moskvaya qarşı zidd siyasət aparan N. Paşinyan Avropa himayədarlarının susduğunu görüb, yeganə tarixi havadarı olan Moskvaya qarşı apardığı ziddiyyətli siyasətdən utanmadan, üzünə belə "yaşmaq" vurmadan, prezident V. Putindən başqa, digər arxa düşünmədiyindən gecəyarısı,

yalvarışla V. Putinə müraciət edərək, Azərbaycan hucumunu dayandırmağı xahiş etdi.

Sual olunur, nəyə görə N. Paşinyan gecəyarısı müharibənin dayandırılmasını vacib bilmişdi?

Çünki, bu gün təpədən dırnağadək silahlanmış və ciddi müdafiə olunan Şuşanı, əlbəyaxa vuruşla ələ keçirən Azərbaycan aslanlarının ildırım sürəti ilə Xankəndini azad etməsi şübhəsiz olacaqdı.

Hələ müharibə gedişatında xeyli insanların həlak olduğunu dilə gətirən V. Putin, müharibə edən tərəflərə müharibəni dayandırıb sülh danışıqlarına başlamağı dəfələrlə təklif etsə də, "məğlubedilməz ordu"eyforiyası ilə yaşayan Ermənistan rəhbərliyi bir neçə dəfə bu sülh təkliflərinə razılıq vermiş və hər dəfə erməni xislətlərinə uyğun olaraq xaincəsinə sülh təkliflərini pozmuşdu. Sülh təkliflərinə sadiq olan Azərbaycan prezidenti İ. Əliyevin dəfələrlə təkrar etdiyi kimi, yenə də erməni tərəfinin silahları yerə qoyacağı, terrorçu ordusunu qısa müddətdə cədvələ uyğun çıxaracağını deyəcəyi təqdirdə, müharibəni dayandıracağını deməsi qüvvədə qalırdı. Söz sahibi olan İ. Əliyevə V. Putin inandığından, sülh əldə olunmasına nail olundu ki, bu da müharibəni qalib Azərbaycanın xeyrinə olaraq dayandırmaqla, üçtərəfli Ermənistan, Azərbaycan, Rusiya bəyanatının qəbul edilməsinə gətirib çıxartdı. 44-günlük müharibə Azərbaycan ordusunun Zəfər qələbəsi ilə başa çatdı. Elləri-obaları azad olmuş və bu gündən etibarən özünü köçkün saymayan

xalq, uzun illərdən bəri ürəklərində nakam qalmış həsrətə son qoyan bayatı deyirdi:

Əzizim sözə qaldı,
Bir şirin sözə qaldı.
Yad qovuldu ellərdən,
El-oba bizə qaldı.

Üç yüz ilə qədər olan bir müddətdə Çar Rusiyasının, sonralar Sovet dönəmində də, Azərbaycan xalqının torpaqlarının parçalanmasına yönəlmiş siyasət, nəhayət ki, Azərbaycan dövlətinin dünya qurumları tərəfindən tanınan dövlət sərhədlərinə, Rusiyanın hörmətlə yanaşması özünü göstərmiş oldu.Bu həqiqəti öz çıxışlarında qeyd edən Rusiya Prezidenti V.V. Putinin siyasəti , xalqımız tərəfindən yüksək qiymətləndirildi. V.V.Putinin bu siyasəti həm də uzun illərdən bəri xalqımızın hafizəsində kök salmış, "Rus əsgəri ayaq qoyduğu torpaqda ot bitməz!" kimi tarixi məsəlin xalq hafizələrindən silinməsi demək idi. Bütün bunlarla bərabər, bir gecənin içində müharibənin dayandırılması və üçtərəfli Bəyənat bağlanması bir çoxları üçün möcüzə idi, eyni zamanda müəmma xarakteri daşıyırdı.Ancaq, Rusiyanın hazırkı siyasəti zamanın yaratdığı tarixi şəraitdən doğurdu. Bağlanmış Bəyanata görə, siyasi müstəvidə qələbəmizin tam həlli üçün Ağdam, Laçın, Kəlbəcər rayonlarının ərazisindən işğalçı erməni hərbiçilərinin çıxarılması (noyabrın 15-i Ağdam, Kəlbəcər noyabrın(15) 25, Laçın dekabrın 1-i)

və həmin ərazilərin Azərbaycan ordusunun ixtiyarına verilməsi qeyd olunurdu. Eyni zamanda Sovet dönəmindəki Azərbaycanın mövcud olduğu və beynəlxalq qurumların tanıdığı sərhədlərə uyğun demarkasiya aparılması nəzərdə tutulurdu. Bəyanata görə Laçın koridoru 5 km olaraq nəqliyyat koridoru kimi və Naxçıvanı Azərbaycanala birləşdirəcək Zəngəzur nəqliyyat koridoru 10 km olmaqla, təhlükəsizliyin təmin edilməsi üçün Rusiya sülhməramlılarının ixtiyarına verilirdi. Bəyanatda həmçinin Qazax rayonunun ərazisi olub sonradan zəbt edilmiş 7 yaşayış məntəqəsinin Azərbaycana qaytarılması da öz əksini tapmışdı.

Vətən müharibəsi olan 2-ci Qarabağ müharibəsi həm 44 günlük müharibə yolu ilə, həm də siyasi müstəvidə Azərbaycanın Qarabağda əldə etdiyi parlaq qələbə idi və Zəfərlə başa çatdı. Bununla da Ermənistan rəhbəri N. Paşinyanın düşünülməmiş "Qarabağ Ermənistandır və nöqtə" devizi rüsvayçılığa məhkum olduğu halda, İ. Əliyevin "Qarabağ Azərbaycandır və nida"şüarı parlaq qələbənin təsdiqi demək oldu. Ermənistanın Baş Naziri N. Paşinyanın rəhbərə yaraşmayan düşünülməmiş və ağılasığmaz hərəkətləri, Azərbaycan prezidenti, söz-əməl sahibi İ. Əliyevin xalq birliyinə əsaslanan "Dəmir yumruğu", bir el adamı olaraq məni məcbur etdi ki, nəinki N. Paşinyana, onu cuşa gətirən dünya ermənilərinə xitabımı nəsr yolu ilə deyil, nəzmə çəkməklə deyim:

Sələflərin tək Nikol, niyə dinc dayanmadın?
İlham haqqı deyərkən, ″röyadan″ oyanmadın!
Həddini aşdın;″Qarabağ bizimdir, nöqtədir!″
Şuşadakı rəqsin de, hansı milli kökdədir?
Tarixini bilməyən, musiqisin bilərmi?
Nöqtə qoyan ″rəhbər, ″nida silləsin yeyərmi?!
Nəticə çıxartmadın, Arayiklə dilləşdin,
Yeni torpaqlar üçün, ″Artsaxınla″birləşdin.
Himayədar eşqi ilə, siz keçdiniz vuruşa,
İgidlər atəşindən, tab etmədiz duruşa.
Alındıqca torpaqlar, -Hadrut, Zəngilan, Şuşa,
Əsgərlər hoy!- deyib, meydanda, gəlirdi cuşa.
Son qoyuldu işğala, haqq hamıya əyandır,
Əliyev demişdi:″Qarabağ Azərbaycandır!″
Yer üzünün xayları, niyə qanmayır bunu,
Yad torpağı tutmağın, Paşinyan, budur sonu!

Erməni varvarlarının bizim haqq işimizə qarşı apardıqları bu ədalətsiz müharibə onlara çox baha başa gəldi. ″Məğlubedilməz ordunun″ 10 minlərlə canlı itgisi, güzəşt yolu ilə, illər boyu, həm də 44 gün ərzində dayanmadan havadarlarından aldıqları və dəyəri milyardalardan çox olan bütün ağır hərbi texnikalarının cəhənnəmə vasil olması, döyüş meydanlarında qoyub qaçdıqları hərbi texnikaları, -topları, tankları, raket qurğuları, hərbi yük maşınları Ermənistan ordusunun tamamı ilə çökməsinə gətirib çıxartdı. Bu məğlubiyyət, eyni zamanda erməni faşistlərinin haqsızlığına önəm verən və bu qul-

durları hər vəhclə dəstəkləyən ermənipərəst havadarlarının "Məğlubedilməz ordu" mifindən "utanması" demək idi!

Üzümü sizə tuturam, ey erməni havadarları!

Sizcə Köçəryan, Sərkisyan, Paşinyan kimi ağılsız siyasətbazların güdazına gedən 10 minlərlə hərbçinin ölümü, həmən siyasətbazların öz xalqlarına qarşı genosidi deyilmi?!

Yüz ildən sonra, yenə ermənilər "əzabkeş xalq"maskasını geyib, öz xalqına qarşı etdikləri "genosidi" Azərbaycanlıların adına yazmayacaqlarmı?!

Yəqin ki, siz ermənipərəst havadarların xələfləri, uydurma genosid formalaşdırıb, Azərbaycanı qınayacaqlar, necə ki, böyük Türk dövləti üçün belə bir uydurma genosid formalaşdırmısınız!?

Məgər 1915-ci ildə "əzabkeş ermənilərin"Osmanlılar tərəfindən soyqırımı olmuşdumu?!

Əlbəətə yox!

Türkiyə dövləti ərazisində özlərinə dövlət yaratmaq arzusu ilə yaşayan erməni katolikos və millətçilərinin "Daşnaksütyun" partiyasının rəhbərliyi altında, Türklərə qarşı apardıqları müharibə və qiyamıların nəticəsində, erməni "başbilən"katolikoslarının öz xalqlarına qarşı törətdiyi cinayəti, Türklərin adına "genosid"kimi formalaşdırdılar.

İslamafob və ermənipərəst Avropa dövlət və qurumları, öz din qardaşlarının uydurma təbliğatına"inanıb",

bu inancdan müsəlman Türkiyəsinə qarşı bir təzyiq vasitəsi kimi istifadə etmirlərmi?!

Ermənilərin və onun ermənipərəst havadarlarının bizim haqq işimizə əngəl törətmələri və yeni ərazilər tutmaq eşqi ilə yaşayan bu varvar milləti, bizim xalqımıza qarşı ədalətsiz müharibəyə sürükləmələri nəticəsində, xalqımızın 3 minə yaxın igid övladları şəhidlik zirvəsinə qaxdılar, xeyli yaralı qazilərimiz oldu.

Xaincəsinə dinc əhalinin yaşayış məntəqələrinə atdıqları dağıdıcı raketlər nəticəsində 100-ə qədər körpəli, qadınlı, qocalı həlak olanlarımız, xeyli yaralılarımız yarandı.

Ölkəmizə dəyəri milyardlarla ölçülən maddi ziyan vuruldu. Müharibənin gedişatında, kəndbəkənd azad olunan torpaqlarımızda erməni vandallarının törətdiyi vəhşiliklər, yandırılmış və dağıdılmış yaşayış binaları, tarixi, dini , mədəni abidələrin, insanların müqəddəs ziyarətgah saydıqları qəbirlərin viran edilməsi, hətta nağıllarda eşitdiyimiz qorxulu goreşənləri öz erməni xislətlərinə layiq bilib, goreşənlik edənlərin üzdəniraq hərəkətləri, varvarlıqdan xəbər vermirmi?!

Ermənilər tərəfindən edilmiş viranəliklərə baxanda düşünürsən ki, heç Afrikada yenicə əmələ gəlmiş və ibtidai yaşayış dövrünü keçirən varvar qəbilələr, belə vəhşiliklərə yol verməzdilər. Ermənilərin bizim xalqa qarşı yönəlmiş zülm xislətini görkəmli şairimiz B.Vahabzadə şeirində belə əks etdirmişdir:

Biz başdan ayağa rəhmik, şəfqətik
O kin dağarcığı, o goreşəndir
Biz əvvəl insanıq, sonra millətik,
O, insan olmadan millətləşəndir.

İstiqlal şairimizin haqqdan xəbər verən bu qiymətləndirməsindən sonra, istərdim hayqırım, - Demokratiyadan dəm vuran dünya dövlətləri və qurumları, qəbilədən də dəhşətli vəhşiliklər törətmiş erməni vandallarının himayədarları, məgər bu vəhşilikləri görmürdünüzmü?!

İyirmi birinci əsrin iyirmi illiyi dövründə, insanların min kilometrlərlə görüntülü unsiyyət qurduğu vaxtda, kosmosda yaşamaq üçün düşündükləri bir vaxtda, bu dağıntıları görmək və vandallara, dur!- demək, mümkün deyildimi?!

Əlbəətə, mümkün idi!

Bu əslində demokratiya adından çıxış edənlərin, islamafobların müsəlman dünyasına olan "kor"bir baxışı idi!

Necə olur ki, erməni vandalları Azərbaycan-müsəlman məscidlərini dağıtmaqla bərabər, təhqiramiz olaraq, bizim üçün müqəddəs olan dini məbəd və ziyarəgahlarımızı heyvan tövləsinə çevirirlər?!

Necə olur ki, bu demokratik qurum və dövlətlər Azərbaycan ərazisində azad edilmiş torpaqlarda Xristiyan kilsələri qorumağı, utanmadan Azərbaycan dövlətindən tələb edirlər?!

Azərbaycan xalqı, dünyaya gəlişinin ilk anından humanistliyi ilə seçilir, hörmətli İslamafoblar!

Azərbaycan-Alban dövlətçiliyi dövrlərində Qarabağda mövcud olan Xristiyan məbədlərinə xalqımız ehtiramla yanaşıb. Dünya onu da bilməlidir ki, əzəli Azərbaycan-Alban olan xalqlar həm xristiyanlığa, həm də müsəlmançılığa itaət etmişlər. Odur ki, Azərbaycan xalqı heç bir dini seçkilik etmədən, bütün tarixi-dini məbədlərə ehtiramla yanaşır və qoruyur.

Müsəlman dünyasının böyük peyğəmbəri Məhəmməd deyirdi:"İslam-Adəmin, Avraamın, Moiseyin və İisusun dinidir. "Əgər, böyük peyğəmbərimiz belə buyurubsa, deməli bütün müsəlmanların dini borcudur ki, başqa dinlərə də hörmətlə yanaşsın. Ona görə də, bütün demokratiyadan danışan dünya dövlət və qurumlarına üz tutaraq bir el adamı kimi deyirəm:

-Cənablar! Siz bizim haqq işimizə xor baxmayın, bəs edər!Azərbaycan xalqının milli adət-ənənəsi, qeyrəti, yer kürəsinin bütün insanlarına dinindən, millyətindən, irqindən asılı olmayaraq həssas yanaşması, intellaktual səvityyəsi, mentaliteti bizləri, - Azərbaycan xalqını dünyada təmsil edən prezidentimiz İ.Əliyevin timsalında görə bilərsiniz.

Qaldı ki, digər millətlərin dini məbəd və kilsələrinə müsəlman münasibəti?! Müsəlman dünyası böyük ehtiramla yanaşdığı peyğəmbərinin qoyduğu dini qanunlara riayət edərək, digər dinlərə də hörmətlə yanaşır.

Bizim dini əxlaqımız, sizlərin himayədarlıq etdiyiniz Qriqoriyan-Xristiyan dininin daşıyıcıları olan ermənilər kimi varvarlığa meyilli deyildir!

Xatırlayıram ki, hələ cavan vaxtlarımda, dəqiqi 1979-cu ildə Moskva yaxınlığında, mədəniyyət xadimləri üçün nəzərdə tutulmuş Şelikovo sanatoriyasında dincələrkən, sanatoriya rəhbərliyi tərəfindən bizi muzey və məbədlərə, o cümlədən ecazkar arxitekturaya malik olan kilsələrə də ekskursiyaya aparardılar. Belə ekskursiyaların birində bizi kilsələrin birinə dəvət etmiş oldular. O vaxt kı, baxışlarıma rəğmən mən Azərbaycanlı-müsəlman olduğumdan tərəddüd keçirdim və kilsəyə daxil olmadım. Ekskursiya rəhbəri, mənim tərəddüdümün səbəbini bildikdə, qeyd etdi ki, bütün dinlərin dini məbədləri Allah evidir. Tərəddüd etməyə dəyməz, -deyib məni xoşhallıqla kilsəyə dəvət etdi. Kilsədəki din xadimi, dini moizə oxuyur, dindar insanlar isə xaç vururdular. Mən müsəlman olduğumdan və dini məbədi Allah evi qəbul etdiyimdən, öz dinimizə uyğun sitayiş etməli oldum. Bu zaman ibadətə gələn xristiyan dindarlar mənə təəccüblü baxış göstərəndə, dini moizə oxuyan din xadimi dindar əhlini sakitliyə çağırıb, mənə təəccüblü baxanlara başa saldı ki, kilsəmiz Allah evidir və bütün din adamları, o cümlədən bu cənublu oğlan, Allah evində öz dininə uyğun sitayiş edə bilər. Məhz bu andan sonra, ibadət edən xristiyan dindarlar mənə təbəssüm göstərmiş oldular. Yaşa dolduqca və ümumibəşəri elmlərə yiyələndikcə, qarşılaşdığım xalqlarla qurduğum münasibətlərin təcrübəsinə əsasən, mütərəqqi dini fikirlərə bel bağlayaraq anladım ki, bütün dini məbəd və kilsələr Allah evidir.

Belə olan halda, erməni vandallarının, müqəddəsliyi ilə seçilən və Allah evi olan müsəlman məscidlərini dağıtmalarına, heyvan tövləsinə çevirmələrinə nə ad vermək olar?

Məgər bu varvar millətin Allahdan qorxuları yoxdurmu?!

Əgər bütün dinlərin yaradıçısı olan Allahdan, ermənilərin qorxusu yoxdursa, qətiyyətlə demək olar ki, ermənilərin dini olan Qriqoriyançılıq yalanlar üstündə qurulub və Xristiyanlığa bir ləkədir. Ermənilər tarixən dindən, kilsədən bir alver, cəbbəxana kimi istifadə ediblər, dini sitayiş mərkəzi kimi yox!

Şərqi Anadoludan, Sis şəhərindəki Kilikiyadan, Qaraqoyunlu Cahan şahın icazəsi ilə Üçmüəzdzinə köçüb, onu Üçkilsə edən erməni katolikosları, yeni torpaqlar hesabına kilsələr tikib qriqoriyanlaşma, erməniləşmə aparmaqla kilsəyə“alver, ”“Cəbbəxana”, “Dövlət”gözü ilə baxmışlar!

Məgər, Üçkisə katolikosları və məliklər İsrael Ori adlı məkrli antitürkün birini yazılmış məktublarla , bir ucu Avropadan tutmuş Rusiyaya qədər hökmdarların yanına kömək üçün, “əsarətdən qurtulmaq” üçün, “əzabkeş xalq” olaraq, “erməni xristiyan dövləti” yaratmaq arzusu ilə göndərməmişdilərmi?

Məhz bu Üçkilsə katolikoslarının əli ilə, Qarabağın Alban monastırları qriqoriyanlaşdırılıb, erməniləşdirilmədimi?

Uydurduqları "Dağlıq Qarabağ"da ikinci "dövlət"yaratmaqla uydurma "Böyük Ermənistan" röyasını reallığa çevirmək istəmirdilərmi?!

Artıq, bütün bu erməni mifi və haqsızlıqları 44 günlük parlaq qələbədən sonra tarixin arxivinə çevrilmiş oldu.

Azərbaycan xalqı, ordusu öz müdrik xilaskarının rəhbərliyi ilə Zəfər çalaraq, azad Qarabağ torpaqlarında, "Böyük qayıdış" dövrünə qədəm qoydu.

Bir ucu Murovdan tutmuş, Bartazın ən yüksək dağlarındakı şiş qayalı qarlar, günəşin parlayan şöləsindən, ətrafa saçan şəfəq kimi , azad torpağın ilk müjdəçisiydi . Günəşin şöləsi "Böyük qayıdış"a gələn, günəşli Azərbaycan ölkəsinin, Zəfər bayraqlı odlar xalqını salamlayırdı.

## Son

## İstinad olunan ədəbiyyatlar və informasiyalar

1. Qarabağ: real tarix, faktlar, sənədlər. Nəşr ili, 2005. müəlliflər, Yaqub Mahmudov, Kərim Şükür

2. İrəvan xanlığı. (Azərbaycanca-Rusca), nəşr ili 2010. müəllif, kollektiv-AMEA A. A. Bakıxanov adına Tarix İnstitutu.

3. Real Tarix və “Böyük Ermənistan”uydurması. Nəşr ili, 2014. müəllif: Yaqub Mahmudov.

4. Şərqi Anadolu, Naxçıvan və İrəvan bölgəsində ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımları. Nəşr ili, 2014. müəllif:Gültəkin Nəcəfli.

5. Saxtakarlığın yalançı elmi, yaxud ermənisayağı “tarix”. (rusca). Nəşr ili, 2017. Müəllif:Yaqub Mahmudov.

6. Azərbaycanın Qarabağ bölgəsində Azərbaycanlıların soyqırımı. (1918-1920) nəşr ili, 2014. Müəllif:Natiq Məmmədzadə.

7. İrəvanı bizdən kimlər, necə aldılar? Sayt:azpolitika. info , Dərc olunub:02. 06. 2020-ci il. Müəllif:Ramazan Siracoğlu.

8.Irəvan Ermənistana niyə verildi. Axar.az Müəllif:Hacı Qulu, dərc tarixi: o1 iyun 2016.

9. AXC dövründə Azərbaycan torpaqlarının Ermənistana verilməsi acı tarixdir. Sayt: news. milli. az , Dərc olunub:5 iyun 2020-ci il. Tarixçi: Sübhan Talıblı.

10. Рукописи не горят: «о том, как Нагорный Карабах заселили армянами, рассказывают архивные документы.» Sayt: Oxu az. Dərc olunub: 29 oktyabr 2020-ci il. Müəllif:Ramella Ибрагimxalilova.

11. Azərbaycan Folkloru Antologiyası. 10-cu kitab. (Xalq bayatıları, müəllif bayatıları, -Fizzə Məmmədova; Mir Abbas Mirməcid oğlu, (Təvəkküllü), Nəşr ili:2004, Bakı-"Səda"

12. İnternet saytlarındakı Vikipediyalar və digər məlumatlar.

13. V.V.Putindən Ermənilərlə bağlı şok etiraf. https://youtu/be/FVU8Sk7dqOI

14.Экозьянц Ф.В. «Исраел Ори.Ларец Пандоры» Москва, Издатель Воробьев А.В. 2020.

15.Əli Sobulu "Rusiya işğalları və Zəngilan. "Bakı."Avropa"nəşriyyatı.2013.

16.Hacı Əli Sobulu. "Mənim yaşadığım həyat."Bakı. 2019.

## Kitabın içindəkilər:

Parçalanan məmləkət və Böyük qayıdış.
(Tarixi roman) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3-171

*Qeyd üçün*

**SURXAY SUBU**

# PARÇALANAN MƏMLƏKƏT
# VƏ BÖYÜK QAYIDIŞ

"Elm və təhsil" nəşriyyatının direktoru:
*professor* **Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 27.02.2021
Şərti çap vərəqi 11,5. Sifariş № 36
Kağız formatı 60x84 1/16. Tiraj 300

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4